Xalqın qəzeti!
# Xalq qəzeti
№ 266 (30960) 18 dekabr 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan dünyanın mötəbər idman ölkəsidir

*Azərbaycan Prezidenti İlham Əliyev Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşüb, bir sıra tədbirlərdə iştirak edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə səfər edib.**

Dekabrın 17-də Əbu-Dabidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub.

Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Əbu-Dabidə keçirilən "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində dəvətə görə təşəkkür etdi və bu tədbirin Birləşmiş Ərəb Əmirliklərində yüksək səviyyədə təşkil olunması münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı.

*(ardı 2-ci səhifədə)*

## Ankara–İrəvan normallaşması və Azərbaycan amili



Səhifə ⇨ 5

## Bakı dünyanın da İDMAN PAYTAXTI oldu



Səhifə ⇨ 3

## 2026-cı il: Müdafiə, təhlükəsizlik və iqtisadiyyatda canlanma

*Nə üçün müdafiə və təhlükəsizlik birinci yerdədir?*

**Bu mərhələdə siyasi mənsubiyyətindən asılı olmayaraq Prezident İlham Əliyevin ətrafında hamılıqla dəmir yumruq kimi birləşmək 1993, 2003, 2013, 2020-2023-cü illərdəki qədər və hətta daha çox həyati əhəmiyyət kəsb edən bir milli missiyadır. Çünki:**

Hazırda qlobal mübarizə Baltikdən Qara dənizə qədər Şərqi Avropaya, Qara dənizdən Xəzərə qədər Cənubi Qafqaza, nəhayət, Xəzərin şərq hissəsində Mərkəzi Asiyaya nəzarət uğrundakı geosiyasi savaşdır. Bu 3 regiona nəzarət edən qüvvə Avrasiyaya nəzarət paketini əlində saxlayacaq. Cənubi Qafqaz bu zəncirin, Azərbaycan isə Cənubi Qafqazın açar ölkəsidir.

*(ardı 9-cu səhifədə)*




### 22 ilin ən geniş amnistiyası



Səhifə ⇨ 3

### Post-Brexit mərhələsində yeni tərəfdaşlıq axtarışları



Səhifə ⇨ 4

### Sərhədlər ayırır, dəyərlər birləşdirir



Səhifə ⇨ 4

### ABŞ-ın yeni təhlükəsizlik arxitekturası



Səhifə ⇨ 6

### Kreml keçmişlə vidalaşmağa tələsmir



Səhifə ⇨ 6

### Zəngəzur dəhlizi XXI əsrin yoluna çevrilir



Səhifə ⇨ 7

*I Türkoloji Qurultay – 100*

### 100 il əvvəldən gələn səslər



Səhifə ⇨ 11

# Azərbaycan Prezidenti İlham Əliyev Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə görüşüb, bir sıra tədbirlərdə iştirak edib







**(əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısının BƏƏ-yə, BƏƏ Prezidentinin isə Azərbaycana səfərləri məmnunluqla xatırlanaraq, bütün bunların və müxtəlif səviyyələrdə həyata keçirilən digər qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında roluna toxunuldu.

Görüşdə Azərbaycan və BƏƏ prezidentləri əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi apardılar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak ediblər.

Qeyd edək ki, "Gələcəyin Oyunları" hər il təşkil olunması nəzərdə tutulan qlobal idman turniridir. Turnir iki mərhələdə həyata keçirilir. İlk mərhələdə idmançılar fiziki idman növləri üzrə yarışırlar. İkinci mərhələdə isə idmançıların rəqəmsal oyunlar üzrə bacarıqları sınaqdan keçirilir. "Növbəti nəsil insanlar. Gələcəyini oyna" devizi altında təşkil olunan turnirdə müxtəlif ölkələrdən idmançılar ümumilikdə 11 idman növü üzrə yarışacaqlar. Ötən il BƏƏ 9 iddiaçı namizəd arasında qalib gələrək, 2025-ci ildə keçiriləcək "Gələcəyin Oyunları" turnirinə ev sahibliyi etmək hüququ qazanıb.

Daha sonra Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə nahar verilib.

***AZƏRTAC***

# Avropa İttifaqı nümayəndəsi Milli Məclisdə



**Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 17-də Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç ilə görüşüb.**

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb. Xüsusilə, 2025-ci il ərzində əlaqələrdə, qarşılıqlı səfər və görüşlərdə müşahidə olunan müsbət dinamikadan məmnunluq ifadə olunub, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşlərinin tərəflər arasında ikitərəfli gündəliyin müxtəlif aspektlərinin müzakirəsi baxımından əhəmiyyəti qeyd edilib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziç Azərbaycan və Ermənistan arasında sülh istiqamətində əldə olunan nailiyyətlər münasibətilə təbriklərini çatdırıb və bunu tarixi hadisə kimi dəyərləndirib.

Milli Məclisin sədri diplomata Azərbaycan və Ermənistan sülh prosesi, o cümlədən parlamentlər arasında etimad quruculuğu tədbirləri haqqında məlumat verib. Bu kontekstdə "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik"də Azərbaycan–Ermənistan sülh prosesi baxımından narahatlıq doğuran məqamlara toxunub. S.Qafarova, həmçinin Milli Məclisin Avropa İttifaqına üzv ölkələrin parlamentləri ilə sıx əməkdaşlığını qeyd edib.

*

Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Houssam-Eldine Reda ilə də görüşüb.

Görüşdə ölkələrimiz arasında dostluq münasibətlərinin hazırkı səviyyəsindən razılıq ifadə olunaraq, əlaqələrin inkişafında dövlət başçılarının rolu və dəstəyi qeyd edilib.

Söhbət zamanı Milli Məclis və Misir parlamentinin həm yuxarı, həm də aşağı palataları arasında müsbət əməkdaşlıq əlaqələrindən razılıq ifadə olunub.

Səfir Houssam-Eldine Reda isə gələcək fəaliyyətində digər sahələrdə olduğu kimi, qanunvericilik orqanları arasında da təmasların daha da genişləndirilməsinə töhfə verməyə çalışacağını söyləyib.

***XQ***

# Maliyyə naziri BMT-nin rezident əlaqələndiricisi ilə görüşüb



**Maliyyə naziri Sahil Babayev BMT-nin Azərbaycan Respublikasındakı Nümayəndəliyinin rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə səlahiyyət müddətinin bitməsi münasibətilə görüşüb.**

Görüşdə cari ilin oktyabr ayında Azərbaycan Respublikası hökuməti ilə BMT arasında imzalanmış "2026–2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi" ətrafında fikir mübadiləsi aparılıb.

Sənədin milli inkişaf prioritetlərinə və "Dayanıqlı İnkişaf Məqsədləri üzrə 2030 Gündəliyi"nə uyğunluğu, eləcə də onun praktiki nəticələrə çevrilməsi imkanları müzakirə olunub.

Sahil Babayev Azərbaycanın milli inkişaf gündəliyinin və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə formalaşmış çoxşaxəli tərəfdaşlığının əhəmiyyətli rol oynadığını vurğulayıb, həmçinin bu tərəfdaşlığın daha da genişləndirilməsi və təşəbbüslərin səmərəli icrası istiqamətində Azərbaycanın mövcud prioritetlərini qarşı tərəfin diqqətinə çatdırıb.

V. Andreyeva Azərbaycanda 4 il yarımdan artıq davam edən səlahiyyət müddəti ərzində BMT-nin ölkə üzrə nümayəndəliyi ilə Azərbaycan Hökuməti arasında formalaşmış yüksəksəviyyəli tərəfdaşlığa və əməkdaşlığa görə təşəkkürünü bildirib.

***XQ***

# Azərbaycan–Türkiyə hərbi əməkdaşlığı müzakirəsi

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov 17-ci Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının 2-ci rəisi ordu generalı Levent Ergünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



General-polkovnik Z.Həsənov Azərbaycan və Türkiyə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirib. Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını xüsusi vurğulayıb.

Ordu generalı L.Ergün isə öz növbəsində Hərbi Dialoq İclası ilə bağlı keçiriləcək görüşlərin Bakıda təşkilinə görə Z.Həsənova təşəkkürünü bildirib, ölkələrimiz arasında əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığını diqqətə çatdırıb.

Görüşdə hər iki qardaş ölkə arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın yeni perspektivləri, həmçinin regional təhlükəsizlik və maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

***XQ***

# MEDİA-nın Müşahidə Şurası ilə yekun vurub



**Dekabrın 17-də Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının ilin yekunlarına həsr olunmuş iclası keçirilib.**

İclasda Müşahidə Şurasının sədri Dağbəyi İsmayılov, Müşahidə Şurasının üzvləri Vüqar Əliyev, Şəfəq Mehrəliyeva, Sevil Mikayılova, Elçin Şıxlı və agentliyin İcraçı direktoru Əhməd İsmayılov iştirak ediblər.

İclas zamanı agentliyin cari il ərzində həyata keçirdiyi fəaliyyətlər, prioritet istiqamətlər üzrə görülmüş işlər, beynəlxalq əməkdaşlıq çərçivəsində əldə olunan nəticələr və təşkil edilən layihələrin ümumi media mühitinə təsirindən bəhs edilib.

Eyni zamanda, növbəti dövr üçün əsas hədəflər, tərəfdaşlıq əlaqələrinin daha da genişləndirilməsi və qlobal informasiya mühitində Azərbaycanın mövqeyinin gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, görüş çərçivəsində Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Müşahidə Şurasının üzvlərinə "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalını təqdim edib.

***XQ***

# Energetika Nazirliyində vətəndaşlarla görüş



**Energetika naziri Pərviz Şahbazov Bakı şəhəri, Qusar və İmişli rayonlarından olan vətəndaşlarla görüşüb.**

Görüş zamanı qaz xəttinin yerinin dəyişdirilməsi, enerji sərfiyyatı üzrə borcun yaranması, elektrik enerjisinin keyfiyyəti, elektrik təsərrüfatının yenilənməsi, elektrik və qaz sayğaclarının quraşdırılması, elektrik xəttinin mühafizə zolağı, işlə təminat və digər istiqamətlərdə müraciətlər dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

***XQ***

# Bakı dünyanın da İDMAN PAYTAXTI oldu






**Xəbər verildiyi kimi, dekabrın 16-da Avropanın İdman Paytaxtları Federasiyasının (ACES) qərarı ilə ölkəmizə yüksək etimad göstərilərək, Bakı şəhərinə 2026-cı ildə "Dünyanın İdman Paytaxtı" statusunun verilməsi təsdiqlənib.**

Qeyd edək ki, Azərbaycan bu təşəbbüsə hələ 2024-cü ildə qoşulmuş və Bakının namizədliyi irəli sürülmüşdü. O zaman ölkəmizə gələn və idman həyatımızla yaxından tanış olan ACES-in yaradıcısı Qian Fransesko Lupatelli mətbuat konfransında demişdi ki, burada gözəl təqdimat nümayiş etdirildi və Avropa Parlamentində Bakının 2026-cı ildə dünyanın idman paytaxtı seçiləcəyinə inanıram.

Nəhayət, srağagün Belçikanın paytaxtı Brüsseldə Bakının 100 ballıq şkala üzrə ən yüksək nəticəyə nail olması və zəngin idman ənənələri, maddi-texniki bazası, həmçinin beynəlxalq yarışları yüksək səviyyədə keçirmək üzrə böyük təcrübəsi nəzərə alınaraq, gələn il üçün dünyanın idman paytaxtı olacağı təsdiqləndi. ACES prezidenti Can Fransisko Lupattelli Bakının idmanın inkişafına daim yol açdığını vurğuladı və qeyd etdi ki, bu şəhər hər zaman keyfiyyətli idman obyektləri ilə seçilib.

ACES barədə qısaca onu bildirək ki, bu qurum beynəlxalq qeyri-kommersiya assosiasiyası olaraq, hər il müxtəlif qitələrdən şəhərlərə "İdman Paytaxtı" statusu verir, idman mükafatları təqdim edir. Həmin titul və mükafatlar cəmiyyətin sosial inteqrasiyasına, psixofiziki rifahının, həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. ACES, həmçinin Avropa Komissiyasının Avropa İdman Həftəsinin və UNESCO-nun tərəfdaşıdır.

Bəli, "İdman Paytaxtı" layihəsinin qazanılması bu sahədə həyata keçirilmiş böyük işlərin, qazanılmış yüksək nüfuzun obyektiv və layiqli yekunudur. Ölkəmizdə, xüsusilə də Bakıda keçirilmiş mötəbər yarışlar bütün aspektlərdə nümunəvi səviyyədə təşkil olunub, paytaxtımızın qonaqları hər dəfə Azərbaycanı zəngin təəssüratla tərk ediblər.

Bir neçə misal: Düz 10 il əvvəl "Bakı-2015" I Avropa Oyunlarında paytaxtımız qitənin 50-dən çox ölkəsinin ən güclü atletlərinin gərgin mübarizə meydanına çevrildi və beləliklə, Azərbaycan Avropa Oyunlarının ilk vətəni kimi tarixə düşdü. Möhtəşəm Olimpiya Stadionu, Heydər Əliyev adına İdman Sarayı, "Tofiq Bəhramov" stadionu, Milli Gimnastika Arenası, Bakı İdman Sarayı, Atıcılıq Mərkəzi və digər idman qurğularında yarışların əla təşkili ölkəmizin beynəlxalq nüfuzunu daha da artırdı.

İlk Avropa Oyunlarından 2 il sonra Bakı daha bir böyük idman bayramına – IV İslam Həmrəyliyi Oyunlarına ünvan oldu. Dünya İslam ölkələrinin ən yaxşı idmançılarının Bakı "marafon"u bütün iştirakçılarda rəğbət yaratdı və İslamiadanın tarixinə qızıl hərflərlə yazıldı. Həm I Avropa Oyunlarının, həm də IV İslam Həmrəyliyi Oyunlarının paytaxtımızda məhz Olimpiya yarışları səviyyəsində təşkil edildiyini dostlarımız da, bədxahlarımız da etiraf etməli oldular.

Artıq dünyada aparıcı idman ölkəsi kimi tanınan Azərbaycanın bir çox mötəbər beynəlxalq yarışlarda, rəsmi çempionatlarda uğurları da uzun illərdir ki, davam edir. Bu, ilk növbədə Prezident İlham Əliyevin 1997-ci ildən bəri Milli Olimpiya Komitəsini (MOK) prezidenti vəzifəsini layiqincə daşımasının nəticəsidir. Azərbaycanda idmanın və olimpiya hərəkatının intibah dövrü məhz həmin vaxtdan başlanıb. Dövlətimizin başçısı İlham Əliyevin MOK prezidenti kimi ilk addımları rəsmi idman strukturları və milli idman federasiyaları ilə sıx əlaqələrin qurulmasını, idman işinin əməli olaraq canlandırılmasını əhatə edib. İslahatlar sayəsində ölkəmizdə idmanın və olimpiya hərəkatının yeni inkişaf mərhələsinə keçid reallaşıb, idmançıların sosial problemləri ilə bağlı bir sıra məsələlər həllini tapıb, federasiyaların işində ciddi dönüş yaranıb. Bir mühüm amil də idman sahəsində beynəlxalq əlaqələrin düzgün qurulması və genişləndirilməsi olub.

Əlbəttə, bədən tərbiyəsi və idmanın əhalimizin həyatının ayrılmaz bir parçasına çevrilməsi, fəxri kürsülərə qalxan atletlərimizin yüksək vətənpərvərliyi, qələbə əzmi də danılmaz amillərdir. Daim dünyanın ən mötəbər idman yarışlarında üçrəngli bayrağımız qaldırılır, dövlət himnimiz səsləndirilir.

Yaxşı xatırlayırıq ki, 2022-ci ilin noyabrında Bakıdakı "Gülüstan" sarayında Azərbaycan Milli Olimpiya Komitəsinin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Avropa Olimpiya Komitələrinin prezidenti Spiros Kapralos ölkəmizdə idmanın inkişafına heyranlığını ifadə edərək bildirdi ki, Azərbaycanda bu sahəyə dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğının nəticəsində ölkədə ən müasir idman infrastrukturu yaradılıb və azərbaycanlı atletlər beynəlxalq arenada layiqincə çıxış edirlər. Bütün bunlar Azərbaycan Prezidenti (eyni zamanda MOK prezidenti) İlham Əliyevin yürütdüyü uğurlu idman siyasəti sayəsində mümkün olub. Bu ilin fevralında MOK-un IX hesabat-seçki baş məclisində dövlət başçımızın yekdilliklə növbəti 4 il müddətinə qurumun rəhbəri seçilməsi ilə bütün idmansevərlərimiz fəxr edirlər.

Onu da deyək ki, dünya coğrafiyasında Azərbaycan nisbətən kiçik ölkə sayılsa da, idmançılarımızın Olimpiya Oyunlarındakı uğurları bir-birini əvəz edir. Pekin–2008-də 6 (1 qızıl, 1 gümüş, 4 bürünc) medal qazanan atletlərimiz London–2012-də 9 (2 qızıl, 2 gümüş və 5 bürünc), Rio–2016-da 18 (1 qızıl, 7 gümüş və 10 bürünc), Tokio–2020-də 7 (3 gümüş, 4 bürünc), Paris–2024-də 7 (2 qızıl, 2 gümüş, 3 bürünc) medalla Vətənə qayıdıblar.

Dünya da görür ki, Bakıda idman həyatı xeyli cəlbedicidir və bu ovqat yüksək olaraq qalır. Paytaxtımız təkcə ona həvalə edilən böyük beynəlxalq yarışların yüksək səviyyədə təşkili ilə fərqlənmir, həm də burada sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri, onların sağlamlıq və gümrahlıq məşğələlərindən zövq almaları üçün hər cür şərait var. Ayrı-ayrı beynəlxalq federasiyaların öz çempionatlarını, olimpiya



təsnifat turnirlərini, digər mötəbər yarışları paytaxtımızda keçirmək istəyi elə bu ab-havadan qaynaqlanır.

Yeni fəxri status isə, eyni zamanda, paytaxtımızda keçiriləcək beynəlxalq yarışlar və idman tədbirləri, o cümlədən 2026-cı ildə burada baş tutacaq Avropa çempionatları və digər mötəbər turnirlər (məsələn, futbol üzrə Avropa Çempionatının oyunları) ilə əlaqədardır. Bütün bunlar deməyə əsas verir ki, Bakının 2026-cı ildə "Dünyanın İdman Paytaxtı" seçilməsi heç də təsadüfi deyil. Bakı bu ada layiqdir və ona göstərilən yüksək etimadı şərəflə doğrultmağa qadirdir!

***Əli NƏCƏFXANLI***
***XQ***

# 22 ilin ən geniş amnistiyası

## *Cəmiyyət hüquqi humanizmin yeni mərhələsinə yüksəlib*

**Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" çərçivəsində amnistiya ilə bağlı təşəbbüsü formalaşmış siyasi-hüquqi fəlsəfənin ardıcıl və məntiqi davamı kimi dəyərləndirilməlidir. Milli Məclisə təqdim olunan amnistiya aktı miqyasına görə Prezidentin 22 illik hakimiyyəti dövründə irəli sürülmüş 7-ci və ən geniş əhatəli hüquqi sənəddir.**

Ayrı-ayrı dövrlərin statistik göstəriciləri bu siyasətin ardıcıl xarakter daşıdığını aydın şəkildə təsdiqləyir. 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində qəbul edilən amnistiya aktları on minlərlə şəxsə şamil olunmaqla postsovet keçid dövründə yaranmış sosial gərginliyin azaldılmasına xidmət edib. Son mərhələdə isə əfv və amnistiya qərarları artıq sabit dövlət idarəçiliyi, formalaşmış hüquqi institutlar və ictimai təhlükəsizlik balansı fonunda həyata keçirilir. Bu baxımdan, 2023-cü ildə imzalanmış əfv sərəncamı müstəqillik tarixində ən geniş əhatəli fərdi əfv aktlarından biri kimi dəyərləndirilir. Həmin sərəncamla 801 məhkum əfv olunub, onlardan 463 nəfər azadlıqdan məhrumetmə cəzasından tam azad edilib, 220 nəfər isə cəzasının çəkilməmiş hissəsinin yarısından azad olunub. Ardınca 2024-cü ildə qəbul edilən əfv sərəncamı 154 nəfərə şamil edilib, həmin şəxslərdən 63 nəfər azadlıqdan məhrumetmə cəzasından azad edilib.

Ölkə başçısının amnistiya aktı ilə bağlı təşəbbüsündən dərhal sonra, dekabrın 16-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində müvafiq iclas keçirildi. Komitənin sədri Əli Hüseynli çıxışında bildirdi ki, təqdim olunan layihə "Amnistiya tətbiq edilən şəxslərin dairəsi", "Amnistiyanın tətbiqinə məhdudiyyətlər", "Amnistiya aktının hüquqi qüvvəsi" və "Amnistiyanın tətbiqi qaydaları" olmaqla 4 əsas hissədən ibarətdir. Ə.Hüseynli, eyni zamanda, bu amnistiya aktının "Konstitusiya və Suverenlik İli"nin sonunda Azərbaycan xalqına təqdim edilən ən mühüm və əhatəli hüquqi töhfələrdən biri olacağına əminliyini ifadə edib. Qeyd edək ki, Milli Məclisin növbəti plenar iclasında "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında qərar layihəsi müzakirəyə çıxarılacaq. Qərar layihəsi parlament tərəfindən qəbul edildikdən sonra məhkəmə və ədliyyə orqanlarına göndəriləcək və onun icrasına başlanılacaq. Vurğulanmalıdır ki, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndinə əsasən, amnistiya məsələlərinin həlli Milli Məclisin müstəsna səlahiyyətinə daxildir.

* * *

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev** bildirdi ki, formalaşmış dövlətçilik təcrübəsində dövlət öz mövcudluğunu yalnız cəzalandırma mexa-



nizmləri üzərində qurmaz: "Ədalətli şəkildə bağışlamaq da idarəetmənin mühüm aləti kimi qəbul edilir. Açıq desək, amnistiya dövlətin özünə olan inamının göstəricisidir. Dövlət bununla mesaj verir ki, cəzasını çəkmiş, səhvini dərk etmiş insan üçün ikinci şans mümkündür. Bu yanaşma illərdir ki, formalaşmış dövlətçilik ənənəmizin tərkib hissəsidir və cəmiyyət tərəfindən də anlayışla qarşılanır. Təbii ki, amnistiya avtomatik azadlıq anlamına gəlmir. Burada hüquqi filtrlər, məhdudiyyətlər və ictimai təhlükəlilik meyarları var və bu meyarlar mütləq izlənilməlidir. Ə.Nuriyev bir vacib məqama da toxundu: "Təcrübə göstərir ki, amnistiya aktının qəbulu prosesin sonu deyil, əslində başlanğıcıdır. Əsas mərhələ bundan sonra başlayır. Həmin şəxslərin cəmiyyətə qayıdışı, işlə təmin olunması, sosial adaptasiyası üçün effektiv mexanizmlər formalaşdırılmasa, gözlənilən nəticə zəif ola bilər. Bu baxımdan əminəm ki, amnistiya layihəsi dövlətin sosial məsuliyyət, suverenlik və təhlükəsizlik prinsipləri nəzərə alınmaqla hazırlanıb və praktik tətbiq mərhələsində də öz müsbət nəticəsini göstərəcək. Bu amnistiya minlərlə, hətta yüz minlərlə insanın ümidinə və sevincinə cavab verən qərar olacaq. Ona görə də mən bu addımı təkcə keçmişə yönəlmiş hüquqi qərar deyil, gələcəyə hesablanmış strateji və məsuliyyətli yanaşma kimi qiymətləndirirəm. Dövlət cəza siyasətini humanizm və məsuliyyət prinsipləri ilə tarazlaşdırır.



Bu, zəiflik deyil, əksinə, güclü dövlət davranışıdır".

**Hüquq və İnsan Haqları İnstitutu İdarə Heyəti sədrinin müavini, hüquq üzrə fəlsəfə doktoru Vəfaddin İbayev** Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə irəli sürdüyü




amnistiya təşəbbüsünün hüquqi mahiyyət daşımaqla yanaşı, cəmiyyət üçün mühüm sosial və mənəvi məzmun ifadə etdiyinə diqqət çəkdi: "Əfv və amnistiya siyasəti nəticəsində cəzadan azad edilən şəxslər üçün yeni həyat mərhələsi açılır, onların səhvlərdən nəticə çıxararaq cəmiyyətə yenidən inteqrasiya olunmalarına real imkan yaranır. Bu yanaşma cəzanı təkcə məhdudlaşdırıcı mexanizm kimi deyil, tərbiyəvi və bərpaedici vasitə kimi dəyərləndirən dövlət fəlsəfəsini ortaya qoyur.

Bu cür qərarların ölkə rəhbərliyinin humanizmə, sosial ədalətə və hüquqi tarazlığa verdiyi önəmin açıq təzahürü olduğunu deyən V.İbayev bu zaman dövlətin bir tərəfdən hüquqi məsuliyyət prinsipini qoruması, digər tərəfdən isə cəmiyyət üçün təhlükə yaratmayan şəxslərə ikinci şans verilməsi məsələsini önə çəkdi: "Nəticə etibarilə bu addımlar vətəndaşla dövlət arasında etimadın daha da güclənməsinə xidmət edir, hüquqi humanizm prinsiplərinin praktik müstəvidə təsdiqinə çevrilir və Azərbaycan dövlətçiliyinin mərhəmətə əsaslanan, məsuliyyətli idarəetmə modelini bir daha nümayiş etdirir".

* * *

"Amnistiya təşəbbüsünü Prezident İlham Əliyevin humanist siyasətinin davamı kimi qiymətləndirirəm. "Konstitusiya və Suverenlik İli" çərçivəsində atılan bu addım minlərlə ailəyə sevinc bəxş edən mühüm qərardır. Bu cür təşəbbüslər hər zaman müsbət qarşılanıb və cəmiyyətdə sosial həmrəyliyin güclənməsinə xidmət edən həm əfv, həm də amnistiya aktları dəstəklənib". Bu sözləri **Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu** qəzetimizə verdiyi açıqlamasında söylədi.

Bu gün Azərbaycanın müstəqil, sabit və güclü dövlət olduğunu vurğulayan N.Cəfəroğlu məhz bu səbəbdən ölkə daxilində birlik və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını dedi: "Dövlətçilik maraqlarının qorunması, cəmiyyətin bütövlüyünün saxlanması hər bir vətəndaşın ortaq məsuliyyətidir. Atılan humanist addımlar da bu birliyin möhkəmlənməsinə xidmət edir. Arzu edərdim ki, amnistiya aktı müxtəlif sosial qrupları əhatə etməklə, cəmiyyətdə gərginlik yaradan məsələlərin yumşaldılmasına, insanların yenidən ictimai həyata inteqrasiyasına imkan yaratsın. Bu cür qərarlar beynəlxalq müstəvidə də ölkəmizin humanist dəyərlərə sadiqliyini nümayiş etdirir və mövcud tənqidlərin aradan qaldırılmasına töhfə verə bilər. Qoy bu il bütün ailələrdə bayram ovqatı hökm sürsün, Azərbaycan dünyaya humanizm, mərhəmət və sosial məsuliyyət nümunəsi kimi təqdim olunsun".

Cəmiyyətin sədri onu da qeyd etdi ki, qadınların həbs olunması arzuolunan hal deyil: "Çünki hər bir qadın faciəsinin arxasında çox vaxt bir kişi dayanır. Bu səbəbdən qadınlara daha çox güzəşt edilməsinin tərəfdarıyam – sırf qadın olduqları üçün. Hamımız bilirik ki, bir çox hallarda qadınlar ailə üzvləri tərəfindən məcbur edilərək narkotik daşıyıcısına çevrilir. Evdəki oğul, ata və ya ər tərəfindən təzyiq göstərilir. Qadınları döyən, təhqir edən kişilər var və məhz özünü qorumaq məcburiyyətində qaldığı üçün qadının cinayət törətdiyi hallar da az deyil. Biz bu faktları həmin qadınlarla görüşlər zamanı birbaşa onların dilindən eşidirik. Daha faciəlisi odur ki, bu qadınlar həbsxanadan qayıtdıqdan sonra belə, onlar üçün bu işləri gördükləri halda ailələri tərəfindən evdən qovulurlar.



Bu, həqiqətən də hər bir qadının həbs həyatı ilə bağlı dərin bir faciədir. Əlbəttə, onu da etiraf etməliyik ki, həbsdə olan qadınlar arasında ağır və bağışlanması mümkün olmayan cinayətlər törədənlər də var. Bu halları ümumiləşdirmək olmaz və hər bir işə ayrıca, hüquqi qiymət verilməlidir".

Sonda onu qeyd edək ki, beynəlxalq praktikada "ikinci şans" konsepsiyası çox zaman deklarativ xarakter daşıyır. Azərbaycanda isə bu anlayış konkret hüquqi qərarlarda öz əksini tapır. Selektivlik, təhlükəsizlik meyarları və ictimai ədalət prinsipi qorunur. Amnistiya böyük ictimai təhlükə törədən ağır cinayətlərə şamil edilmir, dövlət və cəmiyyət üçün risk yaradan kateqoriyalar kənarda saxlanılır. Bu, hüquqi humanizmin məsuliyyətli formasıdır.

***Tacir SADIQOV***
***XQ***

# Post-Brexit mərhələsində yeni tərəfdaşlıq axtarışları

## *Avropa Azərbaycana regionun sabitlik məkanı kimi baxmağa başlayıb*

**Sürətlə dəyişən dünya düzəni bir çox gücləri xarici siyasətlərini yenidən nəzərdən keçirməyə vadar edir. Bu kontekstdə Britaniyanın post-Brexit dövrü diqqət çəkir. "Brexit" prosesi çərçivəsində Britaniyanın Avropa ilə yollarını ayırması uzun müddətdir ki, Londonda suverenlik ritorikası kimi təqdim olunurdu. Referendumdan sonra formalaşan siyasi diskurs Britaniyanın Avropa İttifaqından (Aİ) həm institusional, həm də ideoloji uzaqlaşmasını ehtiva edirdi. Lakin zaman keçdikcə bu ayrılığın yaratdığı iqtisadi, sosial və strateji boşluqlar Britaniya siyasi elitasını daha praqmatik düşünməyə məcbur etdi. Bu gün Londonun mövqeyində müşahidə olunan yumşalma da dəyişən beynəlxalq təhlükəsizlik mühitinin diktə etdiyi reallıqlarla əlaqələndirilə bilər.**



Avropanın şərq sərhədlərində artan müharibə riski, Rusiyanın revizionist davranışı və NATO-nun daxilində yaranan yeni güc balansları Londona özünü kənarda saxlaya bilməyəcəyini göstərdi. Ehtimal olunur ki, Britaniya Brüsselə tam arxa çevirməyin real siyasətin qaydaları ilə uzlaşmadığını artıq anlayır. Bu kontekstdə London hökumətinin Aİ ilə təhsil, elm və gənclər mübadiləsi sahəsində əlaqələri bərpa etmək cəhdləri, xüsusilə də "Erasmus" proqramına qayıdış planları sırf humanitar təşəbbüs kimi yox, strateji jest kimi dəyərləndirilməlidir. Yəni, "Erasmus" məsələsi simvolik xarakter daşıyır. Britaniyanın bu platformaya qayıtmaq istəyi, əslində, Avropa ilə intellektual və siyasi dialoqun bərpasına verilən açıq mesaj kimi də dəyərləndirilə bilər. Bu, Londonda "Brexit"in emosional mərhələsinin bitdiyini, yerini isə hesablanmış praqmatizmə verdiyini göstərir. Görünür, Britaniya Avropa strukturlarına tam inteqrasiya etmədən, amma Avropa ilə açıq qarşıdurmadan da yayınaraq özünə yeni balans xətti axtarır.

Yeri gəlmişkən, balans axtarışı fonunda Azərbaycan–Britaniya münasibətləri örnək götürülə bilər. Rəsmi London üçün Bakı uzun illərdir həm enerji tərəfdaşı, həm də Avrasiya məkanında etibarlı aktordur. "Brexit"dən sonra Britaniyanın qlobal genişləndirmə strategiyası çərçivəsində Azərbaycanla münasibətlər daha da dərinləşdi. Enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, regional sabitlik və diplomatik dialoq sahələrində Bakı–London xətti öz dayanıqlılığını qorudu. Əslində, məsələnin dərininə endikdə məhz bu dayanıqlılığın Britaniyanın post-Brexit xarici siyasətində uğur nümunələrindən biri kimi dəyərləndirmək mümkündür. Azərbaycan Britaniya üçün həm də Avropa ilə Asiya arasında körpü rolunu oynayan strateji məkandır. Cənub Qaz Dəhlizi, Xəzər regionunun enerji potensialı və Orta Dəhliz kimi layihələr Britaniyanın Avropaya dolayı təsir imkanlarını saxlamasına şərait yaradır. Vurğulanmalı daha bir məqam ondan ibarətdir ki, Azərbaycan Britaniyanın Avropa ilə yaxınlaşma cəhdlərindən narahatlıq duymur. Əksinə, Bakı üçün bu proseslər əlavə diplomatik imkanlar yaradır. Azərbaycan nə Aİ-nin daxili siyasi ziddiyyətlərinin, nə də transatlantik qarşıdurmaların tərəfdarıdır. Ölkəmiz öz xarici siyasətini funksional əməkdaşlıq üzərində qurur. Bu isə Britaniya kimi praqmatik aktor üçün cəlbedici modeldir.

Bir nüansı da qeyd edək ki, Rusiya təhlükəsi fonunda Britaniyanın Aİ ilə bağlı siyasətində müşahidə olunan yumşalma Azərbaycanın London üçün strateji əhəmiyyətini artırır. Moskvanın Qara dənizdən Cənubi Qafqaza qədər uzanan təsir dairəsi, enerji və təhlükəsizlik məsələlərini bir-birinə daha sıx bağlayır. Bəli, London Bakını regionda nəzarətsiz eskalasiyanın qarşısını alan, rasional dialoq dili ilə danışan tərəfdaş kimi dəyərləndirir. Çünki qlobal qeyri-müəyyənliyin artdığı, enerji təhlükəsizliyinin, nəqliyyat marşrutlarının və regional sabitliyin strateji əhəmiyyət qazandığı bir dövrdə Britaniya üçün əsas sual hansı ölkələrin uzunmüddətli etibarlılıq təqdim edə bilməsidir. Məhz bu sualın cavabında Azərbaycan getdikcə daha aydın konturlarla ön plana çıxır. Çünki Cənubi Qafqazda kəskin qarşıdurmaların yaşandığı, geosiyasi proqnozların tez-tez dəyişdiyi bir zamanda belə Bakı daxili siyasi sabitliyi, qərarvermə ardıcıllığını və xarici siyasətdə balansı qorumağı bacarıb. Ona görə də hazırda ölkəmiz dəyişən beynəlxalq nizamda sabitlik mərkəzi kimi formalaşaraq, Britaniyanın Avropa ilə münasibətlərində, Avrasiya strategiyasında və qlobal təhlükəsizlik hesablamalarında mühüm yer tutur.

Əlqərəz, Londonda formalaşan yeni siyasi reflekslər Avropa ilə münasibətlərin "ayrılıq" mərhələsindən "seçici əməkdaşlıq" mərhələsinə keçdiyini göstərir. Əslində, bu keçid Britaniyanın qlobal rolunu çevik şəkildə yenidən qurmaq cəhdidir. Azərbaycan isə yeni konfiqurasiyada Britaniya üçün etibarlı dayaqlardan biri olaraq qalır. Bakı Avropa ilə münasibətlərdə balanslı mövqeyi, regional məsələlərdə isə suveren qərarvermə qabiliyyəti ilə Londona "təhlükəsiz tərəfdaşlıq" modeli təqdim edir. Bakı dəyişən beynəlxalq nizamda sabitlik mərkəzi kimi formalaşaraq Britaniyanın Avropa ilə münasibətlərində, Avrasiya strategiyasında və qlobal təhlükəsizlik hesablamalarında mühüm yer tutur. Amma vurğulanmalıdır ki, ikitərəfli əlaqələr nə situativ yaxınlaşma, nə də taktiki əməkdaşlıq xarakteri daşıyır. Daha çox qarşılıqlı maraqlara əsaslanan və uzunmüddətli perspektivə hesablanmış strateji uyğunluğun təzahürüdür.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Hüseyn SULTANLI,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi**

Böyük Britaniya-Aİ münasibətləri "Brexit" prosesindən sonra durğunluq mərhələsinə keçsə də, Kir Starmerin baş nazir seçilməsindən sonra vəziyyət dəyişdi. Onun hökuməti ilk gündən Aİ ilə daha yaxın münasibətlərin qurulmasının rəsmi Londonun əsas xarici siyasət hədəflərindən biri olacağını açıq şəkildə bəyan etdi. Bu ilin may ayında keçirilən Böyük Britaniya–Aİ sammiti həmin öhdəliyi bir daha möhkəmləndirdi. Sammit bəzi dairələr tərəfindən "səthi" və transformativ detallardan məhrum kimi qiymətləndirilsə də, Londonun əsas məsələlər üzrə Brüssel ilə uzlaşmağa hazır olduğunu nümayiş etdirən mühüm siyasi siqnal oldu. Sammit çərçivəsində Təhlükəsizlik və Müdafiə Tərəfdaşlığının yaradılacağı elan olundu. Hazırda Böyük Britaniyanın 2021-ci ildə tərk etdiyi və sonradan özünün "Turing" proqramı ilə əvəzlədiyi Aİ-nin "Erasmus" mübadilə proqramına yenidən qoşulmağa hazırlaşdığı barədə məlumatlar yayılır. Aİ-nin xaricdə təhsil almaq istəyən şəxslərə maliyyə dəstəyi verdiyi bu proqram Böyük Britaniyanın "Brexit" nəticəsində yaranmış boşluqları aradan qaldırmaq niyyətini göstərən daha bir konkret addımdır. Əslində, yeni Aİ–Böyük Britaniya razılaşması çərçivəsində ayrıca "gənclərin mobilliyi proqramı"nın müzakirə edilməsi planlaşdırılırdı.

Bununla belə, ciddi çətinliklər qalmaqdadır. Yaxın vaxtlarda Böyük Britaniyanın Aİ-nin ən son müdafiə və təhlükəsizlik proqramı olan SAFE-ə (Security Action for Europe) qoşulması ilə bağlı danışıqların fundamental fikir ayrılıqları səbəbindən dalana dirəndiyi açıqlandı. Bu da göstərir ki, qarşılıqlı siyasi iradənin mövcudluğuna baxmayaraq, yeni institusional Aİ–Böyük Britaniya münasibətlərinin formalaşdırılması asan olmayacaq. Həmçinin bəzi geosiyasi amillərin bu çətinliklərin yumşaldılmasında oynadığı rolu da kiçiltmək olmaz. İlk növbədə, Böyük Britaniya Ukraynaya Avropa dəstəyini əlaqələndirmək və Rusiyaya qarşı mübarizə məqsədilə yaradılmış "istəklilər koalisiyası"nda hələ də son dərəcə fəal və aparıcı rol oynayır. Bu isə ayrı-ayrı üzv dövlətlərlə ikitərəfli səviyyədə, ümumilikdə Aİ çərçivəsində müdafiə əməkdaşlığının gücləndirilməsinə dair dialoqu daha da intensivləşdirəcək. İkincisi, Böyük Britaniya–ABŞ münasibətlərinin əhəmiyyətini də qiymətləndirmək vacibdir. Liderlər arasında siyasi harmoniya olsa da, münasibətlər əvvəlki dövrlərlə müqayisədə daha qeyri-sabit və mürəkkəb xarakter daşıyır. Məhz bu amil Böyük Britaniya hökumətini Aİ ilə münasibətləri yeniləməyə, onları daha yüksək səviyyəyə qaldırmağa, eləcə də bundan ölkə iqtisadiyyatı və əhalisi üçün maksimum fayda əldə etməyə sövq edəcək.

---

*18 Dekabr Beynəlxalq Miqrant Günüdür*

# Sərhədlər ayırır, dəyərlər birləşdirir

## *Köçkün hüquqlarının qorunmasına yeni baxış*

**18 Dekabr Beynəlxalq Miqrant Günü dünya ictimaiyyətini miqrasiya problemlərinə, miqrantların hüquqlarına və onların cəmiyyətə verdiyi töhfələrə yenidən nəzər salmağa çağıran qlobal həmrəylik manifestidir. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 2000-ci il dekabrın 4-də qəbul edilmiş 55/93 nömrəli qətnamə ilə təsis edilən həmin günün tarixi kökləri daha dərinə – 1990-cı ilin 18 dekabrına gedib çıxır.**

Bu tarixdə BMT Baş Assambleyası "Bütün miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya"nı qəbul etməklə miqrantların insan hüquqlarının qorunması istiqamətində mühüm beynəlxalq hüquqi bazanın təməlini qoymuşdur.

Müasir dünyada miqrasiya prosesləri çoxşaxəli və mürəkkəb xarakter daşıyır. İqlim dəyişmələri, silahlı münaqişələr, iqtisadi qeyri-bərabərlik və siyasi təqiblər insanları doğma yurdlarını tərk etməyə vadar edən əsas amillər sırasındadır. Lakin təəssüf doğuran məqam ondan ibarətdir ki, sığınacaq və ya yeni həyat axtarışında olan şəxslər tez-tez qəbul edən cəmiyyətlərdə stereotiplərin, nifrət nitqinin və hüquqi müdafiəsizliyin qurbanına çevrilirlər. Bu problemin qlobal miqyasını anlamaq üçün dünyanın müxtəlif regionlarında cərəyan edən proseslərə nəzər salmaq kifayətdir. Məsələn, Avropa qitəsində miqrasiya böhranı artıq siyasi sistemləri sarsıdan amilə çevrilmişdir və İtaliyanın Lampeduza adasında və Aralıq dənizi hövzəsində yaşanan humanitar fəlakətlər, yaxud Fransada və Almaniyada ifrat sağçı partiyaların miqrant əleyhinə ritorika üzərində yüksəlişi qitənin ənənəvi liberal dəyərlərinin aşınmasını göstərir. "Qoca qitə"də miqrasiya məsələsinin təhlükəsizlik prizmasından həddən artıq siyasiləşdirilməsi inteqrasiya proseslərini ləngidir və cəmiyyətdə qütbləşmə yaradır. Afrika qitəsinə nəzər saldıqda Cənubi Afrika Respublikasında iqtisadi çətinliklər zəminində qitənin digər ölkələrindən gələn miqrantlara qarşı vaxtaşarı baş qaldıran ksenofob hücumlar qardaşlıq və ümumi tarix ideallarına kölgə salır. Baxmayaraq ki, qitə daxilində sərbəst hərəkət üçün siyasi iradə mövcuddur. Asiya regionunda isə Myanmada rohincalara qarşı tətbiq edilən sistemli ayrı-seçkilik və zorakılıq etnik zəmində dözümsüzlüyün ən radikal formasını nümayiş etdirir. Bu qlobal nümunələr




göstərir ki, miqrasiya idarəçiliyi təkcə sərhəd nəzarəti yox, həm də dərin sosial və hüquqi yanaşma tələb edir.

* * *

Miqrasiya təbiəti etibarilə transmilli proses olduğu üçün onun tənzimlənməsi beynəlxalq əməkdaşlığı və qlobal hüquq normalarına sadiqliyi tələb edir. Birləşmiş Millətlər Təşkilatının miqrant hüquqları ilə bağlı konvensiyalarına qoşulmaq və onun müddəalarına real icra mexanizmləri yaratmaq sivil dövlətlərin üzərinə düşən mənəvi və siyasi borcdur. Təəssüf ki, bir sıra inkişaf etmiş ölkələr hələ də həmin konvensiyanı ratifikasiya etməkdən yayınır və ya onun tətbiqində ikili standartlara yol verirlər. Lakin beynəlxalq hüququn aliliyi prinsipi miqrantların hüquqlarının qorunmasında seçkiçiliyi rədd edir və universal yanaşmanı tələb edir. Regional təşkilatların, o cümlədən Avropa İttifaqı, ATƏT və digər qurumların monitorinq rolunun gücləndirilməsi dövlətlərin öz öhdəliklərinə sadiqliyini yoxlamaq üçün vacibdir və həmin təsisatlar üzv ölkələrdə miqrasiya qanunvericiliyinin tətbiqi, miqrantların saxlanma şəraiti, sığınacaq prosedurlarının ədalətliliyi və sərhəd idarəçiliyi zamanı insan hüquqlarına riayət olunması vəziyyətini müntəzəm olaraq monitorinq etməli, obyektiv hesabatlar hazırlamalıdırlar. Monitorinq prosesi siyasi təzyiq alətinə çevrilməməli, konstruktiv dialoq və texniki dəstək formalarında həyata keçirilməlidir. Qanunların sərtliyi və beynəlxalq nəzarət vacib olsa da, cəmiyyətin daxilində miqrantlara qarşı münasibəti dəyişmədən ksenofobiyanın kökünü kəsmək mümkün sayılmır. İctimai şüurun formalaşdırılması, stereotiplərin qırılması və tolerantlıq mühitinin yaradılması uzunmüddətli və sistemli maarifləndirmə strategiyasını tələb edir. Təhsil proqramlarında tolerantlıq və multikultural dəyərlərin təşviqi gələcək nəsillərin dünyagörüşünün sağlam təməllər üzərində qurulması üçün həlledicidir və orta məktəblərdən başlayaraq ali təhsil ocaqlarına qədər bütün pillələrdə tədris olunan fənlərə mədəniyyətlərarası dialoq, insan hüquqları, irqçiliyin zərərləri və qlobal vətəndaşlıq mövzuları inteqrasiya edilməlidir.

* * *

Qlobal miqyasda miqrasiya idarəçiliyi sahəsində yaşanan böhran fonunda Azərbaycan Respublikasının təcrübəsi uğurlu və dayanıqlı model kimi diqqəti cəlb edir. Tarixən İpək Yolu üzərində yerləşən, müxtəlif sivilizasiyaların qovuşduğu məkan olan Azərbaycan tolerantlıq və multikulturalizm dəyərlərini dövlət siyasətinin prioritetinə çevirmişdir.

Bəs regionun çətin geosiyasi şəraitində və qlobal miqrasiya təlatümləri fonunda Azərbaycanın bu sahədə nümayiş etdirdiyi davamlı sabitliyin və effektiv idarəçiliyin sirri nədədir?

Bu sualın cavabı ölkədə etnik, dini və ya irqi zəmində heç bir ayrı-seçkiliyə yol verilməməsində və miqrantların hüquqlarının ən yüksək səviyyədə qorunmasındadır. Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti şəffaflıq, operativlik və vahid pəncərə prinsipi üzərində qurulmuşdur ki, həmin yanaşma bürokratik əngəlləri minimuma endirir və korrupsiya hallarını istisna edir. Humanist siyasətin təhlükəsizliklə ziddiyyət təşkil etmədiyi mesajı Azərbaycan modelinin fəlsəfəsini təşkil edir. Rəsmi Bakı sübut edir ki, sərhədlərin etibarlı qorunması və qeyri-qanuni miqrasiya ilə qətiyyətli mübarizə qanuni miqrantlara qarşı hörmət və qayğı ilə paralel şəkildə həyata keçirilə bilər.

Sözügedən humanitar və hüquqi yanaşmanın effektivliyi, sadəcə, nəzəri mülahizələrə əsaslanmır, bu konkret rəqəmlərdə və statistik dinamikada öz əksini tapır. Cari ilin 11 ayında Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə daxil olan 40 min 602 müraciət ölkədəki miqrasiya proseslərinin idarəolunma səviyyəsini və quruma olan ictimai etimadı nümayiş etdirir ki, bu rəqəmlərin arxasında duran mənzərə əcnəbilərin Azərbaycandakı hüquqi mühitə inteqrasiya istəyini və dövlət orqanlarının əlçatanlığını sübut edir. Müraciətlərin struktur təhlili göstərir ki, əcnəbilər leqal statusda yaşamağa və fəaliyyət göstərməyə xüsusi önəm verirlər, belə ki, 22036 müraciət məhz olduğu yer üzrə qeydiyyatla, 7365 müraciət isə yaşama icazələrinin alınması və uzadılması ilə bağlıdır. Bu fakt miqrantların kölgə həyat tərzi əvəzinə, qanuni müstəvidə yaşamağı seçdiklərini və dövlətin yaratdığı şəffaf mexanizmlərdən yararlandıqlarını təsdiqləyir. Dövlətin açıq qapı siyasəti və kommunikasiya kanallarının effektivliyi isə birbaşa təmas vasitələrinin statistikasında özünü büruzə verir. Çağrı mərkəzinə daxil olan 5492 zəng, sosial şəbəkələr və onlayn bələdçi üzərindən ünvanlanan 1126 müraciət, həmçinin vətəndaşlardan və əcnəbilərdən daxil olan 1001 ərizə və təklif miqrasiya orqanları ilə cəmiyyət arasında canlı və operativ dialoqun mövcudluğundan xəbər verir. Bundan əlavə, əmək bazarının qanuni tənzimlənməsi istiqamətində iş icazələri ilə bağlı 793 müraciət və vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi üzrə 1285 sorğu miqrasiya proseslərinin həm iqtisadi, həm də hüquqi baxımdan nəzarət altında saxlanıldığını, eyni zamanda, insan hüquqlarına hörmət prinsipləri çərçivəsində tənzimləndiyini göstərən mühüm indikatorlardır. Əlavə olaraq qeyd edilən 117 vətəndaşlıq müraciəti və digər xarakterli 1387 müraciət də Xidmətin çoxşaxəli fəaliyyətinin göstəricisidir.

* * *

Yekun olaraq qeyd etmək lazımdır ki, 18 dekabr – Beynəlxalq Miqrant Günü bəşəriyyəti bir daha düşünməyə vadar edən tarixi məqamdır və miqrasiya problemi tikanlı məftillər, yüksək divarlar və ya repressiv qanunlarla həll edilə bilməz. Tarix sübut edir ki, miqrasiya bəşəriyyətin inkişafının, mədəni mübadilənin və iqtisadi tərəqqinin mühərrikidir və miqrantlara qarşı ayrı-seçkilik, zorakılıq cəmiyyətin mənəvi tənəzzülünün göstəricisidir. Düzgün siyasi iradə, güclü hüquqi mexanizmlər, maarifləndirmə və sosial inteqrasiya siyasəti miqrasiya proseslərini idarəolunan, təhlükəsiz və faydalı istiqamətə yönəltməyə imkan verir. Azərbaycanın təqdim etdiyi tolerantlıq modeli və hüquqi yanaşma bu sahədə qlobal həmrəyliyin və humanizmin mümkünlüyünü nümayiş etdirən parlaq nümunədir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ankara–İrəvan normallaşması və Azərbaycan amili

## *Türkiyə lideri son bəyanatı ilə nəyin mesajını verdi?*

**Prezident Rəcəb Tayyib Ərdoğan xarici ölkə səfirlərinin 16-cı konfransında çıxışı zamanı bildirib ki, Türkiyə Azərbaycanla əlaqələndirilmiş və davamlı dialoq vasitəsilə, Ermənistanla münasibətlərin normallaşması prosesini irəliyə aparır. Cənab Ərdoğan mövcud xüsusda digər fikirlər də səsləndirib və Ankaranın mövqeyinə ətraflı aydınlıq gətirib. Yazımız əsasən bu barədədir. Amma bəzi əlaqəli məqamlara da diqqət yetirəcəyik.**



Əlbəttə, Türkiyə liderinin dediklərinin siyasi, diplomatik və geostrateji müstəvidə şərhi var. Siyasi-strateji məna yükü budur ki, Türkiyə Ermənistanla münasibətləri müstəqil xətt üzrə deyil, Azərbaycanla tam uzlaşdırılmış şəkildə aparır. Yəni Ankara üçün İrəvanla normallaşma Bakı ilə strateji müttəfiqliyin alternativi deyil, davamıdır. Açıq mesaja gəldikdə, aydındır ki, Türkiyə Ermənistanla Azərbaycanı nəzərə almadan heç bir ciddi addım atmayacaq.

Bəli, cənab Ərdoğanın "əlaqələndirilmiş və davamlı dialoq" məntiqi, faktiki olaraq, o deməkdir ki, Ankara-İrəvan normallaşması Ermənistan–Azərbaycan sülh prosesinə bağlanıb və Bakı bu prosesdə mərkəzi və həlledici aktordur. Üstəlik, Türkiyə Ermənistanla bağlı qərarlarını Azərbaycanın mövqeyi ilə sinxronlaşdırır. Bu, ölkəmizin, eyni zamanda, Ankara-İrəvan normallaşma prosesi üzərində de-fakto təsir və nəzarət imkanına malikliyidir.

Türkiyə liderinin fikirlərinin Ermənistana mesaj payı da aktualdır. Əgər Ermənistan Azərbaycanla sülhə gəlməsə, Bakının irəli sürdüyü əsas tələbi – Ermənistan konstitusiyasına dəyişiklik şərtini qəbul etməsə, onun Türkiyə ilə real normallaşması mümkünsüzdür. Halbuki, erməni iqtidarının təmsilçiləri əksini iddia edirlər. Onların fikrincə, Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasının, konkret olaraq, sərhədlərin açılmasının Bakı-İrəvan sülhünə müsbət təsiri olacaq. Yəni ilk addımı Ankara atsın.

Əlbəttə, Ermənistan o səviyyədə və gücdə deyil ki, diktə etsin. Amma Ərdoğanın fikirlərinin İrəvanla bağlı başqa mesaj motivi də var ki, bu barədə sonda söz açacağıq. Hələlik isə vurğulayaq ki, Türkiyə Prezidenti açıqlaması ilə beynəlxalq ictimaiyyətə də mesaj verir. Başqa sözlə desək, Qərbə və regiondankənar aktorlara üz tutur.

Mesaj budur ki, birincisi, Türkiyə təkbaşına oyun qurmur, regional məsələlərdə Azərbaycanla vahid mövqedən çıxış edir, ikincisi, Cənubi Qafqazda normallaşma kənar təzyiqlərlə deyil, regional razılaşmalarla gerçəkləşməlidir. Bu, eyni zamanda, Türkiyənin vasitəçi yox, tərəfdaş-müttəfiq mövqeyini önə çıxarır.

Qeyd edək ki, qardaş ölkə liderinin açıqlamasında gizli diplomatik məna yükü



də istisna deyil. Bu baxımdan onun "davamlı dialoq" ifadəsinə nəzər salaq. Ehtimal etmək olar ki, cənab Ərdoğan Ermənistanla normallaşmanın birdəfəlik siyasi jest formatını qəbul etmir. O, prosesin mərhələli, nəzarətli və geri dönən ola biləcəyinə eyham vurur. Yəni bu o deməkdir ki, Türkiyə istənilən mərhələdə prosesi dayandırmaq və ya ləngitmək ixtiyarını özündə saxlayır. Mövcud amil Ermənistan üçün təzyiq və şərtləndirmə mexanizmi rolunu oynayır və əslində, başqa cür mümkün deyil. Çünki otuz ilə yaxın işğalçılıq siyasəti həyata keçirmiş, üstəlik, bu siyasətdən öz xoşuna əl çəkməmiş bir ölkəyə etibar edilə, etimad göstərilə bilməz. Ermənistan siyasi və mənəvi reabilitasiyadan keçməli, inam qazanmalıdır.

* * *

Ərdoğanın açıqlamasının siyasi-diplomatik tərzdən uzaq kimi görünən tərəfi üzərində dayanaq. Məsələn, Türkiyə lideri uzun illər sabit sülhdən məhrum duruma düşmüş Cənubi Qafqazın hazırda tarixi mərhələdə olduğunu vurğulayıb və əlavə edib ki, Ermənistan və Azərbaycan sülh müqaviləsinin imzalanmasına heç vaxt indiki qədər yaxın olmayıblar. Mühüm məqamlardan biri də budur ki, cənab Ərdoğan Ankaranın gələn il Türkiyə-Ermənistan normallaşması ilə bağlı bəzi simvolik addımlar atacağının anonsunu verib.

Heç şübhəsiz, Türkiyə liderinin "simvolik addımlar" məntiqi hansısa strateji dönüşdən xəbər vermir. Məsələn, mümkündür ki, Ərdoğan ölkəsi ilə Ermənistanın sərhədlərinin tam yox, qismən açılmasını gündəmə gətirir. Daha dəqiq desək, söhbət yalnız üçüncü ölkə vətəndaşları üçün açılımdan gedir. Həmçinin diplomatik kanalların aktivləşdirilməsinə, texniki-logistik əlaqələrin bərpasına, Ankara ilə İrəvan arasında humanitar, mədəni və ya iqtisadi zəmində kiçik təşəbbüslərin reallaşacağına ümid bəsləmək olar.

Ərdoğanın "simvolik addımlar" mesajını Ermənistanı sülhə məcburetmə mexanizmi prizmasından dəyərləndirmək də mümkündür. Bu isə Bakıya mesajdır. Yəni Türkiyə Ermənistanla real, institusional normallaşmaya getmir. Amma bir məqamı nəzərə alaq. Məlumdur ki, beynəlxalq miqyasda Ankaradan regional lider gözləntiləri var. Axı Qərbin ayrı-ayrı dairələrinin təmsilçiləri açıqlamalarında Bakı-İrəvan sülhünün məhz Türkiyədən asılı olduğunu vurğulayırlar. Onların zaman-zaman Türkiyənin ədalətsiz sülhlə razılaşması üçün Azərbaycana təzyiq göstərəcəyi düşüncəsini daşıdıqlarından da xəbərdarıq.

Xarici aləmdə kimlərsə Bakının Ankaranın diktəsi ilə razılaşacağı qənaətindədirlər. Onlar Türkiyənin regional liderlik ampluasını məhz bu baxımdan yüksək tutduqlarını göstərirlər. Əlbəttə, gözləntilər özünü doğrultmayanda, bir qayda olaraq, dövriyyəyə qardaş ölkəyə qarşı ittihamlar girir. Söhbət qondarma "erməni soyqırımı"nın gündəmə gətirilməsindən gedir...

Belə bir durumda Türkiyə, bir növ, ortaq mövqe tuturmuş, balans yaradırmış kimi davranmalıdır. Yəni həm öz böyüklüyünü göstərib sülh tərəfdarı olduğunu nümayiş etdirməli, həm də prinsipiallığı qorumalıdır. Ona görə Ərdoğan hazırda Ankaranın Bakı-İrəvan sülhünə maneçilik törətmədiyi mesajını səsləndirir, ümumən, ölkəsinin regional barış tərəfdarı obrazını canlandırır, müəyyən mənada, beynəlxalq ictimaiyyətin nəbzini tutur.

* * *

Sonda cənab Ərdoğanın mesajının Ermənistanla bağlı növbəti tərəfindən söz açaq. Aydındır ki, Ermənistan–Azərbaycan sülh danışıqları həlledici mərhələyə yaxınlaşıb. Belə bir durumda Türkiyə Cənubi Qafqazda oyunqurucu statusunu möhkəmləndirmək istəyir. Erməni iqtidarından isə konkret nəticələr gözlənilir. İndiki durumda prosesi ləngidən Ermənistanda 2026-cı ildə keçirilməsi nəzərdə tutulan parlament seçkiləridir.

Azərbaycan kimi, Türkiyə üçün də başlanılmış yolun davamı vacibdir. Davam baş nazir Nikol Paşinyan administrasiyasının hakimiyyətdə qalmasından keçir. Bunun üçün erməni xalqı Nikolu dəstəkləməlidir. Belə bir dəstəyin olması hay cəmiyyətinin rifahından asılıdır. Türkiyə ilə əlaqələrin normallaşması isə özündə, eyni zamanda, rifah seqmentini daşıyır. Deməli, Ərdoğanın Ermənistanla normallaşma xəttindən söz açması, üstəlik, gələn il üçün simvolik addınlar mesajını verməsi, həm də erməni xalqı üçün də ismarışdır. Bu ismarıc hay müxalifətinin Türkiyənin Ermənistanı təcriddə saxladığına dair təbliğatlarını heçə endirməyə hesablanıb.

Ən sonda onu da bildirək ki, Türkiyə Bakı-İrəvan sülhünün regional kommunikasiyaların açılması gündəmində maraqlıdır. O gündəm ki, orada Zəngəzur dəhlizi prioriteti var. Yəni Ankara üçün dəhliz məntiqi əsasdır və bu, dəfələrlə rəsmi şəkildə bəyan edilib. Deməli, Türkiyə-Ermənistan normallaşması, eyni zamanda, Zəngəzur dəhlizinin, böyük anlamda yanaşsaq, TRIPP marşrutunun işə düşməsindən asılıdır. Ümumiləşdirmə apararaq, belə qənaətə gəlmək mümkündür ki, cənab Ərdoğanın fikirləri Ankara-İrəvan normallaşmasının regional miqyaslı geosiyasi investisiya xarakterinin vurğulanmasıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Dehlinin İrəvan sevgisi: dostluq ritorikasına bürünmüş gizli geosiyasi maraqlar

**Hindistan Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Randhir Caysval Yeni Dehliyə səfər etmiş erməni jurnalistlərə Ermənistanla münasibətlərə dair müsahibə verib. Diplomat bildirib ki, Ermənistan və Hindistan arasındakı münasibətlər əsrlər boyu davam edən dostluqla xarakterizə olunur və xüsusilə son illər yeni strateji səviyyəyə çatıb.**



Onun sözlərinə görə, regional inkişaflar, infrastruktur bağlantısı layihələri və dərin tarixi əlaqələr iki ölkə arasında əməkdaşlığın davamlı genişlənməsinin təməlini təşkil edir: "Hindistan Ermənistanı təkcə ikitərəfli tərəfdaş və Qərbi Asiya–Qafqaz–Avropa bağlantı vizyonunun bir hissəsi kimi deyil, həm də zəngin tarixi əlaqələr prizmasından qiymətləndirir. Biiz bu münasibətlərə tarixi perspektivdən baxırıq. Bizi əsrlər boyu davam edən əlaqələr və minilliklər boyu davam edən ünsiyyət birləşdirir. Müstəqilliyin bərpasından sonrakı ilk səfəri zamanı liderinizin (Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın 1995-ci ilin dekabrındakı səfəri nəzərdə tutulur–S.H.) təyyarədən düşən kimi torpağımızı öpdüyü epizodu xatırlamaq istərdim. O dedi: "Bu torpaq bizim üçün xüsusidir". Və mən deyə bilərəm ki, biz bu hissi başa düşürük".

R.Caysvalın sözlərinə görə, Ermənistan və Hindistan arasındakı dostluq unikaldır və iki ölkə arasındakı münasibətlər məhz bu tarixi təməl üzərində inkişaf etməyə davam edir: "Deməzdim ki, biz buna ikitərəfli və ya daha geniş regional perspektivdən baxırıq. Biz buna güclü mədəni əlaqə, xalqlararası əlaqə perspektivindən baxırıq. Bu münasibətlərin tarixi dərinliyi var. Və bu, onları bu qədər xüsusi edir".

Regional alyanslarla bağlı Hindistanın mövqeyinə gəldikdə rəsmi nümayəndə deyib ki, Türkiyə, Azərbaycan və Pakistan arasında iqtisadiyyat və təhlükəsizlik sahəsində əməkdaşlığın genişlənməsi və Cənubi Qafqazda baş verən dəyişikliklər və inkişaflar fonunda Ermənistan və Hindistan arasındakı münasibətlər dərinləşir və müxtəlif sahələri əhatə edir: "Ermənistanla tərəfdaşlığımıza böyük əhəmiyyət verdiyimiz üçün bu əlaqələri daha da gücləndirmək istəyirik. Biz Ermənistanı müxtəlif yollarla dəstəkləyirik. Güclü ikitərəfli əlaqələrimiz, siyasi əlaqələrimiz də var. Müdafiə əlaqələrimiz də çox güclüdür. Ölkənizin davamlı çiçəklənməsini görmək istəyirik".

Hindistanın Pakistanla gərgin münasibətlərinə və Ankara ilə Bakının Kəşmir məsələsində İslamabadın haqlı mövqeyini dəstəkləməsinə baxmayaraq, diplomat bu məsələ ilə bağlı birbaşa şərh verməkdən imtina edib. Lakin qeyd edib ki, Hindistan mövcud çətinlikləri həll etməyə çalışır: "Biz mövqeyimizi gücləndirməyə çalışırıq. Başqalarının maraqlarına qarşı birləşməyə çalışan ölkələr var, ona görə də tərəfdaşımızla əməkdaşlıq etməyə və bu çətinlikləri ən yaxşı şəkildə həll edə biləcəyimizi görməyə çalışacağıq".

Cənubi Qafqaz regionundakı siyasi və təhlükəsizlik inkişaflarına, xüsusilə Ermənistan–Azərbaycan münasibətlərinə gəldikdə, Caysval Yeni Dehlinin bu inkişafları "çox yaxından izlədiyini" vurğulayaraq, "Hindistanın Ermənistanı dəstəklədiyini" bir daha qeyd edib.

Müsahibədə İrəvan və Yeni Dehli arasında müdafiə əməkdaşlığı məsələsinə də toxunan diplomat iddia edib ki, Hindistanın Ermənistana və dünyaya müdafiə əməkdaşlığı baxımından təklif edəcəyi çox şey var. "Gördüyünüz kimi, Hindistanla Ermənistan arasında baş verən hər şey sahib olduğumuz xüsusi və birləşdirici gücün bir hissəsidir. Bu gün Hindistandan müdafiə ixracı əhəmiyyətli dərəcədə artıb. Bir çox ölkə təkliflərimizlə maraqlanır. Biz qabaqcıl platformalar yaradırıq. Bir çox ölkə ilə əməkdaşlıq etmək istəyirik ki, onlar da məhsullarımızdan faydalana bilsinlər", – deyə mətbuat katibi bildirib.

Caysvarl Hindistanın həmçinin, İranın Çabahar limanı və Beynəlxalq Şimal–Cənub nəqliyyat dəhlizi vasitəsilə regional nəqliyyat əlaqələrinə böyük əhəmiyyət verdiyini vurğulayıb. Ermənistanın bu marşrutda rolu ilə bağlı suala cavab olaraq qeyd edib ki, istənilən ölkə iştirak etməlidir, çünki bu, hamıya rifah gətirəcək. Azərbaycanın bu baxımdan rolu ilə bağlı rəsmi şəxs deyib: "Töhfə verə biləcək bütün ölkələr iştirak etməlidir".

* * *

Hindistanlı diplomatın Ermənistanla bağlı səsləndirdiyi fikirlər ilk baxışdan dostluq, tarixi yaxınlıq və strateji tərəfdaşlıq ruhunda təqdim olunur. Lakin bu açıqlamaların məzmununa diqqətlə baxdıqda, ortaya çıxan mənzərə səmimi dəstəkdən daha çox, geosiyasi maraqlar üzərində qurulmuş hesablanmış ritorikanı xatırladır. Onun tez-tez tarixi bağlara istinad etməsi, əsrlər və minilliklər boyu davam edən münasibətlərdən danışması indiki mərhələdə konkret siyasi mövqedən yayınmaq üçün seçilmiş təhlükəsiz diskurs təsiri bağışlayır. Caysvalın Ermənistanı Qərbi Asiya–Qafqaz–Avropa bağlantı vizyonunun bir hissəsi kimi təqdim etməsi də daha çox Hindistanın öz strateji marşrut maraqlarını ön plana çıxardığını göstərir. Burada Ermənistan subyekt yox, tranzit və vasitəçi rolunda nəzərdən keçirilir. Yəni İrəvanın təhlükəsizliyi və siyasi sabitliyi Hindistan üçün məqsəd deyil, vasitə xarakteri daşıyır. Bu isə münasibətlərin bərabərhüquqlu tərəfdaşlıqdan çox instrumental xarakter aldığını göstərir.

Türkiyə, Azərbaycan və Pakistan arasında formalaşan koordinasiyaya dair suallardan yayınmaq isə Yeni Dehlinin real mövqeyinin nə qədər ehtiyatlı olduğunu ortaya qoyur. Ermənistanın guya, regionda məhz bu üçlük tərəfindən təzyiq altında olduğu şəraitdə Hindistan rəsmisinin birbaşa mövqe bildirməkdən imtina etməsi açıq siyasi dəstəyin sərhədlərini göstərir. Ermənistanın dəstəkləndiyi ifadə olunsa da, bu dəstəyin hansı mərhələdə və hansı formada veriləcəyi qeyri-müəyyən saxlanılır.

Müdafiə sahəsində əməkdaşlıqla bağlı səsləndirilən fikirlər də birmənalı qarşılanmamalıdır. Hindistanın silah ixracını artırması və Ermənistanı potensial tərəfdaş kimi görməsi İrəvan üçün strateji təhlükəsizlik zəmanəti yox, kommersiya maraqları çərçivəsində əməkdaşlıqdır. Bu münasibətlərdə Hindistan satıcı, Ermənistan isə alıcı mövqeyindədir. Bu isə asılılıq risklərini artırır və uzunmüddətli təhlükəsizlik təminatı yaratmır.

Nəqliyyat layihələri ilə bağlı səslənən fikirlər də oxşar xarakter daşıyır. Şimal–Cənub dəhlizində bütün ölkələrin iştirak etməli olduğu barədə açıqlama Ermənistan üçün üstünlük deyil, əksinə, onun regional rəqabətdə fərqləndirici rolunu zəiflədir. Azərbaycanın bu layihədə potensial iştirakına dair fikirlər isə Hindistanın Ermənistanı xüsusi tərəfdaş yox, sadəcə, coğrafi həlqələrdən biri kimi gördüyünü bir daha təsdiqləyir.

Nəticə etibarilə, R.Caysvalın açıqlamaları İrəvana ünvanlanmış siyasi jestlər təsiri bağışlasa da, onların arxasında Ermənistanın maraqlarını prioritet edən aydın və qəti xətt görünmür. Hindistan regionda öz mövqelərini möhkəmləndirməyə çalışır, Ermənistan isə bu prosesdə alət rolunda çıxış edir.

**Siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, Hindistan rəsmisinin Ermənistanla bağlı səsləndirdiyi mesajlar ilk baxışdan tarixi dostluq və strateji yaxınlıq təsiri bağışlasa da, əslində, daha çox ehtiyatlı və hesablanmış diplomatik xəttin ifadəsidir. Onun sözlərinə görə, Yeni Dehli Ermənistanı regionda emosional müttəfiq kimi deyil, dəyişən



geosiyasi konfiqurasiyada öz maraqlarına uyğun tərəfdaş kimi dəyərləndirir: "Caysvalın müsahibəsində tarixdən tez-tez dəm vurulması real siyasi mövqedən yayınmaq üçün istifadə olunan rahat ritorikadır. Türkiyə, Azərbaycan və Pakistan amilinə münasibətdə açıq mövqenin nümayiş etdirilməməsi Hindistanın risklərdən yayınmağa çalışdığını göstərir. Müdafiə sahəsində əməkdaşlıq isə təhlükəsizlik zəmanətindən daha çox kommersiya xarakteri daşıyır. Bu mənada, Ermənistan üçün Hindistan faktoru strateji dayaqdan çox, alternativ və müvəqqəti diplomatik balans elementi kimi qiymətləndirilməlidir".

***Səxavət HƏMİD***
***XQ***

# ABŞ-ın yeni təhlükəsizlik arxitekturası

## *Azərbaycan bu müstəvidə mərkəzi yerdədir*

**Qlobal təhlükəsizlik sistemi artıq XX əsrin siyasi terminologiyası ilə izah oluna bilən reallıq deyil. “Liberal beynəlxalq nizam” və ya “qaydalara əsaslanan sistem” kimi anlayışlar normativ iddia olaraq qalır, lakin real güc münasibətlərini açıqlamır. Çünki beynəlxalq davranışı artıq konkret maraqlar, regional güc balansları və situativ koalisiyalar müəyyənləşdirir. Qaydalar isə əksər hallarda artıq formalaşmış güc münasibətlərinə sonradan normativ əsas qazandıran legitimləşdirici pərdə funksiyasını daşıyır. Məhz burada ABŞ-ın əsas dilemması üzə çıxır: qlobal nizamın memarı olmaq iddiası yerini parçalanan beynəlxalq sistemdə öz təhlükəsizliyini minimum risklə necə təmin etmək məsələsinə verir?**

Bu baxımdan Tramp dövrü ABŞ dövlətinin geosiyasi reallıqları açıq şəkildə qəbul etdiyi və strateji yönünü sərgilədiyi bir mərhələ kimi dəyərləndirilməlidir. ABŞ ilk dəfə açıq şəkildə nümayiş etdirdi ki, qlobal təhlükəsizlik onun üçün ideoloji missiya və ya universal prinsip deyil, konkret resurs–risk balansı ilə ölçülən bir mexanizmdir. Yəni Vaşinqton hər hansı bir regiona müdaxilənin faydasını və riskini dəqiq hesablayır, yalnız simvolik və ya normativ öhdəliklərə görə hərəkət etmir. Qərarlar konkret nəticələr və regionda balansı qorumaq imkanları əsasında verilir.



Yeni təhlükəsizlik arxitekturasının mərkəzində sadə, amma sərt məntiq dayanır: ABŞ hər bölgədə regional dayaq nöqtələri üzərindən təsirini qorumaqla güclü qala bilər. Burada söhbət öz regionunda balans yarada bilən aktorlardan gedir. ABŞ üçün təhlükəsizlik artıq “hamını qorumaq” öhdəliyi deyil; təhlükəsizlik düzgün seçilmiş nöqtələr vasitəsilə qeyri-sabitliyin idarə olunmasıdır. Məhz bu məntiq Cənubi Qafqaza olan baxışı dəyişdirir. Uzun illər bu region ABŞ strateji planlamasında ya Rusiya təsir zonasının kənarı, ya da Orta Şərqə bitişik ikinci dərəcəli məkan kimi dəyərləndirilirdi. Lakin yeni təhlükəsizlik arxitekturasında Cənubi Qafqaz periferiya olmaqdan çıxaraq geosiyasi keçid zonası statusu qazanır. Cənubi Qafqaz Rusiya, İran, Türkiyə və Qərb arasında kəsişən, amma heç birinin tam nəzarətində olmayan nadir məkanlardan biridir.

Keçid zonasının mərkəzində isə Azərbaycan dayanır. Qeyd etməliyik ki, ABŞ üçün əsas kriteriya funksionallıqdır. Azərbaycan regionda öz təhlükəsizlik gündəmini özü formalaşdıra bilən, münaqişə və sabitlik arasında passiv obyekt kimi yox, aktiv qərarverici kimi çıxış edən dövlətdir. Azərbaycan Cənubi Qafqazda nə Rusiyanın forpostudur, nə də Qərbin ideoloji layihəsi. Rəsmi Bakı regional balansın içindən çıxan, amma balansı dəyişə bilən aktordur. ABŞ yeni təhlükəsizlik arxitekturasında məhz belə dövlətlər əsas dayaq nöqtəsinə çevrilir: səssiz, amma çəkisi olan; müstəqil, amma proqnozlaşdırılan.

Bəs, Trampdan sonra ABŞ təhlükəsizlik siyasətində nə dəyişdi? Donald Trampın NATO-nu açıq tənqid etməsi, müttəfiqlərdən daha çox maliyyə öhdəliyi tələb etməsi və ABŞ-ı “daxilə qapanan” güc kimi təqdim etməsi çox vaxt əsas dəyişiklik kimi göstərilir. Lakin bunlar dəyişimin səsli tərəfidir. Əsas transformasiya isə səssiz və daha dərindir. Əslində, Tramp dövründə dəyişən ABŞ-ın təhlükəsizliyə baxış məntiqidir. ABŞ ilk dəfə açıq şəkildə qəbul etdi ki, Avropanın qorunması Vaşinqtonun qlobal gücünü artırmır, əksinə, resurslarını yayındırır. Uzun illər “kollektiv təhlükəsizlik” adı altında ABŞ öz gücünü universal sığorta mexanizminə çevirmişdi. Tramp dövrü bu mexanizmin ABŞ üçün artıq işləmədiyini açıq şəkildə üzə çıxardı. Vaşinqton Avropa müttəfiqlərinin müdafiəyə maliyyə və resurs baxımından daha çox töhfə verməsini tələb etdi və NATO-nun üzvləri ilə bağlı risk–gəlir balansını yenidən hesabladı. Eyni şəkildə demokratiya ixracı anlayışı da təhlükəsizlik doktrinasının mərkəzindən çəkildi. ABŞ üçün aydın oldu ki, siyasi model ixracı nə regional sabitlik yaradır, nə də ABŞ-ın özünə qarşı riskləri azaldır. Əksinə, ideoloji müdaxilə çox vaxt yerli reallıqlarla toqquşur və Vaşinqtonu idarə edə bilmədiyi proseslərin içinə çəkir.

Donald Tramp dövrünün ən mühüm, amma ən az etiraf edilən nəticəsi regional münaqişələrə münasibətdə baş verdi. Ağ Ev anladı ki, ideoloji mövqedən müdaxilə etdiyi hər münaqişə onun manevr imkanlarını daraldır. Normativ mövqe tutduqca, kompromis imkanlarını itirir və tərəflərdən birinə çevrilir. Yeni yanaşma isə ABŞ-ı balansın memarı kimi saxlamağa hesablanıb. Məhz bu səbəbdən Tramp dövrü ABŞ təhlükəsizlik siyasətini normativ güc statusundan çıxarıb geosiyasi realizm müstəvisinə qaytardı. Yeni modeldə ABŞ regionlara “öz problemi” kimi yox, öz maraqlarını qoruyan mexanizmlər kimi baxır. Vaşinqton üçün əsas sual budur: bu regionda balansı kim yarada bilər və ABŞ-ın iştirakı minimum resursla necə maksimum təsir göstərə bilər? Cavab isə birbaşa regional ağırlıq mərkəzləridir.

Cənubi Qafqaz bu baxımdan uyğun regiondur. Məhz bu nöqtədə Azərbaycan önə çıxır. Azərbaycan regional proseslərə real təsir göstərən, münaqişə və sabitlik arasında nəticə yarada bilən aktordur. ABŞ-ın yeni təhlükəsizlik arxitekturasında belə aktorlar əsas dayağa çevrilir. Vaşinqton üçün ideal regional tərəfdaş nə ideoloji baxımdan “ən yaxın”, nə də siyasi baxımdan “ən asılı” dövlətdir. İdeal tərəfdaş öz qərarlarını özü verən, regionda hegemonluq iddiası daşımayan, amma mövcud balansı dəyişmək gücünə malik aktordur. Bu kombinasiya ABŞ üçün strateji dəyər yaradır.

Azərbaycan bu baxımdan Cənubi Qafqazda istisna mövqedədir. Birincisi, Bakı artıq regional proseslərin subyektidir. 2020 və 2023-cü illərdə baş verənlər göstərdi ki, Azərbaycan mövcud status-kvonu dəyişə bilən dövlətdir. ABŞ üçün bu həlledici məqamdır, çünki Vaşinqton zəif, daimi xarici dəstək tələb edən tərəfdaşlarla uzunmüddətli təhlükəsizlik modeli qura bilmir. Yeni təhlükəsizlik arxitekturası isə öz təhlükəsizliyini özü təmin edə bilən dövlətlərə söykənir.

ABŞ regionda birbaşa hərbi və siyasi məsuliyyət daşımaq istəmir; o, balansı yerli aktorların yaratmasını üstün tutur. Azərbaycanın müstəqil qərarvermə qabiliyyəti Vaşinqtonun manevr sahəsini genişləndirir. İkinci mühüm amil Azərbaycanın geosiyasi mövqeyidir. Qərb–Rusiya–İran üçbucağında Bakı neytraldır, amma passiv deyil; müstəqildir, amma proqnozlaşdırılandır. ABŞ üçün əsas təhlükə davranışı qeyri-müəyyən olan tərəfdaşdır. Azərbaycan isə strateji davranışında ardıcıldır və bu, Vaşinqton üçün etibarlılıq yaradır. Üçüncü və bəlkə də ən strateji amil Azərbaycanın real güc faktorudur. Azərbaycan enerji, logistika və təhlükəsizlik xətlərinin kəsişdiyi məkandır. Enerji marşrutları, Orta Dəhliz, regional nəqliyyat xətləri və təhlükəsizlik koordinasiyası Bakını xəritə üzərində, funksional qovşaq edir.

Eyni zamanda, Azərbaycan Tehrana qarşı müharibə ritorikası aparmır, lakin geosiyasi çəkisini elə qurur ki, regionda İranın manevr imkanları avtomatik məhdudlaşır. ABŞ üçün bu yanaşma xüsusilə dəyərlidir, çünki Vaşinqton İranla birbaşa qarşıdurmanın regionu nəzarətdən çıxara biləcəyini yaxşı anlayır. Azərbaycanın davranışı isə gərginliyi artırmadan balans yaradır. Qərb istiqamətində də Bakı fərqli model təqdim edir. Azərbaycan Qərbə inteqrasiya şüarını daxili sabitliyi riskə atacaq ideoloji layihəyə çevirmir.



Son olaraq qeyd edək ki, ABŞ-ın yeni təhlükəsizlik arxitekturası böyük koalisiyalar və universal öhdəliklər üzərində qurulmur. Yeni təhlükəsizlik sistemində Cənubi Qafqaz kənar və ikinci dərəcəli zona olmaqdan çıxaraq strateji keçid nöqtəsinə çevrilir. Və bu keçid nöqtəsində ABŞ üçün əsas sual bir qədər praktiki səslənir:bölgədə sabitliyi kim özü yarada bilir?

Qlobal proseslərin istiqaməti göstərir ki, bu sualın cavabı getdikcə daha aydın şəkildə formalaşır və bu cavab ABŞ-ın yeni təhlükəsizlik arxitekturasında Azərbaycanın rolunu struktur zərurət kimi möhkəmləndirir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Kreml keçmişlə vidalaşmağa tələsmir

## *İmperiya iddiaları Rusiyanın problemlərini kəskinləşdirir*

**Azərbaycan Şimal qonşusundan gördüyü və son 30 ildə üzləşdiyi bütün haqsızlıqlara, ədalətsizliyə baxmayaraq, xoşməramlı əlini ona tərəf uzadır, qarşı tərəf isə sanki bunu görməzdən gələrək otuz, əlli, yüz il əvvəlki imperiya ambisiyalarından qurtulmağa çətinlik çəkdiyi bir yana, hələ də ölkəmizə qarşı məkrli planlarını işə salmaq barədə düşünür.**




Məhz Rusiyanın günahı üzündən baş vermiş məlum təyyarə qəzasından sonra Azərbaycanın ikitərəfli münasibətlərdə yaranmış sərinləməni isitmək üçün mümkün bütün addımları atmasına baxmayaraq, bölgədə əvvəlki mövqeyini və təsir rıçaqlarını itirməkdə olan Moskva bundan yaranan hirsini sanki Cənubi Qafqaz ölkələrinin üstünə tökmək istəyir. Təəssüf ki, bu zaman, o, diplomatiyada qəbul olunan və olunmayan ən müxtəlif üsullardan yararlanır.

Yazımız “qurşaqdan aşağı” üsulları özünün fəaliyyət prinsipinə çevirmiş “Rossotrudniçestvo”nun üzdəniraq planları barədədir. Kremlin çətiri altında çalışdığı şübhə doğurmayan bu təşkilatın xarici ölkələrdə hansı xarakterli fəaliyyətlə məşğul olduğunu bilməyən yoxdur. Rusiyanın xüsusi xidmətlərinin təlimatlarına köklənən “Rus evləri”nin Azərbaycandan savayı, onlarla ölkədə də qadağan olunduğunu, əməkdaşlarının saxlanıldığı barədə qəzetimiz dəfələrlə yazıb. “Rossotrudniçestvo”nun Avrasiya və Rusiya Humanitar Missiyası ilə birgə Qarabağı tərk etmiş insanlara dəstək layihəsi var imiş. İndi onun müddəti, ən azı, 2026-cı ilədək uzadılıb. Rəsmi səbəb kimi “davamlı müraciət axını” göstərilir.

Bu barədə mediaya açıqlama verən “Rossotrudniçestvo” rəhbərinin müavini İqor Çayka layihənin uzunmüddətli olduğunu və bunu, guya, “Rusiyanın Qarabağ ermənilərinin yanında yer aldığını göstərmək” istəyi ilə izah edib. Onu da bildirib ki, “Rossotrudniçestvo” Ermənistanda Qarabağı tərk etmiş vətəndaşların şəxsi məlumatlarını toplayır. Maraqlıdır ki, bunu Ermənistan hökuməti də təsdiqləyib. Rəsmi mənbələrin bildirdiyinə görə, insanlardan pasport, doğum haqqında şəhadətnamə və digər sənədlərin surətlərini təqdim etmələri xahiş olunur. Hələlik bu məlumatların humanitar yardım göstərmək adı altında toplandığı iddia edilir. Sual özü ortaya atılır: Qarabağı tərk etmiş erməniləri niyə “Rossotrudniçestvo” siyahıya alır? İkinci isə düşündürücü sualdır: məqsəd Qarabağ ermənilərinin qayğısına qalmaqdır, yoxsa onlardan siyasi alət kimi yararlanmaq?

**ARAYIŞ:** Rusiya Xarici İşlər Nazirliyinin yurisdiksiyasında olan “Rossotrudniçestvo” dünyanın 80 ölkəsində 96 xarici missiya ilə təmsil olunur. Bu qurum 2021-ci ildən həm də “Rus evi” adı kimi tanınır. “Rossotrudniçestvo”nun rəsmi Vikipediya səhifəsində yazılıb: “Rossotrudniçestvo” və onun xarici qurumlarının fəaliyyəti beynəlxalq humanitar əməkdaşlıq dövlət siyasətinin həyata keçirilməsinə və müasir Rusiya haqqında obyektiv anlayışın xaricə yayılmasına kömək etməyə yönəlib”.

*

Bu, şübhəli olduğu qədər də ciddi faktdır: 2023-cü ilin sentyabr ayından sonra Qarabağı könüllü şəkildə tərk edən ermənilərin “dosyeləri” ruslar tərəfindən toplanır. “Rossotrudniçestvo”nun Ermənistanda həyata keçirdiyi və aşkar təxribat xarakterli bu layihənin adı humanitar yardım kimi qeyd olunsa da, aydın məsələdir ki, gizli məqsədlərə hesablanıb. Maraqlıdır ki, müharibə şəraitində olan Rusiyanın əksər əhalisi ehtiyac içərisində yaşadığı halda, bu üzdəniraq təşkilat ermənilərə hələ də yardım edir. Bu “humanitar missiyanın” Qarabağı könüllü tərk etmiş erməniləri əhatə etməsi isə böyük suallar doğurur. Görünən odur ki, bu, Kremlin ermənilərə, sadəcə, humanitar yardımı olmayıb, onlardan gələcək təxribatlarında baza kimi yararlanmaq planlarından xəbər verir.

*

“Humanitar yardımın” arxasında hansı niyyətlərin gizləndiyini ehtimal etmək çətin deyil. Moskva Qarabağı könüllü tərk edən ermənilərə “istifadəyə yararlı xammal” kimi baxır. Birinci ehtimal: Moskva gələcəkdə ermənilərin Qarabağa qayıdış iddialarını körükləməklə Azərbaycana təzyiq etmək niyyətindədir. Bu zaman indi həyata keçirilən siyahıyaalma, sənədlərin toplanması ermənilərin vaxtilə Qarabağda yaşadıqlarını sübut edən dəlil kimi istifadə oluna bilər. Əslində, Qarabağ ermənilərinin uzun müddət Kreml tərəfindən maşa kimi istifadə olunduğu bizə yaxşı məlumdur. İki əsr bundan əvvəl çar Rusiyasının erməniləri Qarabağa köçürməkdə məqsədi nə idisə, o, bu gün də dəyişməyib. Fərq ondadır ki, indiki vəziyyətdə “Rossotrudniçestvo”nun siyahıyaalma planının arxasında Ermənistanın daxilində siyasi mövcudluğunu bərpa etmək niyyəti də dayana bilər. Yəni Moskva qərbyönümlü Paşinyan hakimiyyətinə təzyiq mexanizmini formalaşdırmaqda maraqlıdır. Bu baxımdan Rusiyanın siyasi strateqləri Qarabağın keçmiş erməni sakinlərini manevr imkanlarını artıracaq alət kimi görürlər. “Rossotrudniçestvo”nun siyahıyaalma oyunu ilə erməniləri yenidən təşkilatlandırmayacağına kim inanar? Yəni Kreml əvvəlcə humanitar yardım bəhanəsi ilə erməniləri çətiri altına yığıb, sonra onlardan öz məkrli planlarının icraçısı kimi yararlanmaq məqsədini güdə bilər. Bununla da Moskva Qarabağı könüllü tərk etmiş erməniləri qızışdıraraq sülh prosesini pozmaq istəyir.

Məsələyə hüquq müstəvisində yanaşsaq, deyə bilərik ki, Qarabağda yaşamış ermənilərin Rusiyaya heç bir aidiyyəti yoxdur. Yəni Kremlin “Rossotrudniçestvo”vasitəsilə atdığı bu addım nəinki qeyri-qanunidir, həm də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə ziddir. Qarabağdakı ermənilərin siyahıya alınması və ya onlara hər hansı formada yardım göstərilməsi yalnız Azərbaycan tərəfindən həyata keçirilə bilər. Çünki Azərbaycan 23 saatlıq antiterror əməliyyatından dərhal sonra orada yaşamış, amma sonradan Ermənistana və ya digər ölkələrə köçmüş ermənilərə müraciət etdi və qayıtmaq istəyənlərə geri dönmə şansı verdi. Fəqət onlar Bakının bu çağırışına cavab vermədilər. Bəzi ekspertlər bu məsələdə də Kremlin barmağının olduğunu istisna etmirlər. Görünən odur ki, imperialist keçmişini unutmağa tələsməyən Rusiya hazırda yenidən Azərbaycana qarşı müəyyən “oyun ssenariləri”ni dövriyyəyə buraxmaq niyyətindədir.

Qarabağ ermənilərinin siyahıya alınması, onlara humanitar yardım məsələsinin arxasında Rusiyanın Azərbaycana qarşı təzyiq mexanizmləri formalaşdırmaq cəhdinin dayandığı şübhəsizdir. Amma bu xarakterli cəhdlər başlanğıcdan uğursuzluğa düçardır. Ona görə ki, Azərbaycan daha 20-30 il əvvəlki Azərbaycan deyil. Müasir Azərbaycan bölgədə və dünyada öz sözünü demiş, Türkiyə, Pakistan kimi güclü müttəfiqlərə malik, Vaşinqtonun güvəndiyi və dəstəklədiyi bir dövlətdir. Bu amillərin qarşısında Rusiyanın bu cür düşünülməmiş addımlar atması mütləq bumeranq effekti yaradaraq və sonda onun özünə qarşı çevriləcək.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**



“Rossotrudniçestvo”nun Rusiyanın xüsusi xidmət orqanları ilə əlaqəli şəkildə fəaliyyət göstərməsi məlumdur. Məhz buna görə onun dünyanın müxtəlif ölkələrində açdığı “evləri” bağlayıblar və qovublar. Qurumun indiki məqamda Qarabağ ermənilərini siyahıya almaqda, sənədlərini, elektron məlumatlarını, telefonlarını qeydiyyatdan keçirməkdə məqsədi yardım adı altında onlardan həm Paşinyan hakimiyyətinə qarşı istifadə etmək, həm də bir qismini Ukraynanın işğal edilmiş ərazilərinə köçürərək, orada özünə dəstək yaratmaqdır. Eyni zamanda, guya, Qarabağdan qovulan ermənilərə sahib çıxmaqla, onlara Rusiyanın pasportunu verərək himayədarlıq etməklə bundan Azərbaycana təzyiq vasitəsi kimi yararlanmaq planı da ola bilər.

Biz Moskvanın Xankəndidə konsulluq açmaq istəyinə düşməsini unutmamışıq. Konsulluğu kimin üçün və hansı məqsədlər üçün açmaq istəyirdilər? Bu suala indi də ağlabatan cavab vermək iqtidarında deyillər. Rusiya vətəndaşlarının yaşamadığı Xankəndidə konsulluğa nə ehtiyac vardı? Yəni, hiss olunur ki, Kreml bu gün də Azərbaycana təzyiq və təsir imkanlarını nəzərdən keçirməklə məşğuldur. Bu zaman hətta Qarabağı könüllü tərk etmiş hayları öz vətəndaşları kimi qəbul etməyə hazırdır. Əls niyyət isə başqadır. Bəlkə düşünürlər ki, biz çar Rusiyasının Qafqaza hərbi basqınını, milyonlarla insanı bölgədən didərgin salaraq, öldürərək özünün imperiya ambisiyalarını gerçəkləşdirdiyini unutmuşuq? İndi Moskva ermənilərə ürəyiyanan tərəf kimi çıxış etmək fikrinə düşüb?

Bəli, biz bu gün ayıq olmalıyıq. Düşünürəm ki, artıq hər şey, eləcə də bu proseslər nəzarətdədir. Moskvanın ermənilərdən Azərbaycana təzyiq vasitəsi kimi istifadə etmək planı baş tutmayacaq.

# Prokurorluq orqanlarının beynəlxalq əməkdaşlığı genişlənir






**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qətər Dövlətinin paytaxtı Dohada səfərdədir.**

Səfər çərçivəsində Qətər Dövlətinin Baş prokuroru İssa bin Saad Al Nuaiminin dəvəti ilə nümayəndə heyəti Qətər Dövlətinin Baş Prokurorluğunda görüş keçirib. Qətərin Baş prokuroru qurumlar arasında yüksəksəviyyəli işgüzar münasibətlərin ölkələrimizin siyasi rəhbərlikləri arasında formalaşmış dostluq münasibətlərindən qaynaqlandığını qeyd edib.

Baş prokuror yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək hər iki ölkənin prokurorluqları arasında formalaşmış səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edib. O, həmkarını ölkəmizə səfərə dəvət edib.

Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Qurumunun rəhbəri Hamad bin Nasser Al Misnad ilə görüşdə Kamran Əliyev həmkarını BMT-nin Korrupsiyaya qarşı Mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin 11-ci Assambleyasının sədri seçilməsi münasibətilə təbrik edib, ölkəmizdən olan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Bu il ölkəmizə səfərinin xüsusilə yaddaqalan olmasını xatırladan ev sahibi iki ölkənin qurumları arasında təcrübə mübadiləsinin vacibliyini bildirib.

Baş prokuror Kamran Əliyevlə BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin cari direktoru John Brandolino arasında görüşdə qurumlar arasında faydalı əməkdaşlıq əlaqələrinin qurulması və bır sıra birgə layihələrin uğurla icrası vurğulanıb. O, Azərbaycan Prokurorluğunun qurumun fəaliyyətində aktiv iştirakına görə təşəkkür edərək ölkəmizin irəli sürülmüş digər təşəbbüslərinin də BMT tərəfindən dəstəkləndiyini bildirib.

Tədbir müddətində, həmçinin Baş prokuror Kamran Əliyev İranın Ədliyyə naziri Əmin Hüseyn Rəhimi, Beynəlxalq Antikorrupsiya Akademiyasının cari dekanı Drago Kos, Litva Xüsusi İstintaq Xidmətinin direktoru Linas Pernavas, Uqanda Dövlət Prokurorluq Xidmətinin direktoru Lino Anguzu, Moldovanın Baş prokuroru Aleksandru Makedon və digər nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirərək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıb.

***XQ***

# Zəngəzur dəhlizi XXI əsrin yoluna çevrilir

**Hazırda beynəlxalq aləmin diqqət mərkəzində olan Zəngəzur dəhlizinin 35 illik fasilədən sonra yenidən açılması mövzusu təkcə Azərbaycan və ətraf dövlətlər üçün deyil, Avrasiyanın qərb və şərq ölkələri, bütövlükdə, dünya birliyi üçün siyasi-diplomatik önəm daşıyır. Bu polad və şose magistralları Çindən başlayıb Mərkəzi Asiya və Xəzər dənizindən keçib, Azərbaycan və Ermənistan əraziləri ilə Türkiyəni Avropa ilə birləşdirəcək ən qısa və səmərəli Şərq–Qərb qlobal nəqliyyat zəncirində illər boyu pas atmış, Cənubi Qafqazda sülh prosesi çərçivəsində qıfılı açılmaqda olan həlqədir.**

Bu dəhliz kifayət qədər böyük iqtisadi potensialı və təbii resursları olan regionları bir-biri ilə birləşdirəcək. Dəhliz Azərbaycanın əsas ərazisi ilə onun ayrılmaz tərkib hissəsi Naxçıvanı logistik müstəvidə birləşdirəcək, ölkəmizin Türkiyə ilə əlaqələrinə birbaşa qapı açacaq, regionun dünya üçün geoiqtisadi əhəmiyyətini daha da artıracaq. Mərkəzi Asiyanın Türk dövlətlərini və Azərbaycanı uzun illərdən sonra quru yolla strateji və iqtisadi baxımdan Türkiyə ilə əlaqələndirəcək bu dəhliz birlik daxilində iqtisadi-ticarət əməkdaşlığına geniş meydan açacaq. Başıbəlalı Zəngəzur yolu, nəhayət, Çindən başlayıb Böyük Britaniyaya, Pekindən başlayıb Londona kimi nəhəng ərazidə onlarla dövlət arasında ticarət əlaqələrinin genişləndirilməsinə önəmli töhfə verəcək.

Bu gün dünya ticarətinin, təxminən, 80 faizi su nəqliyyatı ilə daşınır. Çindən Avropaya daşınan yüklər okeanlar vasitəsilə 2 aya, Transsibir marşrutu ilə 1 aya, 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunin şərq və qərb istiqamətlərində yaratdığı Orta Dəhliz (bəzən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi də deyilir) ilə isə 12–14 günə ünvanına çatdırılır.

Ulu öndər Heydər Əliyevin Zəngəzurdan keçən dəmir yolu magistralına paralel, bölgənin içəri hissəsindən keçən avtomobil yolunun bu dəhlizin önəmini artıracağını nəzərə alaraq sovet rəhbərliyində olarkən önəmli layihənin icrasına nail olmuşdu. O zaman inşasına başlanılan, Meğridən keçməsi planlaşdırılan Bakı – Naxçıvan avtomobil yolu Nüvədi kəndinə kimi (434 km) çəkilmişdi. Layihə erməni millətçilərinin ciddi narazılığı ilə qarşılanıb, Qarabağ münaqişəsi başlananda dayandırılmışdı. Zaman bu gün həmin yolun strateji önəmini yenidən gündəmə gətirib.

2 il əvvəl "Zəngəzur dəhlizi strateji layihədir" deyən Prezident İlham Əliyev bu bəyanatı ilə dünyaya gerçəyi anlamaq üçün zəruri və təsirli mesaj vermişdi. Azərbaycan lideri vurğulamışdı ki, Zəngəzur dəhlizinin reallaşması tarixi hökmdür: "Ona görə mən dedim ki, Ermənistan istəsə də, istəməsə də bu, reallaşacaq. Yəni bunu Ermənistanda yenə növbəti təhdid kimi qəbul edirlər, halbuki belə fikrim yox idi. Sadəcə olaraq, bu, qaçılmazdır. Bu, gec-tez olacaq. Əlbəttə, biz istəyirik ki, tez olsun və daha tez olsun".

Azərbaycandan keçən Orta Dəhliz layihəsi geostrateji reallıqlar baxımından Avropa ilə Asiya qitələrini birləşdirən ən qısa, təhlükəsiz, ucuz və rahat quru nəqliyyat marşrutdur. Dövlət başçısı İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibəsində Bakı-Tbilisi-Qars dəmir yolu haqqında bildirib: "Biz həmin yolun təkmilləşdirilməsi işlərinə artıq bir neçə ay bundan əvvəl başladıq və nəticədə, həmin marşrutla əvvəlcə nəzərdə tutulduğundan beş dəfə artıq yüklər daşına biləcək".




Beləliklə, həmin yolun yükgötürmə qabiliyyəti artıq 1 milyon tondan 5 milyon tona çatdırılıb. Bu, Çin və Orta Asiya dövlətləri məhsullarının Xəzər dənizi – Azərbaycan – Gürcüstan və Qara dəniz üzərindən Poti – Batumi limanları vasitəsilə, ya da Türkiyə ərazisindən Avropaya çatdırılması deməkdir. Zəngəzur dəhlizi açıldıqdan sonra Orta Dəhliz vasitəsi ilə Azərbaycandan daşınan yüklərin sürətlə artaraq, əvvəl ildə 15 milyon tona, gələcəkdə isə 25 milyon tona çatdırılacağı proqnozlaşdırılır.

Yüklər həm Azərbaycanın Ağbənd qəsəbəsindən İran İslam Respublikasına keçəcək dəmir yolu ilə (Araz dəhlizi), həm də Qərbi Zəngəzurun Meğri rayonu ərazisində bərpa ediləcək dəmir yolu (Tramp dəhlizi) ilə daşınacaq. Zəngəzur yolu Orta dəhliz layihəsinə yeni nəfəs verəcək. Məhz bu baxımdan həm ABŞ, həm də Avropa Orta dəhlizin ikinci qolu olan Zəngəzur marşrutunun açılmasında maraqlıdır. Zəngəzur dəhlizinin açılması həm də Qərbin Çin ilə əlaqələrinin inkişafına böyük töhfə verəcək.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası hökumətləri arasında 2022-ci il martın 11-də keçirilən İqtisadi, Ticarət və Humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 15-ci iclasında iki ölkə arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu Naxçıvan ilə Bakı arasında Tramp dəhlizindən əlavə, birbaşa quru nəqliyyat yolu əlaqəsi də yaradacaq. Bu məqsədlə Araz çayı üzərində Ermənistanın dövlət sərhədinin 5 kilomerliyində Ağbənd piyada keçidi, 2 avtomobil və 2 dəmir yolu gündə 500 giriş və çıxış olmaqla, ən azı, 1000 yük ağırtonlu maşını (ixrac, idxal və tranzit malları) qəbul edə biləcək.

Azərbaycanın inşa etdiyi Şərqi Zəngəzur iqtisadi rayonunu İranla birləşdirən Ağbənd körpülərində işlər yekunlaşmaq üzrədir. İran isə Ordubad rayonuərazisində Araz çayı üzərində körpülərin tikilməsini həyata keçirəcək.

Azərbaycan Zəngəzur dəhlizi layihəsi üzərində çox fəal çalışır. Bu dəhliz Qərbi Zəngəzur ərazisindən keçən, təxminən 174 kilometrə bərabər məsafədir. Azərbaycan ərazisində Horadizdən başlayaraq Ağbəndə kimi təxminən 110 kilometr qatar, 124 kilometr avtomobil yolu üzərində işlər artıq tamamlanır. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars deyil, həm də daha çox yükdaşıma qabiliyyəti olan Zəngəzur dəhlizi istismara hazır olacaq.

Uzunluğu, təxminən 124 kilometr olan Horadiz-Cəbarayıl-Zəngilan -Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizinin bir hissəsi) ən iri infrastruktur layihələrindən hesab olunur. Həmin yol boyunca 29 avtomobil körpüsü, 8 yolötürücü, 92 yeraltı keçidin inşası, sel sularının ötürülməsini təmin etmək məqsədilə lahiyə üzrə 306 dairəvi boru və 120 düzbucaqlı su keçidlərinin inşası başa çatmaqdadır. Kommunikasiya xətləri üçün nəzərdə tutulan 60 ehtiyat keçidin böyük əksəriyyətinin inşası bitib, 6 keçidin tikintisi isə davam edir.

Qərbi Zəngəzurla sərhəd olan Agbənd qəsəbəsindən Ordubad rayonunun sərhəddinə qədər Meğri rayonunun cənub hissəsindən Arazboyu keçməklə bu yolun uzunluğu 45 kilometrdir. Yəqin ki, Tramp dəhlizi tezliklə çəkilməyə başlayanda yeni tunellər, körpülər, yarılan təpələr bu yolu bir az qısaldacaq. Beləliklə, tarixən cığır və dolaylardan keçib Şərqdən Qərbə keçid yaradan, ötən əsrin ortalarında polad magistrala çevrilən Zəngəzur dəhlizi bərpa edilib müasirləşdirilməklə XXI əsrin dünya yoluna çevrilir.

**(ardı var)**

***İsmayıl ƏLİYEV,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, professor***




# BBC Donald Trampla razılığa gələcəkmi?

**BBC şirkəti ilə ABŞ Prezidenti Donald Tramp arasında yaranmış mübahisə pik həddə çatıb. İnsidentin səbəbi BBC-nin "Panorama" proqramında Trampın 6 yanvar 2021-ci il çıxışının montaj edilərək, kontekstdən çıxarılması və yayımlamasıdır. Orada Trampın çıxışından 12 saniyəlik fraqment istifadə olunub.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Nitqin kontekstdən çıxarılaraq təhrif edilməsini BBC "redaktə xətası" kimi qələmə verir. ABŞ prezidenti isə BBC-nin "xətasını" qərəzli şəkildə quraşdırılmış dezinformasiya hesab edir. Qeyd edir ki, sənədli film prezident seçkilərdən bir həftə əvvəl yayımlanıb və onun seçki şanslarını zəiflətmək məqsədi daşıyıb. Donald Tramp BBC-yə qarşı 5 milyard dollarlıq böhtan iddiası ilə Florida məhkəməsinə müraciət edib.

BBC məhkəmədə müdafiə olunmaq istəyir. Amma tərəddüdləri mövcuddur. Şirkətin saytında dərc edilən, Keti Razzallın müəllifliyi ilə yayımlanan "BBC Donald Trampın böhtan iddiasına qarşı çıxacağını bəyan edir, amma bu mübarizəyə hazırdırmı?" başlıqlı məqalədə tərəddüdün səbəbləri açıqlanır. Müəllif qeyd edir ki, məhkəmədə müdafiə prosesi 10 milyonlarla dollar xərc tələb edir. BBC rəhbərliyi bu həcmdə vəsaitin məhkəmədə müdafiəyə xərclənməsini öz büdcəsi üçün risk hesab edir. Digər tərəfdən, qarşıdakı 2 il şirkət üçün çox önəmli dövrə təsadüf edir. BBC Nizamnaməsi üzrə hökumətlə aparılan danışıqları 2027-ci ildə yekunlaşdırmalıdır. Şirkət rəhbərliyi hesab edir ki, indiki vaxtda məhkəmələrə cəlb olunması onların "diqqətini bu vacib danışıqlardan yayındıra bilər".

Məhkəmədən yayınmaq da çıxış yolu deyil. Mübarizədən geri çəkilmək BBC-nin "jurnalist peşəkarlığı"-na, müstəqilliyinə zərbə olacaq. Bütün dünyada nüfuzunu zədələyəcək. Bu durum BBC üçün ölümcül haldır. Çünki ötən yüz il ərzində BBC-nin peşəkar, obyektiv, qərəzsiz, nüfuzlu media şirkəti olduğu barədə çoxlu sayda şüarlar, aforizm və idiomlar yaradılıb. Məsələn, deyirlər ki, "Hadisə baş verib, BBC yazıbsa, deməli, hadisə doğrudan da baş verib. BBC susursa, mövzu hələ təsdiqini tapmayıb". Yaxud auditoriyada əminlik yaradırlar ki, "BBC üçün reytinq yox, həqiqət vacibdir", "BBC jurnalistikanın ölçü vahididir". Dünya ictimaiyyəti bu yalançı şüarlara inandırılıb. GAM-ın (Qlobal Auditoriya Ölçüsü) 2024-cü il üzrə hesabatına əsasən, BBC-nin auditoriyası həftəlik 450-500 milyon nəfər civarında olub (https://www.advanced-television.com/2024/07/22/bbcs-global-reach-remains-resilient). Bu rəqəmin böyük hissəsini beynəlxalq xəbər xidmətinin izləyiciləri təşkil edib. BBC World Service 42 dildə yayımlanır və dünyanın yarım milyard nəfərə yaxın əhalisi onun xəbərlərini izləyir.

Analitik mərkəzlər qeyd edirlər ki, BBC-nin obyektivliyi və qərəzsizliyi barədə deyilənlər, sadəcə illüziyadır. Şirkət qlobal oyunlarda rol alır, tərəf tutur, tendensiyalı davranır və nəticə olaraq, özü üçün dividentlər qazanır. "BBC: obyektiv jurnalistika, yoxsa mif?" başlıqlı məqalədə vurğulanır ki, BBC-nin yanlış, qərəzli, tendensiyalı məlumatlar yayması haqqında çoxsaylı nümunələr mövcuddur ( https://domford.net/post/bbc-myths/). Bu kontekstdə ən məşhur keyslərdən biri "Devid Kelli hadisəsi"dir. O, İraq müharibəsinin başlanmasında və gedişində BBC-nin qərəzli rolunu ehtiva edir. Qeyd edilir ki, qlobal güc mərkəzləri tərəfindən İraqın işğalına yönəlmiş müharibənin ideoloji hazırlıq prosesində BBC də rol alıb. İraqın kütləvi qırğın silahlarına, kimyəvi silahlara malik olması barədə qondarma "kəşfiyyat məlumatlarının" yayılmasında yaxından iştirak edib. Auditoriyasını inandırıb ki, "İraq bu silahları 45 dəqiqə müddətində işə salıb böyük fəlakətlər törədə bilər".

Bəllidir ki, bu iddia İraq müharibəsinin gedişində öz təsdiqini tapmayıb. BBC-nin həmin iddianı sübuta yetirmək üçün ekspert qismində təqdim etdiyi Devid Kelli isə yanlış oyunlarda rol aldığına görə intihar edib. Ən acınacaqlısı budur ki, İraq müharibəsinin gedişində 1 milyon nəfərdən çox insan həyatını itirib. Bütün bunlara rəğmən, BBC "sudan quru çıxmağı" bacarıb.

İsrail–Qəzza münaqişəsi fonunda yol verdiyi yanlışlar isə BBC üçün ən rüsvayçı faktlardan biri kimi tarixə düşüb. "Al Jazeera"nin məlumatına əsasən, "BBC İsrail-Fələstin münaqişəsi ilə bağlı reportajlarında tərəfkeşlik və balanssızlıq ittihamları ilə üzləşib". Öz fəaliyyəti ilə münaqişənin alovlanmasına, insan faciələrinin artmasına yol açıb. Bütün bunlar şirkətin öz əməkdaşlarının etiraflarında əksini tapıb. Belə ki, BBC-nin 8 nəfər əməkdaşı 2023-cü ilin noyabr ayında "Al Jazeera"ya məktub yazaraq, öz şirkətlərinin rəhbərliyi tərəfindən təqib olunduqlarını bildiriblər. Qeyd ediblər ki, müharibə bölgəsində gördükləri həqiqətləri yazmaq istəsələr də, şirkət rəhbərliyi onların qarşısına sədd çəkib, fəaliyyətlərinə maneələr törədib. Onlardan "həqiqətləri göstərən faktları deyil, redaksiyadan verilən tezisləri təsdiqləyən arqumentlər tapmağı" tələb edib. Repressiyaya məruz qalmaqdan ehtiyat edən jurnalistlər anonimlik istəyiblər.

Bu məktubda yazılanlar göstərir ki, BBC səhifələrində yer tutan yanlışlıqlar təsadüfi xarakter daşımır. Şirkət özünün maraqlarına uyğun olaraq, yalan xəbərlərin təqdimatı üzərində qurulmuş bir siyasət yürüdür. Yeri gəlmişkən, qeyd edək ki, monitorinq mərkəzlərinin hesabatlarına əsasən, BBC təkcə İsrail-Fələstin münaqişəsi haqqında reportajlarında 1553 dəfə qərəzlilik və qeyri-dəqiqlik nümayiş etdirib.

BBC-nin münaqişələri qızışdıran, insan fəlakətinə yol açan yanlış xəbərlər verməsi, siyasi proseslərdə rol alması barədə yüzlərlə nümunələr mövcuddur. Əgər Donald Tramp məhkəmədə qalib gələrsə, bu, BBC-nin yalan, yanlış hərəkətlərini isbat edən növbəti fakt olacaq və şirkətə ölümcül zərbə vuracaq. O baxımdan şirkət ciddi çaba göstərir, vəziyyətdən çıxmağa çalışır.

Hazırda iş məhkəməyə tam çatmayıb. BBC ilkin hüquqi cavab mərhələsinə hazırlaşır. Trampla razılaşmaya getməsi fonunda bütün mümkün ssenariləri dəyərləndirir.

# Ərəb Əmirlikləri ilə iqtisadi əməkdaşlıqda yeni mərhələ

**Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri iki ölkə arasındakı münasibətlərin, xüsusilə iqtisadi sahədə, yeni mərhələyə meydan açıb. Bu yüksək səviyyəli dialoq çərçivəsində siyasi əlaqələr möhkəmlənir, iqtisadi əməkdaşlıq genişlənir.**



Ümumiyyətlə, dövlət başçılarının qarşılıqlı səfərləri ikitərəfli iqtisadi əlaqələrin çoxşaxəli genişlənməsinə təkan verəcək. Qeyd edək ki, ötən il BƏƏ Prezidentinin Qarabağa tarixi səfəri zamanı iki ölkə arasında Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb. İndi isə Prezident İlham Əliyevin Əbu-Dabiyə səfəri bu tərəfdaşlığın konkret layihələr və nailiyyətlərlə zənginləşdirilməsi üçün mühüm platforma yaradıb.

Son illərdə Azərbaycan ilə BƏƏ arasında ticarət dövriyyəsi diqqətçəkən sürətlə artıb. 2024-cü ildə ikitərəfli ticarət dövriyyəsi 96,8 milyon ABŞ dolları təşkil edib ki, bu da 2021-ci illə müqayisədə iki dəfə artım deməkdir. Üstəlik, cari ilin (2025) ilk on ayında iki ölkə arasında ticarət dövriyyəsi 147,5 milyon dollara çataraq ötən ilin yekunu ilə müqayisədə 66 faiz daha yüksək olub. Bu göstərici Bakı ilə Əbu-Dabi xətti üzrə iqtisadi tərəfdaşlığın dinamik gücünü nümayiş etdirir. Diqqətəlayiq haldır ki, Azərbaycan BƏƏ ilə ticarətdə təxminən 40 milyon dollarlıq müsbət saldoya malikdir – yəni ixrac idxalı üstələyir. Belə müsbət ticarət saldosu BƏƏ bazarının Azərbaycan üçün yüksələn bir qeyri-neft ixracatı məkanı olduğuna işarədir.

Azərbaycan üçün BƏƏ-yə artan ixracat əsasən qeyri-neft sektorunun məhsullarından formalaşır. Ölkəmizin qeyri-neft-qaz ixrac bazarlarının şaxələndirilməsi baxımından BƏƏ ilə əməkdaşlıq son dərəcə vacibdir. 2025-ci ilin ilk 10 ayında Azərbaycanın qeyri-neft-qaz məhsulları ixracının 3,1 faizi (təxminən 92 milyon dollar) məhz BƏƏ-nin payına düşüb. Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə bu rəqəm cəmi 46 milyon dollar idi, yəni bir il ərzində göstərici, demək olar, ikiqat artıb (91,7 milyon dollara). BƏƏ artıq Azərbaycan məhsulları üçün stabil ilk 10 ixrac bazarından birinə çevrilməkdədir. Bu cür irəliləyiş ölkəmizin ənənəvi bazarlardan asılılığını azaltmaqla, qeyri-neft sektorunun inkişafına mühüm stimul verir.

Bu ilin iyul ayında BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın iştirakı ilə Əbu-Dabidə keçirilmiş görüş zamanı Azərbaycan və BƏƏ nümayəndələri arasında əməkdaşlıq sazişlərinin imzalanması ikitərəfli iqtisadi tərəfdaşlığın yeni səviyyəyə yüksəldiyini göstərir.

BƏƏ Azərbaycanın strateji investisiya tərəfdaşlarından biri kimi çıxış edir. Xüsusilə ölkəmizin "yaşıl enerji" sektoruna Körfəz ölkələrinin sərmayəsi getdikcə artır. Son illərdə Azərbaycanın bərpaolunan enerji sahəsinə yönəldilən 1 milyard dollardan çox investisiyanın əhəmiyyətli hissəsi məhz BƏƏ kimi Körfəz dövlətlərinin payına düşür. Əbu-Dabinin məşhur Masdar şirkəti Azərbaycanda bir sıra günəş və külək enerji layihələrinin aparıcı tərəfdaşıdır – Neftçala, Biləsuvar və Qaradağda həyata keçirilən birgə layihələr ölkəmizin "yaşıl enerji" hədəflərinə çatmasına böyük töhfə verir. Artıq istifadəyə verilmiş ilk böyük Günəş Elektrik Stansiyasının da məhz BƏƏ-nin dəstəyi ilə inşa olunması bu əməkdaşlığın real nəticəsidir. Hər iki ölkə innovativ texnologiyalar sahəsində də əməkdaşlığı gücləndirir və gözləntilərə görə alternativ enerji istehsalında Azərbaycan-BƏƏ tandemi yaxın gələcəkdə daha ciddi uğurlar əldə edəcək.

BƏƏ, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurulmasında maraqlı investor kimi çıxış edir. Qarabağ və Şərqi Zəngəzur bölgələrinə xarici sərmayələrin cəlb olunması prosesində BƏƏ xüsusi rol oynamaq niyyətindədir. Bu sahədə əməkdaşlığın dərinləşməsi Qarabağın iqtisadi dirçəlişi və reinteqrasiyası prosesini sürətləndirə bilər. Artıq iki ölkə birgə iqtisadi layihələrin maliyyələşdirilməsi üçün 1 milyard dollarlıq Birgə İnvestisiya Fondu təsis edib və həmin fond çərçivəsində bir sıra layihələr üzrə danışıqlar aparılıb. 2025-ci ilin sentyabr ayında Bakıda keçirilən beynəlxalq investisiya forumunda BƏƏ-nin "Modon Holding" şirkəti ilə 5 milyard dollar dəyərində şəhərsalma layihəsinə dair əməkdaşlıq sazişinin imzalanması da bu niyyətin konkret icra mərhələsinə keçdiyini göstərir. Belə iri investisiya layihələri azad edilmiş ərazilərdə infrastrukturun bərpası, kənd təsərrüfatının dirçəldilməsi və sənaye parklarının yaradılması kimi istiqamətlərdə böyük imkanlar açır.

Azərbaycan ilə BƏƏ arasındakı yüksək səviyyəli siyasi dialoq iqtisadi sahədə uzunmüddətli əməkdaşlığın yolunu açıb. İki ölkə rəhbərliyinin müdrik siyasəti nəticəsində əlaqələr bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. 2023-cü ilin sentyabrında imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq Bəyannaməsi siyasi, ticari və mədəni bağları möhkəmlətməklə yanaşı, iqtisadi əməkdaşlıq üçün də çərçivə yaradıb. Bunun ardınca, 2025-ci ilin iyulunda Əbu-Dabidə Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi (CEPA) imzalanıb – bu mühüm sənəd qarşıdakı illərdə ticarət dövriyyəsinin və investisiya axınlarının artmasına, eləcə də daha rəqabətqabiliyyətli və dayanıqlı iqtisadi tərəfdaşlığın qurulmasına xidmət edəcək. İkitərəfli Birgə Biznes Şurasının yaradılması barədə qərar da məhz sahibkarlar arasında əlaqələri gücləndirmək məqsədi daşıyır.

Nəticə etibarilə, Bakı–Əbu-Dabi xətti üzrə əlaqələr təkcə siyasi arenada deyil, iqtisadi müstəvidə də sürətlə dərinləşir. Enerji, ticarət, investisiya və yeni texnologiyalar sahəsində əldə olunan razılaşmalar Azərbaycanın iqtisadi diversifikasiya hədəfləri ilə BƏƏ-nin qlobal iqtisadiyyatda artan rolunu birləşdirir. Prezident İlham Əliyevin cari səfəri çərçivəsində aparılan danışıqlar və imzalanan sənədlər göstərir ki, Azərbaycan-BƏƏ əməkdaşlığının növbəti mərhələsi başlayır. Bu mərhələdə hər iki ölkə qarşılıqlı faydalı iqtisadi layihələrlə strateji tərəfdaşlığı daha da dərinləşdirərək, gələcəkdə regionlararası əməkdaşlıq üçün nümunəvi bir model formalaşdırmaq niyyətindədir.

***Nurlan ABDALOV***
***XQ***

# II Azərbaycan–Türkiyə İnvestisiya Forumu keçiriləcək

**Türkiyənin ticarət naziri Ömer Bolat Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) sədri Hüseyin Büyükfıratı nazirlikdə qəbul edib. Görüş zamanı hər iki ölkənin ticarət əlaqələri və Azərbaycanda keçiriləcək II Azərbaycan–Türkiyə İnvestisiya Forumu ilə bağlı müzakirələr keçirilib.**



Qeyd edək ki, dekabrın 23-də Bakıda Azərbaycanın İqtisadiyyat Nazirliyi və Türkiyənin Ticarət Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi–AZPROMO və TÜİB-in birgə təşkilatçılığı ilə II Azərbaycan–Türkiyə İnvestisiya Forumu keçiriləcək.

Forumda həmçinin regionlararası ticarətin təşviqi, enerji keçidi, dayanıqlı inkişaf və infrastruktur layihələri, ikitərəfli işgüzar əlaqələrin genişləndirilməsi və Dördüncü Sənaye İnqilabına həsr olunan panel sessiyaları keçiriləcək.

***XQ***

# Şamaxı–Qobustan yatağında kəşfiyyata başlanacaq

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Macarıstanın "MOL Group" şirkəti arasında Azərbaycanın Şamaxı–Qobustan sahəsində kəşfiyyat və hasilat üzrə pay bölgüsü sazişi imzalanıb. Sazişi SOCAR-ın prezidenti Rövşən Nəcəf və "MOL Group"un İdarə Heyətinin sədri və baş icraçı direktoru Jolt Hernadi imzalayıblar.**




Layihənin operatoru olan "MOL Group" birgə kəşfiyyat layihəsində 65 faiz, SOCAR isə 35 faiz paya malikdir. Sazişə əsasən, seysmik tədqiqatlar 2026-cı ilin əvvəlində başlanacaq, sonrakı mərhələdə qazma işləri aparılacaq.

Qeyd edək ki, 3 iyun 2025-ci il tarixində "Bakı Enerji Həftəsi" çərçivəsində SOCAR ilə "MOL Group" şirkəti arasında imzalanan Əsas Şərtlər Sazişindən sonra bu tam razılaşdırılmış sənəd iki şirkət arasında əvvəlki uğurlu əməkdaşlıq üzərində qurulan strateji tərəfdaşlıqda mühüm mərhələdir. "MOL Group" şirkəti Azərbaycan bazarına 2020-ci ildə Azəri-Çıraq-Günəşli (AÇG) yatağında 9,57 faiz pay və xam nefti Ceyhan limanına nəql edən Bakı-Tbilisi-Ceyhan boru kəmərində 8,9 faiz effektiv pay əldə etməklə daxil olub.

***XQ***

**Müasir dövrdə rəqəmsal texnologiyalar iqtisadiyyatın müəyyən bir sahəsi olmaqla yanaşı, bütövlükdə idarəetmənin, sosial münasibətlərin və inkişaf modelinin əsas dayaqlarından birinə çevrilib. Qlobal çağırışlar, texnoloji transformasiya və rəqabətli beynəlxalq mühit ölkələri rəqəmsal iqtisadiyyatı milli inkişaf strategiyalarının mərkəzinə yerləşdirməyə vadar edir. Azərbaycan da bu tendensiyadan kənarda qalmayaraq, rəqəmsal transformasiyanı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib.**

# Rəqəmsal iqtisadiyyat dayanıqlı inkişafı sürətləndirəcək

Bu mövqe beynəlxalq platformalarda da açıq şəkildə ifadə olunur. BMT Baş Assambleyasının İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammitinin (İCÜS) nəticələrinin icrasına həsr olunmuş yüksək səviyyəli iclasda çıxış edən Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Tofiq Musayev ölkəmizin rəqəmsal inkişafla bağlı baxışını diqqətə çatdırıb. O bildirib ki, sammitin keçirilməsindən ötən iki onillik ərzində rəqəmsal transformasiya dayanıqlı inkişafın ayrılmaz tərkib hissəsinə çevrilib. Eyni zamanda, bu transformasiyanın imkanlarının dünya miqyasında hələ də bərabər bölüşdürülmədiyi vurğulanıb.



Azərbaycanın mövqeyinə görə, universal, təhlükəsiz və əlçatan rəqəmsal əlaqə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağın əsas şərtlərindən biridir. Bu kontekstdə ölkəmiz milli səviyyədə rəqəmsal transformasiyanı strateji prioritet elan edib və bu istiqamətdə konkret yol xəritəsi formalaşdırıb. Məhz bu məqsədlə "Rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya"nın icrası nəzərdə tutulur.

Yeni strategiya inklüziv iqtisadi artımı və davamlı rəqəmsal iqtisadiyyatın qurulmasını hədəfləyir. Sənəddə yüksək keyfiyyətli rəqəmsal infrastrukturun genişləndirilməsi, rəqəmsal bacarıqların inkişafı və innovasiya mühitinin təşviqi əsas istiqamətlər kimi müəyyən edilib. Bu yanaşma iqtisadiyyatın müxtəlif sahələrində məhsuldarlığın artırılmasına, biznes mühitinin yaxşılaşdırılmasına və vətəndaşların rəqəmsal imkanlardan daha geniş istifadə etməsinə şərait yaradacaq.

Son illər Azərbaycan hökumətinin genişzolaqlı internet şəbəkəsinin inkişafına, rəqəmsal dövlət xidmətlərinin genişləndirilməsinə və innovasiya ekosisteminin formalaşdırılmasına yönəlmiş investisiyaları bu siyasətin praktik nəticələrini ortaya qoyur. Xüsusilə ASAN Xidmət modeli şəffaf, səmərəli və vətəndaş yönümlü yanaşması ilə beynəlxalq səviyyədə nümunə kimi qəbul olunur. Bu model rəqəmsal texnologiyaların institusional islahatlarla uzlaşdırılmasının dövlət-vətəndaş münasibətlərində etimadı gücləndirdiyini nümayiş etdirir.

Azərbaycan nümayəndəsi qeyd edib ki, bununla yanaşı, Azərbaycan "Rəqəmsal İpək Yolu" təşəbbüsü ilə regional rəqəmsal əlaqəni dəstəkləyir, Trans-Avrasiya informasiya infrastrukturunun təhlükəsiz və davamlı olmasını təmin etməyi hədəfləyir və regional inteqrasiyanı dəstəkləyir. Postmünaqişə bərpa işləri çərçivəsində azad edilmiş ərazilərdə ağıllı və davamlı şəhərlərin inkişafı, rəqəmsal infrastruktur, yaşıl texnologiyalar və innovasiya ekosistemlərinin tətbiqi ilə inklüziv artımı və gənclər üçün iş imkanlarını təmin edir.

Rəsmi Bakının mövqeyinə görə, inklüziv, bərabər və davamlı rəqəmsal gələcəyin qurulması yalnız beynəlxalq əməkdaşlıq yolu ilə mümkündür. Azərbaycan bu istiqamətdə bütün üzv dövlətlər və maraqlı tərəflərlə əməkdaşlığa açıq olduğunu bəyan edir. Məqsəd hər bir ölkənin öz rəqəmsal inkişaf yolunu müəyyən edə bilməsi və hər bir insanın informasiya cəmiyyətinin imkanlarından faydalanmasıdır.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Azər BADAMOV,**
**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini**

Azərbaycan dünya birliyindən ayrı düşmədən qlobal trendləri yaxından izləyir, müasir dünyanın gətirdiyi çağırışlara cavab verir. Bu səbəbdəndir ki, "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "7. Tədbirlər planı" hissəsinin 1.1.8-ci yarımbəndinin 1-ci abzasının icrası məqsədilə hazırlanmışdır.

Strategiyanın əsas məqsədi odur ki, ölkədə sahibkarlıq sahəsində rəqəmsal infrastruktur genişləndirilsin. Nəzərdə tutulur ki, transformasiyanın sürətləndirilməsi, iqtisadiyyatın rəqabətliliyinin yaxşılaşdırılması, innovasiyanın əsaslı inkişafı təşviq edilsin, rəqəmsal bacarıqlar gücləndirilməklə yanaşı, rəqəmsal iqtisadi fəaliyyətlərin dayanıqlılığı artırılsın. Bununla yanaşı, rəqəmsal xidmətlərin keyfiyyəti və əlçatanlığı da yüksəldilməlidir.

Rəqəmsal texnologiyalar qlobal iqtisadi inkişafda həlledici rol oynayır, lakin ekoloji və sosial aspektlər nəzərə alınmadıqda yeni risklər yaradır. Azərbaycan bütün bu amilləri nəzərə alır.

Burada əsas diqqət yetirilən məsələlərdən biri ondan ibarətdir ki, sadəcə dövlət qurumları üçün deyil, habelə özəl şirkətlər, hüquqi şəxslər, sahibkarlar üçün də yeni imkanlar yaradılsın. Dövlət qurumlarında inzibati prosedurların sadələşdirilməsinə böyük diqqət yetirilir. Prezident İlham Əliyev sahibkarlıq fəaliyyətinin uğurla həyata keçirilməsi üçün tapşırıq və tövsiyələrlə daimi qaydada çıxış edir.

Sənaye parklarının salınması üçün zəruri infrastruktur və idarəetmə qurumları yaradılır, müasir texnologiyalar tətbiq edilir. Məhz bütün bu amillər rəqabətə açıq iqtisadi sistem deməkdir. Rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi dövrün tələbidir. Odur ki, belə məqsədlər üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən sənaye parkları salınır.

Qeyri-neft sektorunun inkişafı Azərbaycanın ən önəm verdiyi məsələdir. İqtisadiyyatın şaxələndirilməsi dayanıqlı iqtisadi inkişafı təmin edəcək. Bu proqramın icrasının özü elə dayanıqlı iqtisadi inkişaf deməkdir. Dövlət başçımızın xüsusi həssaslıqla yanaşdığı məsələlərdən biri ondan ibarətdir ki, Bakı şəhəri və digər böyük şəhərlərimiz qədər regionlar da inkişaf etsin. Proqramın yalnız Bakını deyil, regionları da əhatə etməsi regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcək. Bu da iqtisadi səmərəliliyin balanslı artımı deməkdir.

Bölgələrdə sahibkarlara şərait yaradılması baxımından aktuallaşdırılan çağırışlar, verilən tapşırıq və tövsiyələrin təməlində də dayanıqlı iqtisadi inkişaf dayanır. Qarabağ və Şərqi Zəngəzurda rəqəmsal transformasiya layihələrinin həyata keçirilməsi regional inteqrasiyanın güclənməsinə və innovativ həllərin tətbiqinə şərait yaradır. Orta Dəhliz Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına daha sağlam əsaslarla çıxışı deməkdir. Orta Dəhliz üzrə e-logistika, yəni gömrük və tranzit əməliyyatlarının rəqəmsallaşdırılması diqqət mərkəzindədir.

# 2026-cı il: Müdafiə, təhlükəsizlik və iqtisadiyyatda canlanma




**(əvvəli 1-ci səhifədə)**

Qlobal ticarət zəncirləri qırılır, ona görə ki, qlobal güclər regional münaqişələrdə bir-birilə birbaşa və dolayısı ilə hərbi toqquşmalarda iştirak edirlər. Regional münaqişələr ona görə qaynar fazaya daxil olur ki, qlobal güclər arasında xammal və ticarət bazarları, texnoloji birincilik uğrunda savaş gedir. Belə miqyaslı savaşlarda ticarət yolları, nəqliyyat və enerji marşrutlarının da xüsusi maraq dairəsinə daxil olaraq qarşıdurma meydanına çevrilməsi ticarət müharibələrinin sabit təkrarlanan hərəkəti, yəni qanunudur.

Təbii ki, nüvə erasının qlobal iqtisadi-ticarət savaşının hərb meydanındakı davamı nüvə dövlətlərinin birbaşa toqquşması ilə deyil, strateji əhəmiyyətli regionlarda aparılır. Böyük güclərin regionlar uğrunda geosiyasi mübarizəsi isə məntiqi olaraq strateji coğrafi mövqeyə və resurslara malik kiçik və orta miqyaslı ölkələrə təsir uğrunda mübarizə ilə müşayiət olunur.

Nəticədə ticarət yolları, coğrafi mövqe və resurslar baxımından strateji əhəmiyyət kəsb edən kiçik və orta miqyaslı ölkələr üçün siyasi, hərbi və iqtisadi risqlərin səviyyəsi artır.

Cənubi Qafqaz 3 mühüm göstəriciyə görə getdikcə sərtləşməkdə olan qlobal ticarət və geosiyasi savaşların təsir dairəsinə düşür.

## Azərbaycan: Qlobal savaşın qaçılmaz enerji mənbəyi

Birinci göstərici, Azərbaycanın enerji bazarında tutduğu strateji mövqedən qaynaqlanır. Avropanın Rusiya ilə enerji ticarətini dayandırması fonunda strateji Azərbaycan–Avropa İttifaqı enerji tərəfdaşlığı çox ciddi geosiyasi əhəmiyyət kəsb edir. Hazırda Azərbaycan qazının interkonnektorlar vasitəsilə Şərqi Avropa bazarını təmin etməsi qlobal geosiyasi mübarizənin ən mühüm hədfələrindən biri olan Şərqi Avropanın enerji təhlükəsizliyinə əvəzsiz töhfə verir, Avropanın vazkeçilməz enerji tərəfdaşı statusunu qazandırır. Bu status Azərbaycanı Şərqi Avropa uğrunda geosiyasi mübarizənin hədəfinə çevirir. Vazkeçilməz enerji mənbəyi statusu bərpaolunan enerjinin istehsalı və nəqli üzrə planların icrası ilə daha da yüksək səviyyəyə qaldırılmaqdadır. Nəhayət, Azərbaycan Mərkəzi Asiyanın da enerji resurslarının nəqlində açar ölkə statusuna malikdir. Odur ki, bu statusun geosiyasi tərəfdaşları ilə əleydarları arasındakı ölüm-dirim savaşı istər-istəməz, ölkəmizi də sözügedən qarşıdurmaların hədəfinə çevirə bilir.

Azərbaycanın qlobal geosiyasi savaşın təsir dairəsinə və hədəfinə çevirən ikinci göstərici, nəqliyyat marşrutlarının yenidən cızılmasıdır.

Azərbaycanın cəsarətli səyləri nəticəsində Orta Dəhliz Avropa-Cənubi Qafqaz-Mərkəzi Asiya-Çin ticarətində əvəzolunmaz marşruta çevrilib. Hazırkı şərtlər daxilində Orta Dəhlizin tərəfdarları əleyhdarlarından güclü olduğu üçün marşruta qarşı sərt hücumlar müşahidə olunmur. Ancaq hər şeyin müharibə meydanlarında həll olunduğu indiki geosiyasi şərtlər çevikdir və sürətlə dəyişə bilir. Odur ki, Orta Dəhlizin əleyhdarlarının aktivləşməsi də gözləniləndir.

Eyni fikirləri Şimal–Cənub nəqliyyat marşrutuna da şamil etmək olar. İndiki şərlər daxilində Rusiyanın Hind okeanına çıxışını əngəlləmək niyyətində olan qüvvələr nəzəri və məntiqi olaraq Şimal-Cənub marşrutunun əleyhdarları sayıla bilər. İkinci Dünya müharibəsi gedişində bu marşrut ABŞ-Britaniya-SSRİ üçün nə qədər əvəzolunmaz əhəmiyyətə malik idi isə, indi də Rusiya üçün o qədər əhəmiyyətlidir. Məntiqi olaraq, Azərbaycan və İran Şimal-Cənub marşrutunun əleyhdarlarının hədəfinə gəlir. Ancaq Azərbaycanın Orta Dəhliz nəqliyyat və enerji dəhlizinin açar ölkəsi olması bizi Şimal-Cənub marşrutunun əleyhdarlarının hədəfindən yayındırır.

Üçüncü göstərici, geosiyasi mövqe ilə əlaqəlidir. 1. Cənubi Qafqazın və regionun açar ölkəsi olan Azərbaycanın Mərkəzi Asiyanın Avropaya çıxışında körpü rolunu oynayır; 2. Rusiya ilə İranın quru əlaqələri Azərbaycandan keçir; 3. Azərbaycan İran və Rusiya ilə həmsərhəddir.

Beləliklə, hər 3 göstərici qlobal savaş iştirakçıları üçün Azərbaycanı və Cənubi Qafqazı Avrasiya uğrunda mübarizənin əsas faktoruna çevirib.

Hazırda qlobal mübarizə Baltikdən Qara dənizə qədər Şərqi Avropaya, Qara dənizdən Xəzərə qədər Cənubi Qafqaza, nəhayət Xəzərin şərq hissəsində Mərkəzi Asiyaya nəzarət uğrundakı geosiyasi savaşdır. Bu 3 regiona nəzarət edən qüvvə Avrasiyaya nəzarət paketini əlində saxlayacaq. Cənubi Qafqaz isə bu zəncirdə birləşdirici həlqə, Azərbaycan isə Cənubi Qafqazın açar ölkəsidir.

Odur ki, Azərbaycan Avrasiyaya nəzarətin "qızıl açarı"dır. Avrasiyaya nəzarət Azərbaycana nəzarətdən başlayır. Məhz bu səbəbdəndir ki, ölkəmizin coğrafiyası uğrunda mübarizə həmişə müşahidə olunub. Amma indi qlobal gərginliyin pik həddində bu mübarizənin də öz sərtliyinin zirvəsinə çatması gözləniləndir. Müdafiə və təhlükəsizliyin dövlətin və xalqın birinci vəzifəsinə çevrilməsi də elə bu səbəblərdən qaynaqlanır.

Ümumiyyətlə, hazırda Azərbaycan da daxil olmaqla, qarşıdurma zonalarına daxil olan və yaxud da münaqişələrin episentrinə yaxın, münaqişələrə siyasi, hərbi, iqtisadi təsir potensialına malik ölkələr üçün risklərin dairəsinə:

– Çevrilişlər və çevriliş cəhdlərinin intensivləşməsi;

– Hərbi təhdidlər;

– Qlobal ticarətin məhdudlaşmasının təsiri ilə iqtisadi problemlər;

– Qlobal ticarət və valyuta savaşlarının təsiri ilə inflyasiyanın idxalı;

– İqtisadi-ticarət və inflyasiyanın təsiri altında sosial-iqtisadi problemlərin artması və s. və i. daxildir.

## Cənubi Qafqazın daxili siyasəti hədəfdə

Artıq 2025-ci ilin iyununda Ermənistanda Baqrat Qalstanyan adlı keşişin liderliyi ilə N.Paşinyanın "kriminal oliqarxik ruhaniliyin sabitliyi pozmaq və hakimiyyəti zəbt etməyə dair genişmiqyaslı məkrli planı"nın qarşısı alındı. Hazırda Ermənistanda həmin "kriminal oliqarxik ruhaniliyin" təmizlənməsi prosesi gedir.

2025-ci ilin oktyabrında Gürcüstan hökuməti elan etdi ki, xarici xüsusi xidmətlərin dəstək verdiyi dövlət çevrilişinə cəhdin qarşısı alınıb və təşkilatçıları həbs edilib.

Gürcüstanda Prezident Administrasiyasına hücumlarla müşayiət olunan gərginliklərə paralel olaraq Azərbaycanda dövlət çevrilişinə cəhd və qarşısının alınması məsələsi gündəmə gəldi və araşdırma başlandı.

Hər 3 Cənubi Qafqaz ölkəsində dövlət çevrilişlərinə cəhdlərin arxasında hansı ölkələrin xüsusi xidmətlərinin dayandığı artıq ikinci dərəcəli məsələdir. Bizim üçün mühüm olanı odur ki, dövlət çevrilişləri Cənubi Qafqaz uğrunda mübarizənin bir aləti, mexanizmi olaraq işə salınıb. Təqribən 5 ay ərzində Cənubi Qafqazın 3 ölkəsinin hər birində dövlət çevrilişlərinə cəhdlər artıq təhlükəli bir tendensiya göstəricisidir.

## Dövlət çevrilişləri və buna cəhdlər tendensiyası güclənir

Beynəlxalq tendensiyalar da göstərir ki, bu mexanizmin işə salınması təkcə Cənubi Qafqaz regionuna aid deyil. Bütün dünyada yenidən dövlət çevrilişlərinə cəhdlərin artım tendensiyası müşahidə olunmaqda, hətta ötən əsrin 50-60-cı illərinin səviyyəsinə çatmaqdadır.

ABŞ və SSRİ-nin "olum, ya qalım" savaşına girdiyi 1960-1970-ci illəri əhatə edən 20 il isə dövlət çevrilişləri (həmçinin cəhdlər) və qlobal təsirli regional müharibələrin kulminasiya dövrü oldu. Bu dövrdə orta hesabla, ildə 20 çevriliş və çevrilişə cəhd olub.

Dünya yenidən iki/çoxqütblülük dövrünə daxil olduqca, regional müharibələrin, dövlət çevrilişlərinin və buna cəhdlərin sayının yenidən artması müşahidə olunmaqdadır. Məsələn, University of Illinois Cline Center Coup d'État Project-ə görə, 2021-ci ildən etibarən dünyada hər il 14-16 çevriliş, çevriliş cəhdi və ya dövlət çevrilişi planı qeyd olunur. Bu rəqəm 2008-2017-ci illərlə müqayisədə çox olsa da, 1960-70-ci illərin səviyyəsinə çatmayıb. Lakin 2025-ci il hələ bitməsə də, artım tendensiyası görünür.

Son 4-5 ildə bütün dünyada dövlət çevrilişlərinin artma tendensiyası fonunda 2025-ci ildə Cənubi Qafqazın 3 ölkəsində müşahidə olunmuş cəhdlər ümumi qlobal tendensiyanın regional təzahürü kimi görünməklə yanaşı, zaman və kəmiyyətcə müqayisə etsək, dövlət çevrilişlərinə cəhd baxımından Cənubi Qafqazı yalnız Afrika ilə müqayisə etmək olar. Belə ki, hələ başa çatmamış 2025-ci il Qvineya-Bissauda (26 noyabr, 2025) və Madaqaskarda (12-14 oktyabr, 2025) məqsədinə çatmış, Burkina Faso (aprel, 2025), Nigeriya (sentyabrın sonu–oktyabr, 2025) və Malidə isə dövlət çevrilişi və sui-qəsdlərə uğursuz cəhdlərlə müşahidə olunub. 2025-ci il ərzində bütün Afrikada 5 çevriliş və çevrilişə cəhd qeydə alınıbsa, Cənubi Qafqazda 3 belə hal müşahidə olunub. Afrikada 56, Cənubi Qafqazda isə cəmi 3 suveren dövlətin olduğunu nəzərə alsaq 5 dövlət Afrika dövlətlərinin 9%-i, 3 dövlət isə Cənubi Qafqazın 100%-ni təşkil edir. Nəticədə, biz bu təhdidin Cənubi Qafqaz üçün miqyasını görürük.

## Təhlükəsizlik böhranı dövründə büdcə siyasəti

Təhlükəsizliklə bağlı belə geosiyasi böhran dövrlərində dövlətlərin büdcə siyasətində dəyişikliklər qaçılmazdır. İlk növbədə:

*– Müdafiə və təhlükəsizlik xərcləri prioritetləşdirilir: Buraya təhlükəsizliyi təmin edən qurumların şəxsi heyətlərinin maaşları, təlimi, səhiyyə xidməti, həmçinin silah və avadanlıqların saxlanılması və alınması üçün vəsait ayrılması daxildir.*

*• Hərbi tədqiqatlara və inkişafa investisiyalar artırılır: Yeni texnologiyaların inkişafı üçün vəsait ayrılması hərbi qabiliyyətin artırılması və dövlətin rəqib dövlət üzərində texnoloji üstünlüyünü qoruyub saxlaya bilməsi, ən azı özünümüdafiə potensialını gücləndirməsi üçün vacibdir.*

*• İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər görülür: Güclü və sabit iqtisadiyyat milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Odur ki, ən mühüm iqtisadi aktivlərin qorunması, təchizat zəncirlərinin dayanıqlığının təmin edilməsi, ticarətin və investisiya axınlarının təmin edilməsi hökumətlərin əsas vəzifələridir.*

*• Kritik infrastrukturlara investisiya yatırmaq: Milli təhlükəsizlik üçün təhlükəsiz və dayanıqlı infrastruktur vacibdir. Buraya rəqəmsal infrastrukturun və digər kritik aktivlərin qorunması daxildir.*

*• Büdcədənkənar maliyyələşdirmə mexanizmlərindən istifadə olunur;*

*• Ehtiyat fondları yaradılır;*

*• Qısa müddət üçün prioritet olmayan sektorlardan resurslar yenidən bölüşdürülür;*

*• Təhlükəsizliyin təmin olunması üçün beynəlxalq əməkdaşlığı gücləndirir: Tərəfdaşlar və müttəfiqlərlə işləmək hərtərəfli iqtisadi təhlükəsizlik strategiyasının əsas elementidir.*

Hər bir ölkənin bu nəzəri yanaşmalardan hansılarına üstünlük verməsi isə yerli reallıqların nəzərə alınması və hökumətlərin siyasi baxışlarından asılıdır.

Azərbaycanın Türkiyə ilə hərbi müttəfiqliyə dair imzaladığı memorandum, Mərkəzi Asiya ölkələri ilə C5+Azərbaycan formatında təhlükəsizlik platformasında birləşməyə dair atılmış addımlar beynəlxalq müdafiəni gücləndirir.

Regionun iqtisadi və siyasi aspektlərdən aparıcı, birləşdirici və qoruyucu faktoru kimi ölkəmizin məntiqi olaraq bütövlükdə Cənubi Qafqaz ölkələrinin müstəqilliyi və hərbi təhlükəsizliyinin, regionda sülhün təmin olunmasında da bir liderlik missiyası var.

Həm də təkcə Cənubi Qafqazın deyil, Mərkəzi Asiyanın da iqtisadi müstəqilliyi və təhlükəsizliyində Azərbaycanın rolu və missiyası o qədər böyükdür ki, bizim müdafiə və təhlükəsizliklə bağlı xərclərimizin artması məntiqli və əsaslandırılmışdır.

## "Gun and butter" prinsipi: silah çörək qədər vacibdir

Artan risklərin neytrallaşdırılması isə öz növbəsində maliyyə resurslarının əhəmiyyətli hissəsinin daxili təhlükəsizliyin qorunmasına və xarici müdaxilələlərin qarşısının alınmasına yönəldilir. Sadə bir həqiqətdir ki, təhlükəsizlik mövcudluğun təməl prinsipidir! Odur ki, belə bir qlobal şərtlər daxilində dövlətlərin təhlükəsizlik üçün daha çox vəsait xərcləməsi məntiqlidir və qaçılmaz zərurətdir.

"Gun and butter" – "Silah və yağ" (bizim dildə "silah və çörək" daha qavrayışlı səslənir) nəzəriyyəsi "təhdidlərin artdığı (qlobal gərginlik, qonşuların müharibə vəziyyətində olması və s.) və paralel olaraq ehtiyatların məhdudlaşdığı" (neft ixracının azalması, idxal məhsullarının bahalaşması və s.) dövrlərdə istehsalın sərhədlərini müəyyənləşdirən bir formuladır. "Silah"-hərbi müdafiə və təhlükəsizlik xərclərini, "yağ" ("çörək") isə yollar, körpülər, səhiyyə, təhsil, kənd təsərrüfatı və s. iqtisadi xərclərin rəmzidir.

Mahiyyət nədən ibarətdir? Nəzəri olaraq, cəmi iki məhsul – silah və yağ istehsal edən iqtisadiyyat götürdükdə birinin istehsalının artması, mütləq şəkildə o birinin istehsalının azalmasına səbəb olur. Məsələn, təhdidlərin azaldığı dövrlərdə belə bir iqtisadiyyat 900 qutu yağ və yalnız 20 tüfəng istehsal edirsə, təhdidlərin artdığı dövrlərdə bu nisbət silahın xeyrinə dəyişərək, məsələn, 100 qutu yağ, 180 tüfəng olur.

Məsələn, 2008-ci il qlobal böhranı və resessiyalar dövrlərində qeyri-strateji subsidiyalar, bəzi müdafiə xərcləri (böhrandan asılı olaraq) ixtisar olunaraq sosial-iqtisadi dəstək paketləri, işsizlik müavinətləri, vacib sənaye sahələri (banklar, avtomobil) üçün yardımlar və iş yerlərinin yaradılması proqramlarına xərclənirdi.

Uzun müddət ikinci haldakı seçim qarşısında qalmaq, əlbəttə ki, təhlükəlidir. Şübhəsiz ki, çörək də silah qədər vacib təhlükəsizlik faktorudur. Bu sadə həqiqətə söykənərək hökumət üçün ən məntiqli seçim "bütövlükdə – hər iki istiqamətdə istehsalın tempini və əmək məhsuldarlığını artırmaq"dır. Bu variant "həm çörək, həm də silah" istehsalını artırmaq üçün şərtləri təmin edir. Bazar iqtisadiyyatı mexanizmlərinin sərbəst fəaliyyətinin təmin edilməsi isə bütün sahələrin investisiya ilə təmin olunmasına imkan verir. Məsələn, ikiqütblü dünya dövrünün ən sərt qarşıdurma dövründə - 1975-1991-ci illərdə, SSRİ və ABŞ "sürətlə silahlanma" siyasəti yürüdürdülər. Bu həm də ABŞ-ın bazar iqtisadiyyatı ilə SSRİ-dəki dövlət plan iqtisadiyyatının yarışı idi. Planlı iqtisadiyyat bazarın tələblərinə çevik reaksiya verə bilmədiyi üçün bütün vəsait silah istehsalına yönəldildi və hökumət bu siyasəti dəyişə bilmədiyi üçün uzun müddət davam etdi. Nəticədə, SSRİ sosial-iqtisadi problemlər səbəbindən süqut etdi.

Liberal iqtisadiyyat tərəfdarı respublikaçı R.Reyqan hökuməti də bir sıra sosial layihələri ixtisar etsə də, bazar iqtisadiyyatı mexanizmlərinin sərbəstləşdirilməsi sayəsində iqtisadiyyatın bütün əsas sahələrinin inkişafına təkan verməklə yanaşı, hərbi xərcləri də təmin edə bildi.

"Reyqanomika" gəlir vergilərinin azaldılmasını, dövlət xərclərinə qənaəti, dövlətin müdaxiləsi və qiymət nəzarətinin azaldılması, rəğbət və innovasiyaların stimullaşdırılmasını, nəhayət, hətta ilkin mərhələdə bahalı pul siyasəti hesabına inflyasiyanın qarşısının alınmasını ehtiva edirdi.

R.Reyqanın bu yanaşması ABŞ üçün 4 istiqamətdə epoxal milli və qlobal siyasi və iqtisadi böhranları həll etdi: 1. ölkəni iqtisadi böhranların ən pisi sayılan "staqflyasiya"dan çıxardı, 2. iqtisadi sıçrayışı təmin etdi, 3. SSRİ ilə sürətlə silahlanma yarışından qalib çıxdı, 4. Kommunizm ideologiyasının süqutuna nail oldu.

Bazar iqtisadiyyatı və özəl sektorun inkişafı sayəsində R.Reyqanın hərbi xərcləri artırma siyasəti paralel olaraq iqtisadi effektə malik idi. Yəni silah istehsalına yönəldilən xərclər yan sahələrə də təsir edərək iqtisadiyyatın yenidən canlanmasında mühüm rol oynadı.

Beləliklə, R.Reyqan təcrübəsi göstərir ki, iqtisadi böhran və qlobal təhlükəsizliklə bağlı təhdidlərin artması fonunda müdafiə və təhlükəsizlik xərclərinin artırılması zərurəti yarandıqda, yəni "silah və çörək" dilemması yarandığı dövrlərdə a) xərcləri mümkün qədər hər iki sahənin inkişafına yönəltmək, b) bütövlükdə iqtisadiyyatda istehsal və əmək məhsuldarlığını artırmaq, c) silah istehsalından iqtisadi böyümə faktoru kimi istifadə etmək, d) bazar iqtisadiyyatı mexanizmlərini daha da liberallaşdırmaq, inflyasiyaya nəzarətlə iqtisadi inkişafı tənzimləyən monetar siyasətin yürüdülməsi məqsədəuyğundur.

Təsadüfi deyil ki, 2026-cı il üçün dövlət büdcəsi əsas xərc maddələrinə əsasən "təhlükəsizlik və iqtisadi fəaliyyət büdcəsi" adlandırıla bilər. Belə ki, büdcənin xərclər bölməsində həcminə görə 1-ci yerdə təqribən 8,8 milyard manatla müdafiə və təhlükəsizlik xərcləri (büdcənin 20,9%-i), ikinci yerdə isə təqribən 7,7 milyard manatla iqtisadi fəaliyyət üçün nəzərdə tutulmuş xərclər gəlir. İqitsadi fəaliyyət xərclərinə kənd təsərrüfatı üçün nəzərdə tutulmuş təqribən 1,1 milyard manatlıq xərcləri də əlavə etsək, bütövlükdə iqtisadiyyata yönəlik xərclərin həcmi müdafiə və təhlükəsizliklə eyniləşmiş olur və büdcənin 17.6 milyardlıq hissəsini (büdcənin təqribən 42%-i) təşkil edir.

Yəni, büdcə milli təhlükəsizliyin iki təməl elementini – a) müdafiə və təhlükəsizlik, b) iqtisadi təhlükəsizlik komponentlərini əsas hədəflər kimi müəyyənləşdirib.

Azərbaycanın əsas ticarət tərəfdaşları olan Avropa ölkələri hərbi-müdafiə xərclərini artırmaq zərurəti ilə üzləşərək "Guns and butter" dilemmasını həll etmək məcburiyyəti qarşısındadır. Əsas ticarət tərəfdaşı və enerji sahəsində strateji tərəfdaş, Azərbaycan qazının mühüm ixrac bazarı kimi Avropa və Azərbaycanın təhlükəsizliyi də bir-birilə domino effekti ilə sıx bağlıdır.

Az qala hər gün Avropanın KİV-lərində hərbi xərcləri necə iqtisadi səmərəyə çevirmək yolları barədə müzakirələr aparılır. Avropa İttifaqında hərbi xərclərin dinamikası müdafiə və təhlükəsizliyin əsas yerə çıxdığını göstərir. Məsələn:

– 2024-cü ildə hərbi xərclər 343 milyard avro (2023-cü ildən 19% çox).

– 2025-ci il üçün proqnoz: 381 milyard avro (2024-cü ildən 11% çox).

– Hərbi xərclərin ÜDM-də payı: 2024-cü ildə 1,9%-ə çatıb, 2025-ci ildə 2,1%-ə çatacağı proqnozlaşdırılır və NATO-nun 2% hədəfinə yaxınlaşır.

– 2020-ci ildən bəri hərbi xərclərdə 60%-dən çox artım müşahidə olunur.

Avropa Birliyinin xarici siyasət rəhbəri Kaya Kallas " bu, Avropanın müdafiə erası olmalıdır" deyir: "Avropa xalqımızın təhlükəsizliyini təmin etmək üçün müdafiəyə rekord məbləğdə pul xərcləyir və biz bununla kifayətlənməyəcəyik. Bu xoş bir şey deyil, ancaq vətəndaşlarımızın qorunması üçün vacibdir".

Almaniya, Fransa, Niderland, Belçika, Xorvatiya, Polşa, Rumıniya, Baltikyanı ölkələr çağırış sistemlərində islahat apararaq müdafiə və təhlükəsizlik mexanizmlərinin çevikliyini artırır, könüllülüklə yanaşı, məcburi hərbi mükəlləfiyyət mexanizmlərinin yaradılması istiqamətində addımlar atırlar.

Belə ki, müdafiə və təhlükəsizlik artıq bütün dünyanın qayğısı, gündəlikdəki birinci məsələdir.

Bununla belə, dünyada yaranmış vəziyyətdə müdafiə və təhlükəsizliyin yaratdığı tələbləri iqtisadi fürsətə çevirmək potensialı da var. Azərbaycanın müdafiə sənayesinin həm də bir iqtisadi faktor olması, hərbi xərclərin məşğulluq və ixraca təkan verməsi də nəzərə alınmalıdır. Odur ki, dünyada hərbi təyinatlı məhsullara tələbin artması fonunda Azərbaycanın müdafiə sənayesini gücləndirməsi təhlükəsizliklə yanaşı, həm də iqtisadi səmərə götürülməsinə hesablanıb.

## Qlobal təhlükəsizlik böhranı və yerli idarəetmə islahatları

Ancaq iqtisadi nəticələr yalnız büdcə xərclərinin miqyası ilə əldə olunmur. Az vəsaitlə yüksək nəticələrə nail olmaq həm də idarəçiliyin təkmilləşdirilməsini ehtiva edir.

Prezident İlham Əliyev noyabrın 12-də Naxçıvanın səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul zamanı məhz bu tapşırıqları verdi.

Prezidentin tapşırdığı birinci məqam idarəçiliyin liberallaşdırılmasını, iqtisadiyyata ədalətsiz müdaxilənin aradan qaldırılmasını nəzərdə tutur: "Vaxtilə belə hallar olub və bu qanunsuz tapşırıqları verən, qanunsuz varlanmanı özləri üçün əsas məqsəd hesab edən məmurlar bu gün məhkəmə qarşısında cavab verirlər. ... sağlamlaşdırma və təmizləmə siyasəti nəticəsində artıq əminəm ki, sizə heç kim qanunsuz tapşırıq verməyəcək".

Prezidentin tapşırıqlarındakı ikinci məqam sahibkarlıq üçün əlverişli mühitin yaradılmasıdır ki, bu da liberallaşmanı, bazar prinsiplərinin tətbiqini nəzərdə tutur: "...yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar".

Şərait isə Prezidentin dediyi kimi, 1) məmurların vətəndaşa açıq olmasını, 2) iqtisadiyyata ədalətsiz müdaxilənin qarşısının alınmasını, 3) sahibkarlar üçün əlverişli şərtlərin təmin olunmasını ehtiva edir.

## Regionlar iqtisadi artım və sosial sabitlik mənbəyi kimi

Hazırda beynəlxalq ticarətin zəiflədiyi və çox böyük ehtimalla xarici iqtisadi əlaqələrin qarşısındakı problemlərin daha da dərinləşəcəyi səbəbilə ölkə iqtisadiyyatının genişləndirilməsi üçün əsas istiqamət məhz regionlar ola bilər.

Azərbaycanın regionlarının isə böyük potensialı var. Azad olunmuş ərazilərdə infrastruktur quruculuğu genişləndikcə bu potensial daha da böyüyür. Bundan əlavə Orta Dəhlizin Araz və Zəngəzur seqmentlərinin perspektivi də dəhliz boyu regional iqtisadiyyata təkan verən faktordur.

Beləliklə, büdcədə müdafiə və təhlükəsizilik xərclərinə bərabər olan iqtisadi fəaliyyət xərcləri ilə yanaşı, Prezident sahibkarlıq fəaliyyəti üçün mühitin liberallaşdırılmasını da əsas tapşırıq kimi səsləndirdi.

Büdcə inflyasiyanın rasional çərçivədə saxlanmasını və makroiqtisadi sabitliyin qorunmasını da vəd edir.

Bir məqam da xüsusi əhəmiyyət daşıyır: Azərbaycan müdafiə xərclərinin artırılmasını uzun müddət üçün nəzərdə tutmur. Hərbi xərclərin artımı qısamüddətli siyasətdir və 2026-2030-cu illərin inkişaf proqramına əsasən bu maddə üzrə xərclərin tədricən azalması, paralel ÜDM-in artım tempinin yüksəlməsi nəzərdə tutulur.

Bütün bunlar – büdcədə iqtisadi fəallıq və kənd təsərrüfatı üçün nəzərdə tutulmuş xərclər, idarəçiliyin liberallaşdırılması, iqtisadiyyata ədalətsiz müdaxilələrin aradan qaldırılması, sahibkarlar üçün şərtlərin yaxşılaşdırılması, belə bir nəticə çıxarmağa əsas verir ki, növbəti ilin büdcə siyasətinin əsasını təşkil edən "həm təhlükəsizlik, həm də çörək" formulu gözlənilən nəticəni verəcək.

***İbrahim MƏMMƏDOV,***
***tarix üzrə fəlsəfə doktoru***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 382** **9 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Keyfiyyət informasiya sistemindən istifadə haqqının məbləği, ödənilməsi və ondan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında”, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında”, “Standartlaşdırma haqqında” və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Keyfiyyət informasiya sistemindən istifadə haqqının məbləği, ödənilməsi və ondan istifadə Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 387** **10 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 aprel tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 aprel tarixli 57 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 371 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın “Naxçıvan Muxtar Respublikasının arxiv idarələri” hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 388** **10 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 6 dekabr tarixli 193 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1242 (Cild I); 2025, № 5, maddə 518) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1 “I. Büdcədən maliyyələşdirilən qurumlar:” bölməsi üzrə:

1.1. 1-ci hissə ləğv edilsin;

1.2. 10-cu hissədən “və Uşaq Sosial-Psixoloji Reabilitasiya və İdman Sağlamlıq Mərkəzi (Buzovna qəsəbəsi)” sözləri çıxarılsın;

1.3. 44-cü hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 45–55-ci hissələr əlavə edilsin:

“45. “Astara Gənclər evi” sosial xidmət müəssisəsi;
46. “Füzuli Gənclər evi” sosial xidmət müəssisəsi;
47. “Goranboy Gənclər evi” sosial xidmət müəssisəsi;
48. “Kürdəmir Gənclər evi” sosial xidmət müəssisəsi;
49. “Lənkəran Gənclər evi” sosial xidmət müəssisəsi;
50. “Sabirabad Gənclər evi” sosial xidmət müəssisəsi;
51. “Siyəzən Gənclər evi” sosial xidmət müəssisəsi;
52. “Zərdab Gənclər evi” sosial xidmət müəssisəsi;
53. “Pirallahı Gənclər evi” sosial xidmət müəssisəsi;
54. “Quba Gənclər evi” sosial xidmət müəssisəsi;
55. “Tərtər Gənclər evi” sosial xidmət müəssisəsi.”.

2. “II. Təsərrüfathesablı qurumlar:” bölməsi üzrə:

2.1. 3-cü hissədə “Heydər Əliyev adına İdman Konsert Kompleksi” sözləri “Heydər Əliyev adına İdman-Konsert Kompleksi” MMC” sözləri ilə əvəz edilsin;

2.2. 6-cı hissədə “Respublika Olimpiya Mərkəzi” sözləri “Bakı Atletika Mərkəzi” MMC” sözləri ilə əvəz edilsin;

2.3. 21-ci hissədə “Kür” Olimpiya Tədris İdman Mərkəzi” sözləri “Kür” Olimpiya Tədris İdman Mərkəzi” MMC” sözləri ilə əvəz edilsin;

2.4. 33-cü hissədə “Şəhər” sözü “Sumqayıt şəhər” sözləri ilə əvəz edilsin;

2.5. 67-ci hissənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 68–76-cı hissələr əlavə edilsin:

“68. “Bakı Olimpiya İdman Kompleksi” MMC;
69. “Neftçala Olimpiya İdman Kompleksi” MMC;
70. “Maştağa Olimpiya İdman Kompleksi” MMC;
71. “Salyan Olimpiya İdman Kompleksi” MMC;
72. “Boradigah İdman Zalı” MMC;
73. “Voleybol Mərkəzi” MMC;
74. “Şüvəlan Ağırlıqqaldırma Mərkəzi” MMC;
75. “Qarabağ İdman Obyektləri” MMC;
76. Bakı Şəhər Halqası Əməliyyat Şirkəti.”.

3. “III. Publik hüquqi şəxslər:” bölməsi üzrə:

3.1. 2-ci hissədə “Milli İdman Tibb və Reabilitasiya İnstitutu” sözləri “Milli İdman Tibb və Reabilitasiya Elmi-Praktiki İnstitutu” sözləri ilə əvəz edilsin;

3.2. 2-ci hissəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bölməyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

“3. Azərbaycan İdman Akademiyası.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 385** **10 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 66 nömrəli qərarı ilə təsdiq edilmiş “Ağır və yüngül xəsarət növlərinin Siyahısı”nın Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərə şamil edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 158 nömrəli Qərarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78; 2025, № 2, maddə 187, № 9, maddə 868) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - “Azərbaycan Respublikasının dövlət sərhədində profilaktik zolaq və baytar-sanitar rejiminə dair Qaydalar”da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bəndin “Qeyd” hissəsinin ikinci abzasında “olan səfirliyi” sözləri “fəaliyyət göstərən diplomatik nümayəndəliyi və ya konsulluğu” sözləri ilə əvəz edilsin;

1.2. 4.1-ci bəndin ikinci abzası ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 348 (Cild I) ilə təsdiq edilmiş “Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növləri”nə aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

“6-1. Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsulluğunda xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarına verilən vergiyə və digər icbari ödənişlərə cəlb olunmayan ödənişlərdən aliment tutulmur.”.

3. “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 254 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 612) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş “Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması Qaydası”nın 2-ci hissəsinin dördüncü abzasına “nümayəndəliklərində” sözündən sonra “, habelə konsulluqlarında” sözləri əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş “Dövlət sirrinin yayılmasının qarşısının alınması Qaydası”nın 12-ci hissəsi üzrə:

3.2.1. altıncı abzasa “nümayəndəliklərinə” sözündən sonra “və konsulluqlarına” sözləri əlavə edilsin;

3.2.2. yeddinci abzasda “ölkədəki diplomatik nümayəndəliklərinə” sözləri “ölkədə fəaliyyət göstərən diplomatik nümayəndəliyinə və ya konsulluğuna” sözləri ilə əvəz edilsin.

4. “İxrac nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612; 2025, № 4 (II kitab), maddə 406, № 5, maddə 520; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 oktyabr tarixli 316 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş “İxrac nəzarətinin aparılması Qaydaları”nın 2.2-ci bəndinə “nümayəndəlikləri” sözündən sonra “və konsulluqları” sözləri əlavə edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş “İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması Qaydası”nın 2.3-cü bəndinə və 3.1.1.2-ci yarımbəndinin birinci cümləsinə “nümayəndəliklərinin” sözündən sonra “və konsulluqlarının” sözləri əlavə edilsin; həmin Qərarla təsdiq edilmiş “İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarətin həyata keçirilməsi Qaydası”nın 2.4-cü bəndinə “nümayəndəlikləri” sözündən sonra “və konsulluqları” sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 iyul tarixli 110 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 736 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin blanklarının ciddi hesabat sənədi kimi uçotu Qaydaları”nın 3.7-ci bəndində “xarici ölkələrdəki səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərində” sözləri “diplomatik nümayəndəliklərində və konsulluqlarında” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I); 2024, № 4, maddə 453, № 9, maddə 1085; 2025, № 8, maddə 806; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 5 noyabr tarixli 332 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə – “Ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası”nda “Qeydlər”in 1-ci hissəsinin ikinci cümləsində “səfir vəzifəsində çalışan şəxslərə, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin (Baş konsulluqlar daxil olmaqla) Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən rəhbərlərinə” sözləri “səfirlərə, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin rəhbərlərinə və baş konsullara” sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 735 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş “İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)”nın 1.4 -cü bəndinə “nümayəndəlikləri,” sözündən sonra “konsulluqları,” sözü əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); 2024, № 2, maddə 217, № 3, maddə 314, № 4, maddə 468, № 9, maddə 1106) ilə təsdiq edilmiş “Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.3-cü bəndin birinci abzasında “diplomatik xidmət əməkdaşları və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslər” sözləri “diplomatik xidmət orqanı əməkdaşları” sözləri ilə, “xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsini həyata keçirən hərbi qulluqçular” sözləri “diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsini həyata keçirən şəxslər” sözləri ilə, “xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının” sözləri isə “diplomatik nümayəndəliklərin və konsulluqların” sözləri ilə əvəz edilsin və həmin abzasa “təqdim edilməklə” sözlərindən sonra (“Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 14.2.2.1-ci, 14.2.2.2-ci və 14.2.3.1-ci maddələrində nəzərdə tutulan vəzifələrə münasibətdə vəzifələrə təyin edilmə və həmin vəzifələrdən azad edilmə (geri çağırılma) ilə bağlı müvafiq sənədlər əsasında)” sözləri əlavə edilsin;

8.2. aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

“2.3-1. “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci maddəsinin şamil edildiyi şəxslərin xaricdə işlədikləri dövrdə əldə etdikləri vəsait və əmlak Azərbaycan Respublikasına bu Qaydaların 2.3-cü bəndinin birinci abzasına uyğun olaraq gətirilir.”.

9. “Ağır, az ağır və yüngül xəsarət növlərinin Siyahısı”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 avqust tarixli 269 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1003 (Cild I) ikinci abzası 1-ci hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

“2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Siyahı Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarına da şamil edilir.”.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 13 oktyabr tarixli 429 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1892 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndəsi və onun aparatı haqqında Əsasnamə”nin 6.2-ci bəndində “9.1-ci maddəsində” sözləri “15.4-cü maddəsində” sözləri ilə əvəz edilsin.

11. “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli, 7 noyabr tarixli 333 nömrəli və 1 dekabr tarixli 357 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

11.1. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”nın 1.4.2.2.4.3-cü yarımbəndində “konsulluq” sözü “konsul” sözü ilə əvəz edilsin;

11.2. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə” üzrə:

11.2.1. “1.2.0. “Beynəlxalq münasibətlər” köməkçi bölməsinə “nümayəndəliklərin” sözündən sonra “və konsulluqların” sözləri əlavə edilsin;

11.2.2. “1.2.3. “Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları” paraqrafı aşağıdakı redaksiyada verilsin:

“1.2.3. “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları” paraqrafına Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması ilə bağlı xərclər daxildir.”;

11.2.3. “6.1.2. “Əmək qabiliyyətinin itirilməsi”, “6.1.3. “Yaşa görə” və “6.1.4. “Qəyyumluq” paraqraflarının ikinci abzaslarına “xüsusi” sözündən sonra “və diplomatik” sözləri əlavə edilsin;

11.3. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatı” üzrə:

11.3.1. “211300. Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti” paraqrafında “Diplomatik” sözü “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərdə, konsulluqlarında” sözləri ilə əvəz edilsin və həmin paraqrafa “müavinəti” sözündən sonra “, habelə 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət” sözləri əlavə edilsin;

11.3.2. “221700. “Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satın alınması” paraqrafında, “222140. Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə cari təmir xərcləri”, “222350. Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi” maddələrində “və” sözü “nümayəndəlikləri və konsulluqları, habelə” sözləri ilə əvəz edilsin;

11.4. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə” üzrə:

11.4.1. “211000. “Əməkhaqqı” köməkçi bölməsində “Diplomatik” sözü “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında” sözləri ilə əvəz edilsin və həmin bölməyə “müavinəti” sözündən sonra “, habelə 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət” sözləri əlavə edilsin;

11.4.2. “211300. “Diplomatik və ticarət nümayəndəliklərində çalışan işçilərin əməkhaqqı, təmsilçilik və birdəfəlik yerləşmə müavinəti” paraqrafında “Diplomatik” sözü “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında” sözləri ilə əvəz edilsin və həmin paraqrafa birinci halda “müavinəti” sözündən sonra “, habelə 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət” sözləri, “diplomatik” sözündən sonra “nümayəndəlikləri, konsulluqları” sözləri, ikinci halda “müavinəti” sözündən sonra isə “, habelə qəbul edilən dövlətdə onlarla birlikdə yaşayan 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə aylıq müavinət” sözləri əlavə edilsin;

11.4.3. “221000. “Malların satınalınması” köməkçi bölməsinə, “221700. “Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə malların satınalınması” paraqrafına (hər iki halda), “222100. “Cari təmir” paraqrafının üçüncü cümləsinə, “222140. “Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə cari təmir xərcləri” maddəsinə (hər iki halda), “222300. “Telekommunikasiya və poçt rabitəsi xidmətləri haqqının ödənilməsi” paraqrafına, “222350. “Azərbaycan Respublikasının diplomatik və ticarət nümayəndəlikləri üzrə rabitə xidmətləri haqlarının ödənilməsi” maddəsinə (hər iki halda) və “311900. “Sair torpaq, tikili və avadanlıqlar” paraqrafına “və ticarət” sözlərindən əvvəl “nümayəndəlikləri, konsulluqları” sözləri əlavə edilsin;

11.4.4. “222290. “Digər kommunal xidmətlərin haqqının ödənilməsi” və “222520. “Xarici ezamiyyətlər” maddələrində “səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinə” sözləri “diplomatik nümayəndəliklərinə, konsulluqlarına və xarici ölkələrdə ticarət nümayəndəliklərinə” sözləri ilə əvəz edilsin;

11.4.5. “222442. “Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri” yarımbəndinə “nümayəndəliklərinə” sözündən sonra “və konsulluqlarına” sözləri əlavə edilsin;

11.4.6. “222500. “Ezamiyyə xərcləri” paraqrafının birinci cümləsində “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə və konsulluqlarına işə təyin olunan, bu orqanlarda fəaliyyətini başa çatdırıb geri qayıdan əməkdaşın və onun ailə üzvlərinin, habelə diplomatik xidmət əməkdaşının illik məzuniyyətlə bağlı Azərbaycan Respublikasına eyni vaxtda gəlməsi və işlədiyi dövlətə qayıtması üçün nəqliyyat üzrə xərclər” sözləri “müvafiq vəzifəyə təyin olunan və geri çağırılan, habelə xidmətinə xitam verilən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının və “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci, 13.17-ci maddələrində nəzərdə tutulan şəxslərin xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə getmək və Azərbaycan Respublikasına qayıtmaqla əlaqədar tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla nəqliyyat xərcləri, habelə həmin şəxslərin əmək məzuniyyəti ilə (növbəti məzuniyyətlə) əlaqədar onların və ailə üzvlərinin, habelə həmin şəxslərin əmək məzuniyyətinə (növbəti məzuniyyətə) çıxıb-çıxmamasından asılı olmayaraq ailə üzvlərinin ildə bir dəfə Azərbaycan Respublikasına gəlmək və xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə getmək həddində nəqliyyat xərcləri” sözləri ilə əvəz edilsin;

11.4.7. “222920. “İstehlakyönlü müxtəlif xidmətlər” maddəsində “səfirlik, konsulluq və başqa diplomatik nümayəndəliklərinin əməkdaşlarının və onların” sözləri “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində, konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının, habelə “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.15-ci, 13.17-ci maddələrində nəzərdə tutulan şəxslərin və onlarla birlikdə yaşayan” sözləri ilə əvəz edilsin;

11.4.8. “222990.“Sair xərclər” maddəsinə “kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə bağlı xərclər,” sözlərindən sonra “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 13.16-cı maddəsində nəzərdə tutulan şəxslərə, onlarla birlikdə yaşayan ailə üzvlərinə verilən təminat və kompensasiyalarla bağlı xərclər, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının mühafizəsi ilə bağlı bütün növ xərclər” sözləri əlavə edilsin;

11.4.9. “312900. “Sair torpaq, tikili və avadanlıqların əsaslı təmiri” paraqrafına “və ticarət” sözlərindən əvvəl “nümayəndəliklərinin, konsulluqlarının” sözləri əlavə edilsin;

11.5. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin proqram təsnifatı”nın 6.1.10-cu sırasında “Yerli diplomatların” sözləri “Diplomatik xidmət əməkdaşlarının” sözləri ilə əvəz edilsin.

12. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ağır və yüngül xəsarət növlərinin Siyahısı”nın Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərə şamil edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 25 oktyabr tarixli 158 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 875 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*I Türkoloji Qurultay – 100*

# 100 il əvvəldən gələn səslər

## *Ən maraqlı məruzələrin icmalı və şərhi*

***(əvvəli qəzetimizin 9 və 11 dekabr 2025-ci il tarixli saylarında)***

**Borozdin** “Tatar mədəniyyəti sahəsində ən son elmi kəşflər” mövzusunda məruzə edir: “SSRİ-dəki türk xalqlarının tarixi taleləri hələ də kifayət qədər və tam şəkildə öyrənilməmişdir. Arxeoloji tədqiqatlara daha intensiv şəkildə cəlb olunan Volqaboyu yaşayan bulqarların zəngin və əhəmiyyətli mədəniyyəti ilə bağlı bir sıra məsələlər tam həllini tapmamışdır. Bu sahədə tatar hakimiyyətinin dövrü daha dərin tədqiq olunmuşdur; qədim yaşayış yeri olan Bilyar və Zmiyovda tatar hakimiyyəti dövrünədək hakimiyyətdə olmuş bulqar-türk mədəniyyətinə məxsus əşyalar (keramika nümunələri) aşkar edilmişdir.

Yeddi yüz ildən də çox əvvəl Orta Asiyanın dərinliklərindən Avropaya güclü axın etmiş monqollar SSRİ hüdudlarında böyük bir Şərq – tatar mədəniyyətini formalaşdırmışdı. İndi biz Monqol imperiyasının yaranmasını, Yaxın, Orta və Uzaq Şərqə təsirini və dünya tarixində nə dərəcədə əhəmiyyət kəsb etdiyini yaxşı bilirik. Çingizxanın yürüşləri Çinin dərinliklərindən başlayaraq geniş bir miqyasda Orta Asiyadan Rusiya düzənliklərinə və Qərbi Avropa sərhədlərinə kimi yayılmışdı. Bununla da bir çox zəngin ənənələri cəmləşdirən maraqlı və özünəməxsus bir mədəniyyət formalaşmışdır.

Oktyabr inqilabından sonrakı dövrdə professor Ballod tərəfindən Povoljyedə, Qızıl Ordanın keçmiş paytaxtlarında (Köhnə və Yeni Sarayda) aparılmış qazıntılar həmin dövrün çiçəklənmiş Şərq şəhərlərini qismən də olsa, bərpa etməyə imkan vermişdir. Hər halda, burada hər hansı bir ibtidai vəhşilikdən danışılmır.

**Borozdin qeyd edir ki,** rus mədəniyyətinə güclü təsir etmiş tatar mədəniyyətinə, öz növbəsində, yad olan mədəni təsirlər də hopmuşdu. Bunlar, görünür ki, özü ilə Asiyanın dərinliklərindən Uzaq Şərqə (Çin) gətirilmiş təsirlərin danılmaz izləridir. Orta Asiyadan keçid ilə bir çox Türküstan ünsürləri əldə edilmişdir. 1925-ci ildə Köhnə Krım (Solhat) abidələrinin tədqiqatı ilə əlaqədar elmi ekspedisiya keçirilmişdir. XII əsrin II yarısı və XIV əsrdə Solhat böyük iqtisadi və mədəni mərkəz olmuşdur. Bura karvanlarla müxtəlif Şərq ölkələrindən məhsullar gətirilirdi, bir çox dildə danışılırdı, iri ticarət əməliyyatları həyata keçirilirdi və dövrün birja oyunları aparılırdı.

Qədim mənbələrə əsasən, yəhərlənmiş atla yalnız yarım günə qət edilməsi mümkün olan tatar şəhərləri həm Kiçik Asiya, həm Misir, Türküstan, hətta uzaq Hindistanla da ticarət əlaqələri qurmuşlar. Solhat şəhəri iqtisadi durumu ilə yanaşı böyük mədəniyyət, o cümlədən təhsil və incəsənət mərkəzi olmuşdur. Şəhər boyu ustalıqla, bəzən xüsusi olaraq sənətkarların dəvət ilə inşa olunmuş çoxsaylı məscid, mədrəsə, türbə, saray yerləşir. Ekspedisiyamız külli miqdarda xüsusi maraq doğuran abidə aşkar etmişdir: xronoloji olaraq tarixi qeyd olunmuş və maraq doğuran ornamentlərlə bəzədilmiş əzəmətli məzar daşları (70-dən çox). Diqqət çəkən məzar daşlarından biri 1309-cu ilə – indiyədək Krımda inşa edilmiş ən qədim tatar abidəsi sayılan Özbək məscidindən də əvvəlki dövrə aiddir.

Digər məzar daşlarının ornamentləri isə Misir və səlcuq türklərinin təsirindən xəbər verir. Külli miqdarda aşkarlanmış sikkələr qiymətli və olduqca əhəmiyyətlidir; əksəriyyəti XIV əsrin əvvəllərinə aid edilsə də, arasında XIII əsrin sonlarına aid olunanlar da var. Xaricdən gətirilmişlərlə yanaşı, köhnə Krımda döyülmüş sikkələr də tapılmışdır.

* * *

**Borozdinə görə,** SSRİ-də türk xalqlarının tarixi hələ də yetərincə araşdırılmayıb və mövcud tədqiqatlar bu sahəni tam əhatə etmir. Onun fikrincə, tatar dövrü əvvəlki bulqar-türk irsinin üzərində formalaşmış davamlı inkişafın bir mərhələsidir. Monqol yürüşləri nəticəsində meydana gəlmiş “tatar mədəniyyəti” Çindən Avropaya qədər uzanan geniş coğrafiyada formalaşaraq SSRİ ərazisində böyük Şərq – tatar sivilizasiyasının yaranmasına səbəb olmuşdur. Borozdin Monqol imperiyasının dünya tarixinə təsirini xüsusilə vurğulayır və bu mədəniyyəti Çin, Orta Asiya və Türküstan elementlərini özündə birləşdirən geniş miqyaslı sintez kimi təqdim edir.

Oktyabr inqilabından sonra Ballod apardığı arxeoloji qazıntılarla Köhnə və Yeni Sarayın inkişaf etmiş Şərq şəhərləri olduğunu ortaya qoymuşdur. Arxeoloji təbəqələrdə “tatar vəhşiliyi”nə dair heç bir iz yoxdur; əksinə, şəhərsalma və memarlıq yüksək səviyyədə olmuşdur. XII–XIV əsrlərdə Solhat böyük iqtisadi və mədəni mərkəz kimi fəaliyyət göstərirdi: şəhərdə çoxdilli əhali yaşayır, geniş ticarət əlaqələri qurulur, sənətkarların xüsusi dəvəti ilə mədrəsə, məscid, saray və türbələr kimi memarlıq nümunələri inşa edilirdi.

**Borozdin qeyd edir ki,** ekspedisiya nəticəsində 70-dən çox ornamentli və tarixləndirilmiş məzar daşı aşkar olunmuşdur. Onların ən qədimlərindən biri 1309-cu ilə aiddir və Özbək məscidindən də əvvəlki dövrə təsadüf edir. Tapıntıların ornamentləri Misir və Səlcuq təsirlərindən xəbər verir. Bundan başqa, çoxsaylı sikkələr üzə çıxarılmışdır; əsasən XIV əsrin əvvəllərinə aid olsa da, XIII əsrin sonlarına gedib çıxan nümunələr də mövcuddur. Sikkələrin müəyyən hissəsi yerli Krım zərbxanalarında döyülmüşdür.

Göründüyü kimi, **məruzənin əsas ideoloji xətti, çar dövrü və bəzi rus tarixşünaslığında formalaşmış “tatarların geri qalmış və vəhşi xalq” obrazını dağıtmaqdır.** Arxeoloji məlumatlar, xüsusilə Saray və Solhat tapıntıları Qızıl Orda dövrünün ibtidai deyil, yüksək inkişaf etmiş şəhər mədəniyyətinə malik olduğunu sübut edir. Keramika nümunələri, memarlıq abidələri, ornamentli məzar daşları və sikkələr tatar mədəniyyətinin geniş əlaqələrini, sənətkarlığın və ticarətin gücünü göstərir. Beləliklə, tatar mədəniyyəti inkişaf etmiş, şəhərsalma ənənələri güclü, müxtəlif təsirləri özündə cəmləşdirən bir sivilizasiya kimi təqdim olunur; Qızıl Orda dövrü “qaranlıq əsr” deyil, əksinə, iqtisadi və mədəni çiçəklənmə mərhələsidir. Bu mədəniyyət həm bulqar irsini, həm monqol, Çin və Səlcuq sintezini, həm də ümumşərq təsirlərini özündə birləşdirir.

*Lakin Borozdinin mövqeyi bəzi məqamlarda mübahisəlidir: o, “tatar mədəniyyəti” anlayışını, demək olar ki, tam şəkildə monqol təsiri ilə eyniləşdirməklə bulqar irsinin müstəqilliyini kölgədə qoyur. Həmçinin Borozdin məruzəsində sovet ideologiyasına uyğun olan “Qızıl Orda – inkişaf etmiş Şərq şəhərləri” tezisini bəzən həddindən artıq idealizə edir. Buna baxmayaraq,* ***onun məruzəsi qurultayda türk xalqlarının tarixi üçün sovet akademik mühitində yeni elmi legitimlik yaradan əhəmiyyətli çıxışlardan biri idi .***

**Qubaydullin “Türk-tatar xalqlarında tarixi ədəbiyyatın inkişafı”** mövzusunda məruzə edir. O, yalnız sovet türkləri tərəfindən yazılmış türk-tatar xalqlarının tarixinə dair və bir qədər Qərbi Avropadakı tarix elminin təsiri ilə yazılmış əsərlərə toxunur. Hətta XIX əsrdə Rusiyadakı türk tayfaları arasında Qərb mənbələrindən istifadə etməyən, əsər və memuarlarını keçmiş Şərq ənənələrini təqlid edərək yazan tarixçilərin olduğunu qeyd etməyi vacib bilir. Misal olaraq, Lətif Əfəndinin Qazis (Əziz) Qubaydullin “Şəki xanlığının tarixi”, Hüseyn Əmirxaninin “Bolqar və Kazan tarixi” və bir çox özbək əsərlərinin adlarını çəkir. Beləliklə, köhnə ərəb-fars ənənələrinin təsiri ilə yanaşı, rus və Avropa mənbələrindən, tarixi əsərlərdən istifadə etmiş Bakıxanov, Mərcani, Murad Məkki kimi tarixçilərin adlarını xüsusi vurğulayır.

Qubaydullin qeyd edir ki, Avropa və rus tarixçilərinin təsiri ilə Rusiyadakı türklər tərəfindən tarix əsərlərinin yazılması onların dirçəlişi ilə əlaqədar olmuşdur, bu, ilk növbədə, kapitalizmin inkişaf etdiyi və milli burjuaziyanın hakim olduğu türk tayfaları arasında başlanmışdı. Volqaboyu yaşayan tatarlar bu qəbildən olan xalqdır ki, qədim ticarət yolu və rusların vasitəsilə erkən Avropa mədəniyyəti ilə tanış olmuşdular. Bu baxımdan, XIX əsrin əvvəllərində meydana çıxmış ilk tarixçi tatar İbrahim Xəlfin 1822-ci ildə “Çingizxanın və Topal Teymurun həyatı” adlı imzasız tarixi hekayətlər toplusunu nəşr etdirmişdir. O, həmin topluya olduqca maraqlı bir Müqəddimə yazmış, məhvolmağa doğru gedən tarixi əlyazmaları və xalq ədəbiyyatı nümunələrini əlavə etməklə tatar xalqına çağırış etmişdir. Bu səpkidə, 1824-cü ilin əvvəllərində məşhur şərqşünas, professor Frenin elmi rəhbərliyi ilə Əbdülqazi Bahadur Xanın “Türklərin nəsil–şəcərəsi” adlı əsəri nəşr olunmuşdur.

**Qubaydullin məruzəsinə davam edir:** *“Beləliklə, biz təqribən 1860-cı illərə qədər tatar dünyasının tarixi məfkurəsində bir durğunluq olduğunu anlayırıq. Fəqət 1840-cı illərdə Rusiyadakı türklər arasında digər məşhur insan – fars və rus dillərində Zaqafqaziya tarixinə dair “Gülüstan-i İrəm” adlı əsərin müəllifi Abbasqulu Ağa Bakıxanov yaşayıb-yaratmışdır. “Gülüstan-i İrəm”in müəllifi digər türk tarixçiləri ilə, məsələn, tatar Mərcani ilə müqayisədə tam bir avropalıdır, onun düşüncə tərzi bizə rus və Avropa tarixçilərini xatırladır”.*

O, məruzəsində Kazanda şərqşünas Dorn tərəfindən müxtəlif Şərq dillərində, o cümlədən türk-tatar dilində nəşr olunmuş kitabların tərtib edilmiş siyahısı barədə məlumat verir: “O dövrdə “Qurani-Kərim”in, şablon şəkildə dua və tilsim kitablarının daha çox nəşr edildiyi aydın olur. Həmin siyahıda az-çox elmi mahiyyət daşıyan, orijinal əsərlər məhdud saydadır”.

Qubaydullin qeyd edir ki, Qərbi Avropa tarixi bizə bütün xalqların belə anlarda kökə qayıdış, dirçəliş marağının daha da artdığını göstərir. Ş.Mərcaninin timsalında belə bir hadisənin Volqaboyu tatarlarının həyatında baş verdiyini görürük. Mərcani müsəlman dünyasında islahatçı və ilahiyyatçı kimi tanınsa da, tarix nəzəriyyəsi, islam tarixi, Orta Asiya, xüsusən Qərbi Avropa türk-tatarlarının tarixi sahəsində az əmək sərf etməmişdir. Qeyd edim ki, Mərcani yaşayıb-yaratdığı dövrdə daha bir tatar maarifçisi, dünyəvi insan, ensiklopedist və pedaqoq Qəyyum Nəsiri müstəqil şəkildə fəaliyyət göstərirdi. Onun ən mühüm və geniş tədqiqat əsəri “Vəfayatül-əslaf” hələ nəşr olunmasa da, rus elm dünyası onu kifayət qədər yüksək qiymətləndirmişdir. Mərcani öz möhtəşəm əsərlərini yazarkən tatar maarifçisi, ensiklopedist və pedaqoq Qəyyum Nəsiri ona kömək etmişdir.

Daha sonra o, məruzəsində Nəsiri haqqında məlumat verir: “O, ixtisasca tarixçi deyildi; dilçi və etnoqraf idi, lakin ensiklopedist kimi hərdən tarixi mövzularda da yazırdı. Volqaboyu tatarların tarixini yazarkən ən böyük xidməti həmin xalqın tarixini sistematik, yaxud ayrı-ayrı monoqrafik əsərlər ilə deyil, tarixi sənəd və faktlar toplamasında olmuşdur. Birincisi, bu cür materialları o, hər il tatar dilində nəşr etdirdiyi masaüstü təqvimlərə yerləşdirirdi. Həmçinin tatar xalq mahnılarını, məişət əşyalarının (məsələn, geyim, baş örtüyü və s.) tarixinə dair yazıları və ən əsası, rəğbət bəsləmədiyi Mərcaniyə qarşı yazdığı tənqidi məqalələri dərc edirdi”.

Qubaydullin qeyd edir ki, təkcə Qaspıralı 1881-ci ildə yazdığı “Rus müsəlmanlığı haqqında” adlı publisistik əsərində aydın olmayan, ziddiyyətli fikirlərini tarixi faktlarla əsaslandırmağa çalışmışdır: “500 il əvvəl Kulikovo döyüşündə tarixi hökm ilə şimal və şərq müsəlmanlıqlarının, xüsusilə türk-tatar tayfalarının rusların tabeliyinə keçmə məsələsi həll olunmuşdu. Əsrlərin sınağından çıxan mübariz rus ruhu, nəhayət ki, tatarların təhlükəli və özlərinəməxsus hakimiyyətinə son qoymuşdur və həmin andan etibarən rus gücü və hakimiyyəti Tatarıstanın mərkəzinə doğru irəliləmişdir. Vaxtilə vahid və yenilməz türk-tatar tayfalarının indi şaxələnmiş budaqları tədricən, hissə-hissə Rusiya hakimiyyətinə tabe olmuş və onun ayrılmaz, tərkib hissəsinə çevrilmişdir.

Beləliklə, bir-birinin ardınca Ryazan, Kazan, Həştərxan, Sibir, Krım, daha sonra Zaqafqaziya xanlıqları və son dövrlərdə bir sıra Orta Asiya xanlıqları tarixi zərurət nəticəsində Rusiya imperiyasının tərkibinə daxil olmuşdur; düşünürük ki, müvəqqəti fasilələrə baxmayaraq, Asiyada türk-tatar tayfalarının məskunlaşdığı ən son ərazi də gec-tez Rusiya sərhədlərini birləşdirəcək”.

Qubaydullin XIX əsrin sonu XX əsrin əvvəllərində şimalda, yenə də Volqaboyu tatarlarının arasında tarix sahəsi üzrə çalışan iki şəxsin: Kazan Universitetinin nəzdində yaradılmış Arxeologiya və Tarix Cəmiyyətində tarix-etnoqrafiya mövzusunda (məsələn, bolqar məzar daşları) məruzə oxuyan Aynüddin Əhmərov və tatar-başqırd tarixçisi Riza Faxruddinovun adlarını çəkir. O qeyd edir ki, türk-tatar nəşrinə daha ağır təsir göstərən senzuranın mövcud olduğu bir şəraitdə nəinki tarixi əsər, ümumiyyətlə, ədəbiyyatın inkişafından danışmaq olmazdı. Məsələn, XIX əsrin II yarısında Sibirdə çıxan ilk qazax qəzeti tezliklə fəaliyyətini dayandırmağa məcbur olmuşdur. Səbəb German Vamberinin “Türk-tatar mədəniyyətinin ibtidai mədəniyyəti” adlı əsər üçün yazdığı Giriş hissəsinin tərcüməsinin nəşri idi; 90-cı illərdə “Qurani-Kərim”dən götürülmüş surə və ayələrin nəşrinə çox çətinliklə icazə verilirdi.

“Azadlığın” ilk illərində islah edilmiş mədrəsələrdə tarix dərsləri tədris olunmağa başlanmışdı. Hətta ziyalı təbəqənin bir qismi faktla deyil, tarixin fəlsəfəsi və metodologiyası ilə maraqlanırdı, məhz bu səbəbdən 1906-cı ildə Yusuf Akçurinin “Tarix və elm” adlı broşürü, Aynüddin Əhmədovun tatar və bulqarların tarixinə dair tatar dilində silsilə felyetonları meydana çıxdı. Həmin vaxt Kazanda bulqar tarixinə ciddi maraq yaranmışdı.

Əhmərov bulqar tarixinə dair öz mühazirələrində əsas diqqəti çuvaşizm nəzəriyyəsini təkzib etməyə yönəltmişdi. İnqilabdan sonrakı dövr şimalda təkcə tatarların deyil, ayrıca bir xalq olaraq başqırdların da tarixini öyrənməyə təkan verdi. Bu sahədə ilk kitabı Munir Hadi yazmışdı; əsər Ural bölgəsi və başqırd nağılları haqqında idi.

Qubaydullin məruzəsində digər ciddi bir məsələyə toxunur: **“Rusiyada elmi xarakter daşıyan: “Biz kimik: türk, yoxsa tatar?”–** sualı ciddi mübahisəyə səbəb olmuşdu. Türk-tatar xalqlarının tarixi tədris fənninə çevrilmişdi və türk-tatar tarixinə dair dərsliklər nəşr olunmağa başlanmışdı. Dərslik tərtibçiləri eyni zamanda 2 iş görməli idilər:

1. Türk, yaxud tatarların sistemli tarixini yaratmaq.
2. Pərakəndə, dağınıq, yaxud çap olunmamış faktiki materialları toplamaq.

Bu səbəbdən dərslik tərtib edən tarixçilərin qarşısında böyük və çətin iş dururdu, onlar xüsusi təlimat kursu və Avropasayağı hazırlıq keçməmişdilər. Tatar tarixi üzrə ilk dərslik tərtibçisi Troitsk şəhərində islah edilmiş mədrəsə müəllimi, eyni zamanda milli-demokratik yönlü məşhur jurnalist Əbdülbari Battalov olmuşdu. O, 1909-cu ildə “Tatarların tarixi” adlı kifayət qədər həcmli bir kitab nəşr etdirmişdi. Kitabın adından göründüyü kimi, Battalov “tatarizm” uğrunda mübarizə aparan gənclərdəndir. O, ilk əsərini nəşr edərkən Privoljsk tatarlarının sistemli tarixini yaratmağı qarşısına məqsəd qoymuşdur. Bu baxımdan, Battalovun yazdığı tarix xəzərlər ilə başlayır, ardınca Privoljsk bulqarları, daha sonra Qızıl Orda tatarlarının, Kazan xanlığının tarixini yazmış, səthi şəkildə Noqay Orda və Həştərxan tarixinə toxunmuşdur. Məlum olur ki, Battalov Mərcani sistemini qəbul etmişdir. Qeyd etməliyik ki, Battalov II nəşrdə bir qədər dəyişiklik edərək, kitaba Giriş, türk xalqları haqqında ümumi məlumat, ümumiyyətlə hunlar, tukiylər, qismən uyğurlar barədə əlavə materiallar daxil etmişdir.

Qubaydullin məruzəsində həmin dövrdə (1912-ci il) tarixçi Zəki Validinin, kifayət qədər ciddi əsər olan, “Türklərin və tatarların tarixi” adlı ilk kitabının nəşri barədə danışır: *“Bu kitab nəinki Rusiyanın, dünya alimlərinin dərhal diqqətini çəkmişdi. Validinin əsəri nəzərəçarpacaq dərəcədə tatar tarixinə dair yazılıb. Bu baxımdan o, türk-tatar tarixini mərhələlərə bölür:*

*– Qədim dövr türkləri;*
*– Türklər və islam;*
*– Hakimiyyət və ya monqol hakimiyyəti altında xanlıqlar;*
*– Qızıl Orda;*
*– Tatar istilasından sonra bulqarlar;*
*– Kazan xanlığı*

*I cild bitir. II cild isə nəşr olunmamışdır”.*

O, həmçinin I Dünya müharibəsindən sonra İbn Bətutun “Dəşti Qıpçaq səyahəti” əsərinin tatar dilinə tərcüməsini çap etdirmək mümkün olduğunu da iştirakçıların diqqətinə çatdırır və ardıcıl şəkildə tarixçilərin işinə dair fikir bildirir: “Tarixçilər üçün yeni meydan açılmışdı – təkcə tatarlar deyil, digər türk xalqları da kökə qayıdış sualı ilə üzüzə qaldıqları üçün öz tarixlərini öyrənməli idilər. Bu ehtiyacdan doğan tarixi ekskurs və ya sırf tarixi mövzularda məqalələr özbək, Azərbaycan, Krım qəzetlərinin səhifələrində yer almışdı. Əminliklə demək olar ki, Arslan Kriçinskinin “Ucqarlarda rus siyasətinin tarixinə dair materiallar” və Dutovun Orenburq vilayətində hakimiyyəti dövründə Tuyq qardaşları tərəfindən yazılmış “Türk-tatar tarixi” adlı əsərlər istisna olmaqla, sanballı tarixi əsər çap olunmamışdı.

İlk olaraq Azərbaycan türklərinin əsərləri üzərində dayanacağıq. Çar hakimiyyətinin istilası, dini fanatizm və öz xalqını əzməkdən başqa heç nə bilməyən ruslaşma, ya da bəyzadəlik tarix elmini Bakıxanov, Lətif Əfəndi və b. istisna olmaqla, inkişafdan kənar qoymuşdu. Kazan Universitetinin Şərqşünaslıq fakültəsinin professoru, böyük alim Mirzə Kazımbəy türk dilinin elmi qrammatikasını yazmış və tarixçi Əhməd Rizanın “Yeddi planet” adlı kitabını çap etdirmiş olsa da, əməyi sayəsində vətəni Azərbaycanda hörmət və dəstək görməmişdir. O vətənini və xalqını tərk etməyə məcbur olmuşdur. Lakin Azərbaycandakı sovet çevrilişi “tatar” və “müsəlman” adlanan xalq öz “türk” adını almaqla tarixi ədəbiyyatın inkişafına təkan verdi”.

Qubaydullin məruzəsində Rəşid İsmayılovun gördüyü işlər barədə də məlumat verir: “1923-cü ildə Rəşid İsmayılov tərəfindən “Azərbaycan tarixi” kitabı nəşr olunmuşdu. Əsər bu diyarın tarixində ilk cəhd olduğu üçün gözəçarpan qüsurları var. Belə ki, indiyədək bu respublikanın tarixinə dair nə türk, nə də rus dilində əsər var. Tarixi hadisələrə materialist yanaşma və müəyyən ideoloji meyillilik İsmayılovun əsərlərinin xarakterik xüsusiyyətlərindəndir. Əsərdə Azərbaycan tarixi siyasi və xronoloji prinsiplərə görə mərhələlərə bölünür:

1. Ən qədim dövr
2. Ərəb xilafəti dövrü
3. Monqol-türklərin Azərbaycana basqını
4. Şirvanşahlar dövü
5. Osmanlı türklərin dövrü
6. İran hakimiyyəti dövrü (Səfəvilər)
7. Nadirin işğalı
8. Ağa Məhəmməd şah Qacarın hakimiyyəti dövrü
9. Azərbaycan xanlıqlarının hakimiyyəti dövrü
10. Çar Rusiyasının hücumu
11. II Yekaterinanın Azərbaycanda zəfəri
12. I Pavel dövründə Qafqazın vəziyyəti
13. I Aleksandr dövründə ölkənin vəziyyəti
14. Gəncə, Qarabağ, Şirvan və Bakı xanlıqlarının süqutu
15. Zaqafqaziyada müstəqilliyin elan olunması
16. Azərbaycan Respublikası

Həm ideoloji, həm də elmi baxımdan müəyyən çatışmazlıqların olmasına baxmayaraq, bu kitabın mühüm bir üstünlüyü var: türk-tatar dünyasında heç bir tarixçi son dövrü əks etdirməmişdir. Hətta tatar tarixçilərinin əksəriyyəti öz tarixlərini xanlıqların süqutuna qədər olan dövrə kimi qeyd etmişlər”.

Qubaydullin G.Vamberinin “Buxara tarixi” adlı əsərinin özbək dilinə tərcüməsinin, V.V.Bartoldun “Türküstan monqol istilası dövründə”, Tınışbayevin “Qırğız-qazax xalqlarının tarixinə dair materiallar”, Krım tarixçisi Osman Akçurinin “Krım tatar damğaları”, Əbdürrəhman Sədinin “Dil, ədəbiyyat və yazı”, Riza-Qazi Əbdürrəhman Faxraddunovun “Başqırdların tarixi”, “Çuvaşların mənşəyi” və s. əsərlərin, eləcə də tatar tarixinin öyrənilməsində Camal Vəlidi, Qalimcan İbrahimov, Asim Mənsurov, Salah Atnaqulov, Fatih Seyfi, Əli Rəhim, Seyid Zahidov və başqa xadimlərin adlarını çəkir.

* * *

Qubaydullin Sovet İttifaqındakı türklər tərəfindən yazılmış tarixi əsərləri və Qərbi Avropa təsiri altında meydana gəlmiş tədqiqatlar barədə qənaətlərini məruzə edir. O, qeyd edir ki, XIX əsrdə bir çox türk tarixçiləri Şərq ənənəsinə bağlı olduqları üçün, əsasən, ərəb-fars tarixi yazı üslubunu təqlid edir, Qərb elmi metodlarına üstünlük vermirlər. Bu göstərici türk-tatar tarixçiliyinin Avropa metodologiyasından çox gec xəbər tutmalarını göstərir. “Çingizxanın və Topal Teymurun həyatı” adlı imzasız tarixi hekayətlər toplusu, professor Frenin elmi rəhbərliyi ilə Əbdülqazı Bahadur Xanın “Türklərin nəsil ağacı” adlı əsəri nəşr olunmuşdur.

Deyilənlərə əsasən, tatar dünyasının tarixi məfkurəsində bir durğunluq olduğunu görürük. Qubaydullin Abbasqulu ağa Bakıxanov və Mərcaninin tarixşünaslıqda dirçəliş yaratdıqlarını qeyd edir; Bakıxanovu digər türk tarixçiləri ilə müqayisədə “tam avropalı” düşüncə tərzinə malik şəxsiyyət adlandırır və səbəb olaraq rus və Avropa tarixçiləri ilə eyni intellektual mühitdən təsirləndiyini göstərir.

Qubaydullin Şihabəddin Mərcaninin tarix nəzəriyyəsinə, islam tarixinə, Orta Asiya və Volqaboyu türk-tatarlarının tarixinə böyük töhfələr verdiyini deyir, Nəsirini “fakt toplayan, sənəd yaradan”, Mərcanini isə “tarixi konsepsiya quran” şəxs adlandırır.

Qubaydullinin Qaspıralının “Rus müsəlmanlığı haqqında” əsəri barədə fikirləri tarixi konsepsiya formalaşdırır: Kulikovo döyüşü “tarixi dönüş nöqtəsi”dir; türk-tatar tayfalarının Rusiya hakimiyyətinə keçməsi tarixi zərurətdir; Rusiya imperiyasının genişlənməsi qaçılmaz prosesdir. Ancaq bu təqdimat mətninin alt qatında sovet dövrünə uyğun Rusiya ilə inteqrasiyanın obyektivliyi” fikri hiss olunur.

XIX əsrin sonu – XX əsrin əvvəllərində türkologiyanın və tarixçiliyin ideoloji cəhətdən boğulduğu bir mühitdə türk-tatar tarixçiliyi Avropa elmi metoduna 3 mərhələdə yaxınlaşdığını müşahidə edirik: Ənənəvi ərəb-fars üslubu – memarlıq ənənəsi (Lətif Əfəndi, Əmirxani); maarifçi-elmi dövr (1820–1860); Xəlfin, Əbdülqazi Bahadur xan mətnlərinin elmi nəşri. Bu mərhələlərə əsasən sistemləşdirsək:

Modern tarixçilik (1860-dan sonra);
– Bakıxanov – Avropa metodologiyası;
– Mərcani – tarix nəzəriyyəsi;
– Nəsiri – mənbə və istinad bazası;
– Qaspıralı – siyasi tarix konsepsiyası;
– Faxruddinov, Əhmərov – arxeologiya-etnoqrafiya.

1905-ci il inqilabından sonra nisbətən azad ictimai mühit yaranmışdır. Bu dövrdə mədrəsələrdə modern dərsliklər tətbiq olunur, tarix artıq yalnız faktların öyrədildiyi fənn deyil, fəlsəfi-metodoloji mövzuya çevrilmişdir. Bu baxımdan, Akçurinin “Tarix və elm” əsəri milli-ideoloji mühitdə dönüş yaratmışdır. Bu, türk-tatar ziyalılarının öz keçmişini sistemləşdirməyə başlaması üçün təkan idi.

Kazan bölgəsində bulqar tarixinə xüsusi maraq yaranmışdır. Aynüddin Əhmərovun əsas hədəfi “çuvaşizm nəzəriyyəsini təkzib etmək idi. Bu mübarizədə tatarların tarixi legitimliyinin qorunması etnogenez mübahisələrə elmi cavab vermək məqsədi daşıyır. İnqilabdan sonra başqırd tarixinin öyrənilməsi də yeni bir istiqamət almışdı və Munir Hadinin kitabı bu sahədə nümunə olmuşdu. Bütün bunlar göstərir ki, imperiya çərçivəsində assimilyasiyaya uğrayan etnoslar öz tarixlərini yenidən yazmağa başlamışlar. “Biz kimik: türk, yoxsa tatar?” − kimlik böhranı o dövrün ən mühüm ideoloji debatıdır. Kimlik müzakirəsi tarixi yaddaşa yönləndirən əsas faktorlardan biridir...

Türk-tatar xalqlarının tarixi tədris fənninə çevrilmişdi və türk-tatar tarixinə dair dərsliklər nəşr olunmağa başlanmışdı. Bu baxımdan, dərslik tərtibçiləri qarşısında 2 iş vardı: əsas sistemli bir tarix yazmaq və dağınıq faktik materialları toplamaq. Lakin əksəriyyətin Avropa təhsilli və Qərb metodologiyasından xəbərsiz olması səbəbindən problemlər yaranmışdı. Nəticə etibarilə, tatar tarixçiliyi başlanğıcda passioner, ideoloji və bəzən zəif sistemləşdirilmiş xarakter almışdı. Əbdülbari Battalovun 1909-cu ildə nəşr olunan ilk geniş “Tatarların tarixi” bu sahədə cəsarətli addım idi. Battalovun yazdığı tarix xəzərlərlə başlayır – bu, Mərcani sisteminin davamıdır: Privoljsk bulqarları → Qızıl Orda → Kazan → Noqay → Həştərxan xətti izlənir; II nəşrdə hunlar, uyğurlar barədə əlavə materiallar daxil etmişdir. Artıq bu əsər təkcə regional deyil, ümumtürk tarixi kontekstini özündə birləşdirən ilk nümunələrdən biridir.

Zəki Vəlidi Toğanın da 1912-ci ildə nəşr olunan “Türklərin və tatarların tarixi” adlı əsəri dünya elmində rezonans yaratmışdır. Strukturu sağlamdır: qədim türklər, türklər və islam, Monqol dövrü, Qızıl Orda, bulqarlar, Kazan xanlığı. İbn Bətutənin “Dəşti Qıpçaq” əsərinin tərcüməsi tatar tarixçilərinə orta əsr mənbələri, eləcə də etnos, adət, idarəetmə haqqında orijinal təsvir verə bilmişdi. Bununla yanaşı, digər türk xalqlarında da “tarixə qayıdış” hərəkatı başlamışdı; Azərbaycan, özbək, Krım mətbuatında tarixi mövzulu yazılar çoxalmışdı.

Bütün türk xalqları kimlik böhranını aradan qaldırmaq üçün tarixə müraciət edir. 1923-cü ildə Rəşid İsmayılovun “Azərbaycan tarixi” kitabı bu sahədə olduğuna və mənbə çatışmazlığına görə qüsurlu olsa da, çox mühüm üstünlükləri var. Məsələn, Çar dövründən başlamış 1918-ci il müstəqilliyinə kimi – Azərbaycanın ən yeni dövrünün tarixini də yazmışdır. Tatar tarixçiləri isə tarixi adətən xanlıqların süqutu ilə bitirirlər.

Bu məruzədə adları çəkilənlər türk tarixşünaslığının təməlini qoyanlardır: Bartold, Vamberi, Tınışbayev, Akçurin, Əbdürrəhman Sədi, Faxraddunov, Validov, Qalimcan İbrahimov və b. 1905–1930-cu illər türk-tatar tarixşünaslığının doğuluş dövrüdür. Bu dövrdə milli kimlik axtarışı, mədrəsə islahatı, ilk sistemli tarix kitabları, Qərb metodologiyasına keçid, periodizasiya cəhdləri paralel şəkildə formalaşmışdır.

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

*Qayıdışın addımları*

# Azad Xankəndi "Qış nağılı"na hazırlaşır

## *Şəhərdə rəngarəng bayram şənlikləri keçiriləcək*

**Daha bir il qazandığımız uğurlarla, ümidli arzularla başa çatmaqda, tarixə çevrilməkdədir. Artıq ölkəmizin hər yerində 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramına hazırlıqlar başlayıb. Azadlığın bəxş etdiyi qürurla, vüqarla cilvələnən Xankəndi şəhəri də bayram libası geyinir, yeni il əhval-ruhiyyəsinə bürünür.**

Tezliklə Qarabağımızın bu gözəl guşəsində növbəti "Qış nağılı" başlayacaq. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə sayca 2-ci dəfə keçiriləcək "Qış nağılı" adlı bayram yarmarkası şəhərin Zəfər meydanında dekabrın 27-də açılacaq, yanvarın 5-dək davam edəcək. Yarmarkaya Xankəndidə fəaliyyət göstərən bir çox müəssisə və şirkətlər qatılacaq. Burada, həmçinin artıq öz ata-baba yurdlarına qayıtmış fərdi şəxslər tərəfindən də məhsullar satışa çıxarılacaq.





Hazırda "Qış nağılı"na hazırlıq işləri sürətlə davam etdirilir. Yarmarkanın keçirildiyi ərazidə quraşdırılan rəngarəng işıq effektləri, bir-birindən maraqlı stendlər, əyləncə attraksionları bu məkanı daha da cazibədar edəcək, bura axışan insanlar sanki nağıllarda olduğu kimi, sehrli aləmə düşəcəklər.

Bayram tədbirləri bununla yekunlaşmayacaq. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən xəbərə görə, dekabrın 29-da maraqlı konsert proqramı təqdim olunacaq, 2025-ci illə isə Xankəndi möhtəşəm atəşfəşanlıqla vidalaşacaq. Artıq şəhərin hər yerində sürətlə bayrama hazırlıqlar gedir. Zəfər meydanda şam ağacı qurulub, küçələr, parklar Yeni il atributları ilə bəzədilib. Bir sözlə, Xankəndi şəhəri doğma sakinlərini və qonaqlarını unudulmaz bayram ab-havası ilə sevindirməyə, onlara yaddaqalan anlar bəxş etməyə hazırlaşır.

Şəhərdə görülən işlər, Xankəndinin gözəlləşən siması burada yaşayan, işləyən insanlarda da sonsuz qürur və fəxarət hissi yaradır. Üçrəngli bayraqlarımızın dalğalandığı, yolka və işıqlarla bəzədilmiş Pianino parkında həmsöhbət olduğumuz **75 yaşlı Vidadi Qasımov** dedi ki, illər sonra yenidən azad Xankəndidə bayramları qarşılamağa hazırlaşmaq möhtəşəm hissdir:

– Mən burada doğulub-böyümüşəm. Qarabağda erməni separatizmi baş qaldıranda doğma şəhərimi tərk etməyə məcbur oldum. Düzü, nə vaxtsa geri dönəcəyimə ümidim az idi. Çox şükür, ömür vəfa etdi, möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik siyasəti, qətiyyəti, sarsılmaz iradəsi sayəsində torpaqlarımızın işğaldan azad edilməsini gördüm, ata-baba yurduma qayıtmaq mənə də nəsib oldu. İndi fikirləşin ki, şəhərdə aparılan quruculuq işlərinin, bayram hazırlıqlarının şahidi olmaq məni necə xoşbəxt edir. Oğlumun işi ilə əlaqədar 8 aydır Xankəndidəyəm. Yaxında nəvələrim də bura gələcək, Yeni ili onlarla azad şəhərimdə qarşılayacağam. Mən yaşda insan üçün bundan gözəl, bundan şirin daha nə ola bilər?

Vidadi kişi qəzetimiz vasitəsilə bütün qarabağlıların hamısına tezliklə ata yurdlarına qayıtmağı arzuladı, xüsusilə gənclərin işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirilən bərpa-quruculuq işlərində həvəslə iştirak etmələrini, bu azadlığın qədrini-qiymətini bilmələrini dilədi.

Oğlunun işi ilə əlaqədar ilyarımdır Xankəndidə yaşayan **Arifə İsmayılova** da burada Yeni ili qarşılamağa hazırlaşmağın insana çox möhtəşəm duyğular bəxş etdiyini bildirdi:

– Nə vaxtsa Qarabağa qayıtmaq ən böyük arzumuz olub. İndi fəxr edirəm, qürur duyuram ki, doğulduğum doğma Ağdərəm də, Ağdamımız, Xocalımız, Şuşamız, bir sözlə, bütün işğal altındakı torpaqlarımız da azad edilib. Xankəndinin gündən-günə gözəlləşməsi bizi çox sevindirir. Görülən işlərə baxdıqca, insanın ürəyi açılır. Allah bizə bu günləri nəsib edən şəhidlərimizə rəhmət eləsin! Allah Prezidentimizi qorusun, ordumuzu hər zaman müzəffər etsin!

Xankəndinin gündüzləri, Arifə xanımın dediyi kimi, daha ürəkaçan, rəngbərəng işıqlara qərq olmuş gecələri daha ecazkardır. Odur ki, qarşıdan gələn 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili bu tarixi şəhərimizdə qarşılamaq hamımız üçün əlçatan arzuya çevrilməlidir. Axı Xankəndi həm də çox qonaqpərvərdir...

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

**Üç il əvvəl Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının inzibati binası ilə tanışlıq zamanı ziyalılarla görüşündə gənclərə üz tutaraq deyib ki, biz öz tariximizi bilməli və ondan ibrət almalıyıq. Bu baxımdan Balakən rayonu A.Səhhət adına Hənifə kənd tam orta ümumtəhsil məktəbində "Qərbi Azərbaycanın tarixi ümumi tariximizin tərkib hissəsidir" mövzusu üzrə açıq dərsin keçirilməsi təqdirəlayiqdir.**

# Balakəndə Qərbi Azərbaycan dərsi



Açıq dərsə əslən Qərbi Azərbaycandan olan soydaşlarımız da qatılıblar. İcmanın Balakən rayon nümayəndəsi Yaşar Məmmədov, Amasiya rayonunun keçmiş sakinləri – hazırda Hənifə kənd bələdiyyəsinin sədri olan Vətən Bayramov, eləcə də Qəribə Səfərli, Məlahət Alvasova, Qıztaman İbrahimova, Şakir Miskinov, Elza Axverdiyeva, Balakən rayon təhsil sektorunun müdiri Mehparə Murtuzəliyeva və başqalarının iştirakı açıq dərsi daha da faydalı və səmərəli edib.

Şagirdlərə dərsin məqsədi bildirilməklə gənc nəslin Qərbi Azərbaycanla bağlı həqiqətləri bilməsi, qədim yurd yerlərimizin tarixini, mədəniyyətini, adət-ənənələrini yaşatmalı olduğu zərurəti izah olundu. Sonra Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, Ali Attestasiya Komissiyası Filologiya və pedaqogika üzrə ekspert şurasının sədri, Yazıçılar Birliyinin üzvü, Əməkdar müəllim Mahirə Hüseynovanın iştirakçılara göndərdiyi təbrik məktubu oxundu. Bu kimi müzakirələrin Qərbi Ermənistan mövzusunun aktuallaşdırılması baxımından əhəmiyyətini yüksək dəyərləndirən Mahirə xanımın məktubunda Balakəndə təşkil olunan açıq dərsi intellektual insan kapitalının artması, azərbaycançılıq tarixinə, xalqın maddi və mənəvi sərvətlərinə təəssübkeş münasibət nümunəsi olduğunu vurğulaması diqqətə çatdırıldı.

Təbrik məktubundakı bu sətirlər maraqla qarşılandı: "Əminəm ki, bu dərs gəncliyimizin Qərbi Azərbaycan mədəni irsinə sahiblənməsinə, həmin tarixi torpaqlarımızda yaşamış soydaşlarımızın qayıdış arzularına, ümumilikdə elm, sənət, ədəbiyyat və incəsənətimizə marağına güclü impuls verəcək. Bugünkü orta məktəb şagirdlərinin sırasında gələcək tədqiqatçılarımızın olduğuna inanıram. Buna da inanıram ki, onlar erməniləşdirilmiş əzəli Azərbaycan torpaqlarının doğma coğrafi məkanımız kimi tədqiqinə yorulmaz səylər göstərəcəklər".

Dərsin gedişində "Ölkə başçısı İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütdüyü siyasət təkcə tarixi xatırlatma deyil, beynəlxalq hüquqa əsaslanan qayıdış konsepsiyasıdır" başlığı altında videoçarx, Qərbi Azərbaycanda olan mədəni-mənəvi irsimizə aid "Göy məscid", "Güzgülü məscid" " Sərdar məscidi"nin şəkillləri, Naxçıvanın Kəngərli rayonunun Çalxanqala kəndində məskunlaşan soydaşlarımızın həyat tərzi barədə videoçarx nümayiş etdirildi. Hətta bir şagird – Aydəniz Əhməyeva əvvəlcədən keçiriləcək mövzu ilə məlumatlandırıldığına görə Sərdar məscidinin şəklini və maketini hazırlamışdı. Əyani vasitələrlə zəngin olan dərsdə şagirdlər qonaqlara müxtəlif suallarla müraciət etdilər. Onlar da sualları cavablandırmaqla yanaşı, Qərbi Azərbaycanda yaşadıqları dövrlərlə bağlı xatirələrindən, yaşayış tərzindən, adət-ənənələrindən danışdılar.

Dərs prosesində "Mənim Qərbi Azərbaycanım" kitabından gətirilən sitatlar, istifadə edilən materiallar iştirakçıların kitaba olan marağını daha da artırdı.

İştirakçılar dərsin keçirilməsinin təşəbbüskarı olan Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvlərinə, təhsil tariximizə dəstək olan, pedaqoqların stolüstü kitabı olan "Mənim Qərbi Azərbaycanım"ın oxucu kütləsinə çatdırılmasında redaktor kimi fəaliyyətinə görə Mahirə xanıma, eləcə də buraxılışa məsul şəxs olan layihə meneceri Rövşən Ağayevə və kitabın ərsəyə gəlməsində zəhməti olan hər kəsə minnətdarlıqlarını bildirdilər.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Yurda döndük, imana gəldik!

## *Cəbrayıl rayonu Horovlu kəndinin sakinləri sevinclərini belə ifadə edirlər*

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir. Cəbrayıl rayonunun Horovlu kəndinə qayıdan sakinlər doğma yurduna sevinc göz yaşları ilə qayıdırlar.**

248 hektar ümumi sahəsi olan kənddə birinci mərhələdə 94 hektar ərazidə 334 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqla müasir kommunikasiya şəbəkəsi – su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib. Kənddaxili yollara asfalt döşənib.





İşğal dövründə dağıdılmış "Əsgər", "Şığı", "Orta", "Gülqasım" və "Xəlifə" kəhrizləri bərpa edilib. 4,4 hektar ərazidə park kompleksi inşa olunub. Bayraq meydanından bazar kompleksinə qədər gəzinti yolları salınıb. 3,1 hektar yaşıllıq ərazisində zeytun, çinar və Eldar şamı ağacları əkilib.

Doğma yurda qayıdan kənd sakinləri ilə həmsöhbət olduq. **Şəhid atası Hümbət Kəlbalıyev** bildirdi ki, sevincdən doğan qürur hissi mənə qol-budaq verir. Çünki kəndimizə qayıdan kimi köçkünlük dövründə qarşılaşdığım ağrıları bir anlığa unutdum və şəhid oğlumun ruhunun şad olduğunu bir daha hiss etdim. 1987-ci il oktyabrın 16-da Cəbrayıl rayonunun Horovlu kəndində anadan olan oğlum Səyavuş hərbçi olaraq torpaqlarımızın azad olunması uğrunda ağır döyüşlərdə iştirak edib. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi başa vurduqdan sonra o, xidmətini xüsusi hərbi hissədə davam etdirib. Kəşfiyyat rəisi olaraq bir çox ərazilərdə, eləcə də Cəbrayıl istiqamətində gedən döyüşlərdə vuruşub. Səyavuş 2020-ci ildə Cəbrayıl-Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün oğlum Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

4 otaqlı mənzillə təmin edilən şəhid atası söhbətin sonunda yaradılan şəraitdən də razılıq hissi ilə danışdı.

Kəndə öz istəyi ilə qayıdan **Nurlan Əhmədov** Beyləqan rayonu sakini olsa da bir hərbçi kimi azad olunan ərazilərdə yaşamaq istədiyinə toxundu:

- Vətən müharibəsində işğaldan azad olunan bir çox ərazilərdə döyüşərək III dərəcəli əlil olmuşam. Füzuli, Cəbrayıl, Laçın, Hadrut, Qubadlı rayonları ərazisində çoxsaylı döyüşlərdə iştirak etmişəm və 5 medalla təltif olunmuşam. Horovlu kəndi isə mənim üçün müqəddəs yerdir. Döyüşlərin qızğın vaxtında burada 7 saat mühasirədə qalmışıq. Ağır yaralardan sağaldıqdan sonra arzulayırdım ki, torpaqlarımız alınandan sonra bu kənddə yaşayım. Bu səbəbdən də müraciətimə müsbət cavab verildiyindən xeyli qürur hissi keçirdim. 4 otaqlı bütün şəraiti olan mənzillə təmin olunmuşam və 3-cü sinifdə oxuyan qızım hər səhər sevinc hissi ilə məktəbə gedir.

**Horovlu kənd orta məktəbinin direktoru Zamiq Həmzəyev söhbətə qoşularaq bildirdi:**

– Kəndimiz işğal olunanda 2-ci sinifdə oxuyurdum və bu günü böyük bir səbirsizliklə gözləyirdim. Ali təhsil aldıqdan sonra Biləsuvar rayonu ərazisindən olan Cəbrayıl qəsəbəsində müəllim və məktəb direktoru işləsəm də kəndə qayıtmaq arzusu ilə yaşayırdım. Hiss edirdim ki, atam kimi məktəbli uşaqlarım da buna böyük üstünlük verirlər. Atam kənddə dəfn etdiyi anasının məzarı üçün də bərk darıxırdı. Bu səbəbdən də kəndimizə gələn atam ilk öncə əzizlərinin məzarını ziyarət etdi.

Horovlu kəndinin həmsöhbət olduğum digər sakinləri də hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə etdilər.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Şəmkir yenə ölkənin "kartof birincisi"dir

**Dövlət Statistika Komitəsinin 2025-ci ilin yanvar-sentyabr aylarını əhatə edən son hesabatı Azərbaycanın kənd təsərrüfatında illərdir davam edən bir tendensiyanı yenidən təsdiqlədi: kartof istehsalında ölkənin lideri bu il də dəyişməyib. Şəmkir yenə birinci yerdədir. Rəqəmlər isə bunun təsadüf olmadığını açıq şəkildə göstərir.**



Rəsmi məlumata əsasən, 2025-ci ilin ilk doqquz ayında ölkə üzrə 903 min 22 ton kartof istehsal olunub. Bunun 191 min 414 tonu və ya 21,2 faizi Şəmkirin payına düşür. Sadə dillə desək, Azərbaycanda süfrəyə çıxan hər beş kiloqram kartofun bir kiloqramı məhz bu bölgədə yetişdirilib. Bu göstərici həm istehsal gücünün, həm də bölgədə uzun illər ərzində formalaşmış kənd təsərrüfatı ənənəsinin real nəticəsidir.

Şəmkir yalnız 2025-ci ildə yox, son üç ilin, 2023 və 2024-cü illərin göstəricilərinə əsasən də ölkənin kartofçuluq mərkəzi olub. Bu ardıcıllıq bölgədə təsərrüfatın inkişafının epizodik yox, sistemli şəkildə aparıldığını sübut edir. Hər mövsümdə torpaqdan yüksək məhsuldarlıq alınması, həm aqrotexniki tədbirlərin düzgün planlanmasını, həm də fermerlərin müasir yanaşmalara uyğunlaşmasını ortaya qoyur.

**Şəmkirli fermer Rauf Məmmədov** bölgədəki real vəziyyəti belə təsvir edir: "Şəmkir torpağı kartofçuluğa uyğun gəlir. Amma bu nəticə sırf torpağın işi deyil. Bizə güc verən düzgün planlama, müasir texnika və vaxtında görülən aqrotexniki tədbirlərdir. Məhsul həm çox olmalıdır, həm də keyfiyyətli."

Məmmədov bildirir ki, bu il məhsuldarlığı artırmaq üçün yeni suvarma sistemləri, yüksək məhsuldar toxumlar və müasir mexanizasiya vasitələri işə salınıb. Fermerlər həm də bazar tələblərini yaxından izləyərək məhsulun həm yerli, həm də ixrac standartlarına uyğun olmasına çalışırlar.

**Kənd təsərrüfatı üzrə mütəxəssis Aytac Qasımova** bölgənin üstünlüklərini izah edərkən bir neçə amili xüsusi vurğulayır. O, qeyd edir ki, iqlim şəraiti kartofçuluq üçün ideal mikrozonalar yaradır. Suvarma infrastrukturu digər rayonlarla müqayisədə daha inkişaf edib. Fermerlərin peşəkarlıq səviyyəsi yüksəkdir və bazar dəyişikliklərinə tez uyğunlaşırlar. Dövlət dəstəyi, subsidiyalar və təlimlər bölgədə daha effektiv tətbiq olunur.

Ekspertə görə, Şəmkirdə kartofçuluğun ildən-ilə yüksəlməsi "strategiya ilə əməyin düzgün vəhdətinin" nəticəsidir. Bu il Şəmkirdə məhsuldarlığı daha da yüksəltmək üçün bir sıra prioritetlər müəyyənləşdirilib. Bunlar yeni suvarma xətləri və drenaj sistemlərinin genişləndirilməsi, toxumçuluqda yüksək məhsuldar sortlara keçid, texnika parkının yenilənməsi və müasir mexanizasiya, daxili bazarda qiymət sabitliyinin qorunması, ixrac potensialının artırılmasından ibarətdir.

Rəsmilər bildirirlər ki, görülən tədbirlər nəticəsində gələn il kartof istehsalında ən azı 10 faizlik artım gözlənilir. Şəmkirin ardıcıl liderliyi yalnız bu rayon üçün yox, ümumilikdə ölkənin ərzaq təhlükəsizliyi üçün böyük əhəmiyyət daşıyır. Kartof strateji məhsullardan sayıldığı üçün bölgədə istehsalın artması daxili bazarın sabitliyinə, qiymətlərin nizamlanmasına və idxaldan asılılığın azalmasına birbaşa təsir edir. Göstəricilər onu deməyə əsas verir ki, Şəmkir yalnız bu günün yox, həm də gələcək illərin kənd təsərrüfatı mərkəzi kimi formalaşır.

Bu dinamika davam edərsə, mütəxəssislər hesab edir ki, Şəmkir yaxın illərdə təkcə Azərbaycan üçün deyil, region üçün də əsas kartof istehsalı mərkəzlərindən biri ola bilər.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Bakı gözəlliyi ilə dünyanı heyran qoyur

## *Paytaxtın sanitariya durumu isə ürəkaçan deyil*

**Son vaxtlar Bakı sakinlərdən ev həşəratlarının, siçan, siçovul və digər gəmiricilərin geniş yayılması və buna qarşı istənilən səviyyədə mübarizə tədbirlərinin görülməməsi barədə tez-tez şikayətlər eşidilir. Belə bir vəziyyətin isə daha çox istismar müddəti bitən köhnə binaların zirzəmilərində, küçələrdə yerləşdirilən zibil qutularının ətrafında, nəzarətsiz tullantı sahələrində hökm sürən antisanitariya şəraitindən qaynaqlandığı bildirilir. Bu isə məişət narahatlığı olmaqla bərabər, həm də insan sağlamlığı üçün real təhlükə kimi dəyərləndirilir.**



Ekspertlərin sözlərinə görə, paytaxtda minlərlə yaşayış binasının istismar müddəti çoxdan başa çatıb. Belə binaların böyük hissəsinin zirzəmiləri uzun illərdir ki, təmizlənmir, dezinfeksiya olunmur. Kanalizasiya sularının sızması, tullantıların vaxtlı-vaxtında toplanılmaması nəticəsində illərlə qapısı açılmayan zirzəmilər gəmiricilər və həşəratlar üçün əlverişli mühitə çevrilir. Vəziyyət kəskinləşəndə, məsələn, siçan və siçovullar mənzillərə keçəndə narahatlıq doğurur.

Problemin digər əsas səbəbi isə şəhər təsərrüfatında tullantıların daşınması ilə bağlı müşahidə edilən nöqsanlardır. Küçə və məhəllələrdə yerləşdirilən zibil qutularının ətrafında, necə deyərlər, dolub-daşan tullantılar bəzən vaxtında daşınmır. Açıq havada yığılıb qalan qida qalıqları siçan və siçovullar üçün daimi qida mənbəyinə çevrilir. Nəticədə bir tərəfdən dezinfeksiya tədbirlərinin aparılmaması, digər tərəfdən isə tullantıların idarə edilməsində sistemli yanaşma olmaması təhlükənin zəncirvari şəkildə böyüməsini şərtləndirir.

O da qeyd edilir ki, paytaxtın nisbətən kənar ərazilərdə yerləşdirilən zibil qutullarının gec boşaldılması, yaxud tullantıların həmin qutulara deyil, onların kənarına atılması nəticəsində təhlükəli xəstəlik mənbəyi yaranır, xoşagəlməz mənzərə, dəhşətli iy ürək bulandırır. Nədənsə bu ərazidə dezinfeksiya işlərinin aparılması yada düşmür. Bununla yanaşı, son zamanlar Bakının mərkəzi küçələrində kiçik ölçülü zibil qablarının – urnaların sayında da azalma nəzərə çarpır.

Belə bir vəziyyət isə sakinlərin haqlı narazılığına gətirib çıxarır. Halbuki urnaların küçələrdə, adətən, 100 metrdən bir qoyulması, əhalinin daha sıx olduğu yerlərdə isə bu göstəricinin 50 metr olması nəzərdə tutulur. Bu görə də bir sıra hallarda zibil yerə atılır. Düzdür, hansısa bir ərazidə urnaların azaldılması tullantı qablarının çatışmazlığı ilə əlaqələndirilir. Buna baxmayaraq, bu problem icra hakimiyyətlərinin müvafiq qurumlarının, eləcə də bələdiyyələrin daim diqqətində saxlanılmalı, məsələ nizamlanmalıdır.

Zibilin yerə atılması təkcə təbiətə yox, həm də insan sağlamlığına ziyandır. **Ekspert Adil Həsənovun** sözlərinə görə, tullantı hara gəldi yox, lazımi yerə atmalıdır. Məsələn, Yaponiyada siqaret çəkənlərin hər birinin əlində xüsusi qab olur. Onlar, hətta siqaretin külünü belə çölə atmır, həmin qaba tökür və tullantı üçün nəzərdə tutulan yerlərə boşaldırlar. Bəzən tum çırtlayıb yerə tökülür. Buna görə İnzibati Xətalar Məcəlləsində müəyyən cərimələr nəzərdə tutulur. Ekspert qeyd edir ki, cərimələrdən əlavə, insanları maarifləndirmək də zəruridir. Hər bir kəs bilməlidir ki, urnanın olmaması ətrafı çirkləndirməyə əsas vermir. Təkcə şəhərdə yox, dənizdə, meşədə də bəzən zibillər tullanılır, yaxud maşından yerə atılır. Amma təbiəti qorumaq, təmiz saxlamaq hər kəsin vəzifə borcudur.

Bu məqamda ciddi narahatlıq doğuran bir məsələni də xatırlatmaq yerinə düşər. **Həkim-terapevt Esmira Axundova** insan ömrünün qısalmasına təsir göstərən amillərdən birinin də zibillərin yandırılması olduğunu bildirir. Mütəxəssis qeyd edir ki, inkişaf etmiş ölkələrdə zibil tullantıları yandırılmır. Azərbaycanda isə bunun təhlükəliliyi diqqətdən yayınır, zibillərin yandırıldığı ərazilərdə ağciyər xəstəlikləri, müxtəlif xərçəng növləri yaranması sürətlənir.

Siçan və siçovulların insanların həyatına ciddi təhlükə yaratmasına gəldikdə isə ekspertlər bildirirlər ki, gəmiricilərin həm yaşayış yerlərinə, həm də sağlamlığa vurduğu zərər az deyil, xüsusilə onların törətdikləri yoluxucu xəstəliklər insan həyatı üçün təhlükəli nəticələr doğura bilər. Belə ki, əsasən soyuq aylarda qorunmaq, qida tapmaq və balalamaq üçün onlar əlverişli məkanları seçir, bu zaman müxtəlif bakteriya, virus və parazitlərin daşıyıcısı olaraq birbaşa və dolayı yolla insanlara yoluxma mənbəyi sayılır.

Yoluxmanın qarşısını almaq üçün, ilk növbədə, evin və iş yerlərinin gigiyenasına diqqət etmək zəruridir. İlk növbədə, qida və su mənbələri qorunmalıdır. Ona görə ki, siçan və siçovullar ən çox açıq qalan yemək və su mənbələrində görünür. Qida qalıqlarının açıqda saxlanılması siçan və siçovulların artmasına səbəb olur. Divarlar, döşəmə və tavanda olan çatlar və deşiklər də bağlanmalıdır. Çünki gəmiricilər kiçik boşluqlardan asanlıqla keçə bilir. Bundan savayı, peşəkar dərmanlama xidmətindən istifadəyə üstünlük verilməlidir. Başqa sözlə, siçan və siçovulların çoxalmasının qarşısını almağın ən səmərəli üsullarından biri də mütəmadi deratizasiya – dərmanlamanın aparılmasıdır.

Ümumiyyətlə, siçan və siçovulların yaydığı yoluxucu xəstəliklər həm sağlamlıq, həm də ictimai təhlükəsizlik üçün böyük risk daşıyır. Gəmiricilərin çoxalmasının qarşısını almaq üçün ekspertlərin vurğuladığı kimi, mütəmadi tədbirlər görmək, gigiyenaya riayət etmək və müvafiq peşəkar xidmətlərdən yararlanmaq vacibdir. Unutmayaq ki, siçan və siçovullarla mübarizə aparmaq, əslində, xəstəliklərin qarşısını almaq deməkdir.

Bu məqamda bir məsələyə də toxunmaq istərdik. "Sanitariya Epidemioloji Xidmətlər" MMC gəmiricilərlə mübarizə sahəsində uzun illər əldə etdiyi təcrübə əsasında fəaliyyət göstərən bir şirkətdir. Bu qurum siçan və siçovullarla bir neçə üsullarla mübarizə aparır. Həm canlı yaxalama tələləri ilə, həm də keyfiyyətli dərmanlarla problemi həll edir. Respublika Dezinfeksiya Mərkəzi də gəmiricilərə qarşı deratizasiya tədbirləri reallaşdırır. Lakin adıçəkilən mərkəz bunun üçün "Sanitariya Epidemioloji Xidmətlər" MMC və bu yöndə fəaliyyət göstərən digər qurumlarla yalnız müqavilə olduğu halda üzərinə düşən vəzifəni yerinə yetirir, eyni zamanda, razılaşma sənədində göstərilən müddət əsasında ayda iki və ya üç dəfə müəyyən ərazilərdə deratizasiya tədbirləri gerçəkləşdirir.

Yuxarıda adıçəkilən mərkəzə, təbii ki, siçan və siçovuların artmasından narazı olan sakinlər də tez-tez müraciət edirlər. Lakin bu zaman onlardan bu sahə ilə bağlı fəaliyyət göstərən müəyyən təsərrüfat birlikləri ilə müqavilə imzalanması tələb olunur. Hansısa bina sakini isə fərdi qaydada ərazi mənzil-kommunal istismar sahəsi (MKİS) ilə müqavilə bağlaya bilər. Yalnız bundan sonra MKİS işçiləri siçan və siçovullarla mübarizə üçün ərazini dərmanlayırlar.

**Ekspert Hüsü Qurbanov** mövcud problemin təkcə bir qurumun fəaliyyəti ilə bağlı olmadığını, bu məsələdə bir neçə amilin əsas rol oynadığını deyir. Onun sözlərinə görə, köhnə binaların texniki vəziyyətinin davamlı nəzarətdə saxlanılmaması, zirzəmilərin mütəmadi təmizlənməməsi, zibil qutuları ətrafında antisanitariyanın hökm sürməsi, dezinfeksiya tədbirlərinin formal aparılması, nəhayət, sakinlərlə aidiyyəti qurumlar arasında operativ əlaqənin zəif olması ciddi narahatlıq doğurur. Ekspert H.Qurbanov hesab edir ki, problemin həlli üçün kompleks yanaşma zəruridir. Belə ki, bir tərəfdən köhnə binaların zirzəmiləri inventarlaşdırılmalı, digər tərəfdən dezinfeksiya tədbirləri epizodik yox, daimi xarakter almalıdır. Eyni zamanda, tullantıların idarə olunması sahəsində intizam gücləndirilməli, ictimai nəzarət mexanizmləri işə salınmalıdır.

Beləliklə, Bakı şəhərində həşərat və gəmiricilərin geniş yayılması məişət problemi olmaqla bərabər, həm də şəhər təsərrüfatının idarə olunması, sanitariya mədəniyyəti və ictimai sağlamlıq məsələsidir. Problemin zamanında və ciddi şəkildə həll olunmaması gələcəkdə daha ağır fəsadlara səbəb ola bilər. Bu baxımdan, məsul qurumların fəaliyyətinə tənqidi yanaşma, ictimai müzakirə və real addımlar artıq zərurətə çevrilib.



**P.S.** *Bakıda həyata keçirilən abadlıq-quruculuq layihələrinin həcmi gündən-günə artır. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn qonaqların istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, şəhərin qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Lakin bütün bunlarla bərabər, yuxarıda vurğulanan məsələ ilə bağlı problemin mövcudluğu da narahatlıq doğurur. Bunun aradan qaldırılmasında müəyyən qurumlarla bərabər, paytaxt sakinləri üzərinə də mühüm vəzifələr düşür. Təmizlik, səliqə-sahman yaradılması hamımızdan ciddi diqqət və qayğı tələb edir. Çünki Bakı hər birimizin paytaxtıdır.*

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Evlərdə həşəratların və gəmiricilərin, əsasən siçan və siçovulların görünməsi narahatlıq doğuran haldır. Bu, zibil qutularının ətrafındakı antisanitariya şəraitindən və bəzən də məhəllə tullantılarının vaxtında daşınmamasından qaynaqlanır. Şübhəsiz ki, köhnə yaşayış binalarının zirzəmilərinin nəzarətsiz, nəm saxlanılması, həmin sahələrin tullantı qalıqları və kanalizasiya sızıntılarından təmizlənməməsi də gəmiricilər üçün əlverişli şərait yaradır.

Sakinlərin dediyinə görə, bir çox zirzəmilərdə uzun illərdir ki, səliqə-sahman yaradılmır və profilaktik dezinfeksiya aparılmır, nəticədə isə siçan və siçovulların sayının artmasına əlverişli şərait yaranır.

Vaxtlı-vaxtında daşınmayan zibil qutuları da gəmiricilər üçün fasiləsiz qida mənbəyi rolunu oynayır. Qutuların qoruyucu qapaqlarının olmaması siçan populyasiyasını artırır. Belə bir vəziyyət həm də məhəllə və kommunal xidmətlər arasında koordinasiyanın zəif olmasından xəbər verir.

Havaların mülayim keçdiyi vaxtlarda gəmiricilərin çoxalması sürətlənir. Bundan başqa, infrastruktur problemləri (köhnə kanalizasiya, drenajın zəif olması) birləşərək həşəratların və gəmiricilərin, əsasən də siçan və siçovulların artmasına şərait yaradır. Bu, təkcə Bakı üçün yox, dünyanın digər iri şəhərləri üçün də ciddi narahatlıq doğuran bir problemdir.

Siçan və siçovullar müxtəlif patogenlər – bakteriyalar və parazitlər daşıyır. Gəmiricilərin bitləri və digər ekoparazitləri də insanlara xəstəlik ötürə bilər. Bu xəstəliklər bəzən ağır klinik gedişata malik olur və cəmiyyət üçün epidemik risk yaradır. Beynəlxalq səhiyyə qurumları da gəmiricilərin nəzarətsiz artımının sağlamlıq üçün real təhdid olduğunu vurğulayır.

*Bir xəbərin ardınca*

**Ötən həftə sosial şəbəkələrdə yayılmış bir xəbər əsl möcüzə kimi qarşılandı. Cərrahi əməliyyatdan bir həftə sonra 45 dəqiqə ürəyi dayanmış xəstəni həyata qaytaran Şirvan Şəhər Mərkəzi Xəstəxanasının Anesteziologiya və İntensiv Terapiya Şöbəsində çalışan anestezioloq-reanimatoloq Jalə Müslümovanın bu nadir uğura necə nail olduğunu öyrənmək üçün onunla görüşüb söhbətləşdik.**

# Həkim dayanmış ürəyi necə cana gətirib?

## *Bu nadir hadisə Şirvan şəhərində baş verib*

**– Jalə xanım, ictimaiyyətdə geniş maraq doğuran həmin tibbi müdaxilə barədə danışmağınızı istərdik...**

– Xəstə 19 noyabr tarixində mexaniki sarılıq diaqnozu ilə ikinci terapiya şöbəsinə müraciət etmiş, bir gün sonra isə əməliyyat olunmuşdu. Əməliyyatdan sonra reanimasiya şöbəsinə yerləşdirilmiş, vəziyyəti stabilləşdikdən sonra ikinci terapiya şöbəsində müalicəsini davam etdirmişdi. Hətta vəziyyəti yaxşı olduğu üçün ambulator müalicəyə göndərməyə hazırlaşırdıq.



Lakin noyabrın 25-də xəstənin vəziyyəti qəfil pisləşdi, yuxu arteriyası üzərində nəbzi olmadı. Şöbənin həkimi xəstədə kardiyak arrest baş verdiyi üçün dərhal həyati təhlükənin yarandığını bildirən "mavi kod" çağırışı etdi. Təcili siqnal daxil olduqdan sonra tibbi heyətlə birgə palataya endim və vəziyyəti yerində təsdiqlədim. Təcili tibbi müdaxiləyə, dərhal ürək masajına başladım. Eyni zamanda, xəstəyə yerində intubasiya aparıldı və ürək masajı davam etdirildi.

Paralel olaraq xəstəyə dərmanlar da tətbiq olunurdu. Vəziyyətini qismən stabilləşdirdikdən sonra onu yenidən reanimasiya şöbəsinə qaldırdıq. Ürəyin fəaliyyəti tam bərpa olunmamışdı, amma ürək masajı və dərman dəstəyi fonunda qan dövranı, tənəffüs süni şəkildə idarə olunurdu. Proses fasiləsiz şəkildə davam etdirilir, paralel tədbirlər görülürdü. Beyin hipoksiyasının qarşısını almaq üçün baş nahiyəsinə soyuq tətbiq olunur, lazımi dərmanlar vurulur, ürək fəaliyyətini stabilləşdirmək üçün bütün imkanlardan istifadə edilirdi.

**– Bəs prosesin davam etdirilməsi və ya dayandırılması qərarı nəyə əsasən verilir?**

– Ürək masajının 45 dəqiqə davam etməsi tibbi cəhətdən mümkün və düzgündür. Bu fakt həm tibbi qeydlərdə, həm də müşahidələrdə təsdiqlənib. Açığı, proses zamanı saniyə və ya dəqiqə hesabı aparmırdım. Sonradan sənədləşmə vaxtı məlum oldu ki, masaj təxminən 45 dəqiqə davam edib.

Proses zamanı analizlər götürülür, qan qazları yoxlanılırdı ki, vəziyyətin yaxşılaşıb-yaxşılaşmadığı dəqiq qiymətləndirilsin. Bunlar reanimasiya prosesinin tərkib hissəsidir, lakin çox vaxt insanlar bu detallardan xəbərdar olmur. Videoya baxanda sadəcə mənim ürək masajı etdiyim görünür, amma proses təkcə bundan ibarət deyildi. Masaj edərkən tibb bacılarına tapşırıqlar verirdim ki, dərmanları vaxtında və davamlı şəkildə tətbiq etsinlər.

**– Bəs ikinci dəfə ürəyin dayanması prosesi necə oldu, ümumiyyətlə, bu cür risk hansı hallarda ortaya çıxır?**

– Sosial mediada paylaşılan videoda da məhz ikinci ürək dayanması epizodu əks olunub. Biz xəstəni reanimasiya şöbəsinə qaldırmışdıq, şüuru qayıtmış, hemodinamik göstəriciləri normallaşmış, ürək fəaliyyəti bərpa olunmuşdu. Xəstəni süni ventilyasiya aparatına qoşmuşduq ki, beyin və digər orqanlar oksigensiz qalmasın. Lakin noyabrın 26-sı səhər saat 04:32 radələrində monitoru izləyərkən ürək fəaliyyətinin dayandığını müşahidə etdim. Xəstədə nəbz yox idi, ürək fəaliyyəti qeydə alınmırdı, tənəffüs dayanmışdı. Karotid arteriyada nəbzi yoxladım və ürək vurğusunun olmadığını təsdiqlədim və dərhal yenidən ürək masajına başladım.

**– Xəstəyə bu qədər uzun müddət ürək masajı edilməsi halları daha əvvəl də yaşanıbmı?**

– Bundan əvvəl də belə hallar yaşanıb, bir xəstənin uzunmüddətli ürək masajından sonra həyatda qalması müşahidə olunub. Məsələn, 40-42 dəqiqə ərzində xəstə həyata qaytarılıb.

Adətən müəyyən protokol və alqoritmlər var ki, hansısa saatdan sonra prosedur dayandırıla bilər. Lakin biz xəstənin vəziyyətini və reflekslərini qiymətləndirərək qərar veririk. Əgər reflekslər saxlanırsa, ürək masajını davam etdiririk. Bu xəstədə də orqanizm öz funksiyalarını yerinə yetirirdi və prosesi davam etdirmək önəmli idi. Belə uzunmüddətli ürək masajından sonra bədəndə bəzi mənfi təsirlər ola bilər, amma düzgün və səmərəli proses aparıldıqda heç bir ciddi, qalıcı problem yaranmır.

Xəstə on gün müddətində reanimasiya şöbəsində qaldı, nəzarət altında saxlanıldı, yavaş-yavaş hərəkət etdirildi, qidalandırıldı və danışması təmin edildi. Ürəyinin 45 dəqiqə dayandığını isə sonradan öyrəndi.

Xəstənin altı övladı olduğunu əvvəlcədən bilirdik, çünki anamnez prosesi zamanı bütün həyat məlumatlarını alırıq. Xəstə bizə keçmiş xəstəliklərini, əməliyyatlarını, dərmanlara qarşı reaksiyalarını bildirir. Bu məlumatlar çox əhəmiyyətlidir və xəstənin düzgün müalicəsində istifadə olunur.

İki gün ərzində tam yoxlanışdan sonra xəstə artıq evə buraxılıb, uşaqları ilə birlikdədir və vəziyyəti tam stabildir. Buna çox sevinirəm, çünki klinik ölüm keçirmiş şəxslərdə bəzən beyin və digər orqanlarda qalıcı mənfi təsirlər olur, lakin bu xəstənin bütün orqanları normal işləyir.

**– İlkin tibbi yardım haqqında məlumatı olmayan insan ürək masajı etməyə çalışarsa, hansı səhvləri edə bilər?**

– Belə bir şəxs masaj edərkən əllərini düzgün yerə qoymaya və gücünü düzgün yönləndirməyə bilər. Masajın texnikası vacibdir: qüvvə qollardan və bədən ağırlığından ötürülməlidir, sadəcə əllə sıxmaq, biləkdən ötürmək kifayət deyil.

İkincisi, masaj edərkən diqqətsiz olmaq qabırğanın sınmasına səbəb ola bilər. Həmçinin gecikmiş müdaxilə, məsələn, xəstənin ürək fəaliyyəti dayandıqdan sonra 5 dəqiqə ərzində başlanmayan masaj da effektiv olmur. Ona görə hər şey vaxtında və düzgün aparılmalıdır.

**– Süni tənəffüs və ürək masajının əsas fərqi nədir? Hər ikisi eyni anda edilməlidirmi?**

– İlk yardım (CPR) alqoritmi əvvəllər A-B-C (Airway, Breathing, Circulation – Tənəffüs, Nəfəs, Dövran) prinsipi üzrə aparılırdı. İlk olaraq tənəffüsə kömək olunur, sonra ürək masajına və beyin funksiyasının qorunmasına diqqət yetirilir. Son zamanlarda isə beynəlxalq təcrübəyə uyğun olaraq ABŞ və digər ölkələrin protokollarına əsasən, CAB prinsipi üzrə ürək masajına öncəlik verilir, amma tənəffüs də eyni zamanda dəstəklənir.

Əgər tibbi aparat yoxdursa, 30 ürək masajından sonra 2 dəfə süni tənəffüs edilir. Yəni 30 masaj – 2 tənəffüs prinsipi tətbiq olunur. Bu proses davamlı olaraq təkrarlanır. Hər tənəffüs ürəyin işləməsini dəstəkləyir və qan dövranını təmin edir.

Şok (kardioversiya) isə ürəyin ritmi pozulduqda tətbiq edilir. Həmin xəstədə VT - ventrikulyar taxikardiya oldugu üçün DF vəya elektroşok verildi, dərhal kardioversiya etdik. Bu, ürəyin normal ritmini bərpa etmək üçün həyata keçirilir.

**– Ətraflı məlumata və maraqlı söhbətə görə çox sağ olun.**

***Söhbəti qələmə aldı:***
***Ləman TƏHMƏZ***
***XQ***

*Bəxtiyar VAHABZADƏ – 100*

# İstiqlal şairinin məfkurə yolu



**Dünən Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, AMEA-nın həqiqi üzvü, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyi ilə əlaqədar ədəbi-musiqili məclis keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov mərasimi açaraq görkəmli şairin mübarizələr, həqiqət axtarışları uğrunda keçmiş ömür yoluna nəzər salıb, onun zəngin ədəbi irsi, milli poeziyada yaratdığı yeniliklər haqqında məlumat verib. O, Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı ilə Azərbaycan xalqının və mənəviyyatının bir hissəsinə çevrilmiş böyük insan olduğunu vurğulayıb. Qeyd edib ki, sağlığında da canlı tarix olan Bəxtiyar Vahabzadə sadəcə istedadlı söz ustası deyil, millətinin varlığı, taleyi, ruhu ilə qovuşmuş bir yurd fədaisidir. Şair bütün yaradıcılığı ilə mənsub olduğu millətin yaddaşına hopmuş sənətkarlardandır. Şair xalqımızın ən çətin günlərində önə çıxmaqdan, sözünü deməkdən heç zaman çəkinməyib, mübarizlik ruhu ilə seçilib.

Böyük şairin əbədiyaşarlıq qazanmış insan kimi anıldığını deyən akademik Rafael Hüseynov Bəxtiyar Vahabzadənin yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının ortaq şəxsiyyəti, qüdrətli söz ustası olduğunu vurğulayıb. Əlavə edib ki, yorulmaz qələmi, hüdudsuz düşüncələri ilə millətinə xidmət etmiş Bəxtiyar Vahabzadənin poeziyasında insanı azadlığa, dürüstlüyə, Vətənə sədaqətə aparan güclü bir ruh var. Onun bir şair və vətəndaş olaraq qayəsi öz Vətənini bütöv, ölkəsini müstəqil, xalqını azad görmək olub.

Akademik Rafael Hüseynov şairlə bağlı xatirələrini bölüşərək, Bəxtiyar Vahabzadənin Azərbaycanın böyük idealları uğrunda mübarizə apardığını, ötən əsrin 60-cı illərindən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri olduğunu deyib. Bildirib ki, ustad şairimizin Sovet imperiyasının repressiya maşının ən güclü vaxtlarında "Gülüstan" poemasını qələmə aldığı zaman üzləşdiyi çətinliklərdən danışıb. O zaman ulu öndər Heydər Əliyev Bəxtiyar Vahabzadəni təhlükədən xilas edib, həbs olunmağa qoymayıb, onu yüksək ad və mükafatlarla təltif edib.

Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığının böyük ədəbi-məfkurəvi məktəb olduğunu söyləyən akademik Rafael Hüseynov şairin həm də müəllimlik etdiyini, Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda daim mübarizə apardığını vurğulayıb. O qeyd edib ki, Xalq şairi Bəxtiyar Vahabzadə elmi-ictimai fəaliyyəti, böyük şəxsiyyəti, zəngin irsi və bütövlüyü ilə Azərbaycan oxucusunun qəlbində həmişə yaşayacaq.

Ədəbiyyat Muzeyinin Həmkarlar İttifaqı Komitəsi və məktəblərlə və ictimaiyyətlə iş şöbəsinin birgə təşkil etdiyi mərasimdə istiqlal şairinin yaradıcılığından nümunələr, şeirlərinə bəstələnmiş mahnılar səsləndirilib.

Mərasimdə Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığına həsr olunmuş stend və videosüjet də nümayiş etdirilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Çin teatrları ilə əməkdaşlıq qurulur

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin yol xəritəsinə uyğun olaraq beynəlxalq əməkdaşlıq əlaqələrini genişləndirir.**



Teatrın direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov Çin Xalq Respublikasında səfər çərçivəsində Qansu və Şandun vilayətlərinin Milli Dram Teatrlarında, eləcə də Çin Milli Dram Teatrında görüşlər keçirib. Aparılan söhbətlərdə əməkdaşlıq perspektivləri müzakirə olunub, Qansu Milli Dram Teatrı ilə əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Görüşlərdə qarşılıqlı qastrol səfərləri, rejissor və aktyor mübadiləsi, səhnə texniki əməkdaşlığı məsələləri diqqət mərkəzində olub. Eyni zamanda Çin dramaturqlarının əsərlərinin Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya hazırlanması barədə razılıq əldə olunub. Razılaşmaya əsasən, Azərbaycan teatrının tamaşalarının Pekin, Şanxay və Çandu şəhərlərində təqdimatı keçiriləcək.

***XQ***

*İbadulla AĞAYEV – 75*

**"Dədə Ələsgər Ocağı" İctimai Birliyinin Mahnı Teatrında Əməkdar elm xadimi, Əməkdar müəllim, tibb elmləri doktoru, professor İbadulla Ağayevin 75 illik yubileyi münasibətilə təşkil etdiyi mərasimdə görkəmli alimin ömür yolu və elmi fəaliyyəti diqqət mərkəzində oldu. Məclisə elm və səhiyyə sahəsində tanınmış simalar ziyalılar, dövlət qurumlarının nümayəndələri, mədəniyyət və ədəbiyyat xadimləri iştirak edirdilər.**

# Epidemioloq alimin yubileyi



Açılış nitqi ilə çıxış edən "Dədə Ələsgər Ocağı" İctimai Birliyinin sədri Xətai Ələsgərli professor İbadulla Ağayevin tibb elminə layiqli töhfələr verdiyini, eyni zamanda, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği sahəsində mühüm xidmətlər göstərdiyini söylədi.

Mərasimdə Sabirabad Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Həsən Həsənov, Azərbaycan Tibb Universitetinin professoru, şair Paşa Qəlbinur, ATU-nun onkologiya kafedrasının dosenti Nəsimi Qasımov, daxili xəstəliklər kafedrasının dosenti, tibb və filologiya üzrə fəlsəfə doktoru Nağdəli Zamanov, Türk Ağsaqqalları Birliyinin sədri, tibb elmləri doktoru, professor Sudeyf İmamverdiyev, tibb elmləri doktoru, professor Fatma Hacıyeva, professor Hacı Xalid Başər, şair Yusif Ağbulaqlı, şair-publisist Məlahət İsmayılqızı çıxış edərək professor İbadulla Ağayevin elmi, pedaqoji və ictimai fəaliyyətindən bəhs etdilər. Yarım əsri əhatə edən elmi və pedaqoji fəaliyyətində epidemiologiya elminin inkişafına verdiyi fundamental töhfələrdən, yoluxucu xəstəliklərin öyrənilməsi və profilaktikası sahəsində apardığı sanballı tədqiqatlardan danışdılar. Bildirildi ki, görkəmli alim, eyni zamanda onlarla gənc tədqiqatçının formalaşmasında mühüm rol oynamış fədakar müəllim, elmi məktəb yaradan ziyalıdır.

Yubilyar tədbirin təşkilində əməyi olan "Dədə Ələsgər Ocağı" İctimai Birliyinə və mərasimdə iştirak edən hər kəsə təşəkkürünü bildirdi. Uzun illərə söykənən elmi və pedaqoji fəaliyyətinin əsas məqsədinin Azərbaycan səhiyyəsinin inkişafına töhfə vermək olduğunu qeyd edən pofessor İbadulla Ağayev həyat yolunda üzləşdiyi çətinliklərdən, qazandığı zəngin təcrübədən söz açdı.

Qeyd edək ki, professor İbadulla Ağayev yarım əsrdən artıq elmi-pedaqoji fəaliyyəti dövründə epidemiologiya elminin inkişafına mühüm töhfələr verib, 40 namizədlik və 5 doktorluq dissertasiyasına rəhbərlik edib, yüzlərlə elmi əsərin müəllifidir. Azərbaycan aşıq poeziyasının, xüsusilə Dədə Ələsgər irsinin təbliğindəki xidmətlərinə görə "Aşıq Ələsgər – 200" yubiley medalı ilə təltif edilib. Tədbirin sonunda yubilyara səmimi təbriklər ünvanlandı, möhkəm cansağlığı və yeni elmi nailiyyətlər arzulandı.

Məclisin bədii hissəsində Əməkdar mədəniyyət işçisi Aşıq Ədalət Dəlidağlı, IX "Muğam" Televiziya Müsabiqəsinin finalçısı Yusif Cəfərbəyli, Zahidə Günəş, "İRƏVAN" xalq çalğı alətləri ansamblı tərəfindən səsləndirilən xalq və aşıq musiqisi nümunələri gecəyə xüsusi maraq qatdı.

***T.ARAZOĞLU***
***XQ***

*Milli kino tariximiz*

# Ölməz ekran əsərləri

**(əvvəli qəzetimizin 15, 25, 28 noyabr, 3 və 4 dekabr tarixli saylarında)**

Təqdim etdiyimiz silsilədən növbəti yazımız ötən əsrin sonlarında çəkilmiş "Bəyin oğurlanması" (1985), "Yük" və "Ümid" (1995) filmləri haqqındadır. Bakıda 34 ölkənin iştirakı ilə 16-cı Beynəlxalq Film Festivalı ilə əlaqədar paytaxtımızın kino ab-havası ilə nəfəs aldığı bir vaxtda yubileyi olan məşhur ekran əsərlərini sevgi ilə xatırlayırıq.

## "Bəyin oğurlanması"

"Azərbaycanfilm"də komediya janrında çəkilmiş bu filmin rejissorları Ceyhun Mirzəyev və Vaqif Mustafayev, ssenari müəllifi Mövlud Süleymanlıdır.

İndi də tez-tez göstərilən "Bəyin oğurlanması"nda əsas süjet xətti kəndə toy səhnəsini lentə almağa gələn kino işçilərinin fəaliyyəti ilə bağlıdır. Filmin əsas personajlarından biri olan rejissor görür ki, ssenari və çəkilən material real həyatdan çox uzaqdır. Buna görə də o, uydurma toy səhnəsi əvəzinə, kənddə olan həqiqi toyu lentə alır. Beləcə, şən və qüssəli əhvalatlar vəhdət təşkil edir. Eyni zamanda, tamaşaçı kənd həyatının maraqlı və zəngin adət-ənənələri ilə tanış olur. Bu əyləncəli kinokomediya hər şeydən əvvəl, insan səadəti uğrunda aparılan mübarizə haqqındadır.

"Bəyin oğurlanması" hazırkı kino proqramlarında aparıcı yer tutduğu üçün filmin geniş təfərrüatına varmadan əsas obrazların yaradıcılarını yada salaq: Həsənağa Turabov (Rejissor Əsəd), Səyavuş Aslan (Mustafa), Nəsibə Zeynalova (Nəsibə xala), Hacı İsmayılov (Tağı), Yaşar Nuri (İsrafil), Səməndər Rzayev (sovxoz müdiri Hidayət müəllim), Arif Quliyev (Miriş), Natəvan Məmmədova (Yasəmən), Tamara Şakirova (Nigar), Şamil Süleymanov (Həsən), Firəngiz Mütəllibova (Telli), Ramiz Əzizbəyli (İsabala) və başqaları.

Onu da qeyd edək ki, filmin əsas səhnələri Şamaxı rayonunun Məlhəm kəndində çəkilib. Lentə alınan evlərdən birinin sahibi İlqar Novruzovun dediyinə görə, çəkiliş qrupu ekran əsərini yaratmaq üçün 1984-cü ilin iyul-avqust aylarında kəndə gəlib. Üstündən 40 ildən çox vaxt keçsə də, indi də, demək olar ki, hər gün 2-3 turist gəlib məşhur evə baxır. Bir də kənd sakinlərindən kim çəkilişdə iştirak etmək istəsəydi, adını siyahıya yazdırırmış. Onların hərəsinə gündəlik, təqribən, 10 rubla qədər pul verirmişlər. Filmdə köməkçi rollarda kənd sakinləri çəkilib.

Kinolentin müəlliflərindən olan görkəmli rejissor Vaqif Mustafayevin dedikləri: "Bəyin oğurlanması"na 40 ildən bəri baxılırsa və film sevilirsə, deməli, Azərbaycan kinosunun klassikasına çevrilib. Bu, onu sübut edir ki, filmlə bağlı seçimlər də, dialoqlar da düzgün olub. Hər şey öz yerindədir".

## "Yük"

Mərhum dostum Rövşən Almuradlının quruluşçu rejissor kimi ilk müstəqil işi olan "Yük" bədii filmi ovaxtkı "Bəri bax" müstəqil kinostudiyasında ərsəyə gəlib. Bu tammetrajlı ekran işinin ssenari müəllifi Şahmar Ələkbərovdur. Filmdə Bakı milyonçusu Ağa Musa Nağıyevin həyatının 1 günü ərzində başına gələn əhvalatlardan söhbət açılır.

"Yük"də obrazların əsas "yük"ünü Mirzə Ağabəyli (Ağa Musa Nağıyev), Ağakişi Kazımov (Hacı Zeynalabdin Tağıyev), Nahidə Orucova (qulluqçu Kübra), Loğman Kərimov (xəfiyyə) və Məzahir Süleymanov (general Şubinski) və başqaları daşıyıblar.

"Yük"ün ilk dəfə ekranlarda getdiyi günün səhəri biz – AzTV-də çalışan bir qrup sumqayıtlı N.Nərimanov adına mədəniyyət evinin yanında dayanıb, Bakıya gedən avtobusu gözləyirdik. Həmyerlimiz Rövşən Almuradlı da gəldi və hamımız onu təbrik etdik. Rəhmətlik Məmməd Aslan, jurnalist Bahadır Şəfi və mən filmin uğurlu alındığını deyib, ekran təcəssümünü təqdir etdik. Gözlərindən sevinc yağan Rövşən isə cavabında zarafatla "Bəs şampan şərabları hanı?" – deyə soruşdu və hamımızı güldürdü. "O da olar" – dedik və yolboyu "Yük"ün məziyyətlərindən danışdıq. Ona qədər qısametrajlı "Hücum", "Azadlığa gedən yollar" (müştərək), filmlərini çəkmiş, "Anamın kitabı" film-tamaşasını yaratmış, "Qəzəlxan"da aktyor kimi oynamış Rövşən müəllimə uğurlar arzuladıq. O da bir neçə il sonra "Cavad xan" filmi və digər möhtəşəm işləri ilə ümidlərimizi doğrultdu.

Ekran əsərində faytonda birlikdə gedən Tağıyevlə Nağıyevin dialoqu diqqət çəkir:

*"– Adama qalan ad olacaq.*
*– Tikdiyimiz bu binalar balalarımızındır.*
*– Əkiblər, yemişik, əkirik ki, yesinlər.*




*– Biz də bu yetim-yesirə sahib durmasaq, kim duracaq?"*

Azərbaycanda real şəxsiyyətlərin həyatını ekranlaşdıran bioqrafik filmlər çox olmasa da, bu janrda müəyyən bir ənənə formalaşıb. Bioqrafik lentləri hasilə gətirmək mürəkkəb prosesdir, çünki konkret insanın və zamanın bədii inikasının məxsusi formasını tapmaq elə də asan deyi. Fikrimizcə, Rövşən Almuradlı bunun öhdəsindən layiqincə gələ bilib. "Yük"də Bakı Real Məktəbinin tikildiyi dövrün Nağıyevin guya xəsis olması ilə kontrastda verilən işıqlı tərəfləri əks olunub.

Qeyd edək ki, filmin bəstəkarı Eldar Mansurov burada Şəmsi Əsədullayev, redaktoru Orxan Fikrətoğlu isə Mirzə rolunda çəkiliblər. İctimai-siyasi formasiyanın dəyişməsi, qıtlıq və vəsait çatışmazlığı səbəbindən milli kinomuz üçün uğursuz olan 90-cı illərdə "Yarasa", "Pəncərə", "Qəzəlxan", "Özgə vaxt" "Ağ atlı oğlan", "Fəryad", "Sarı gəlin"lə bərabər,"Yük" də boşluğun doldurulmasında mühüm rol oynayıb.

## "Ümid"

Rejissor Gülbəniz Əzimzadənin rejissoru olduğu bu film Rövşən Almuradlı ilə Elman Şeydayevin "Doğma" povestinin əsasında Orxan Fikrətoğlunun ssenarisini yazdığı ekran əsəridir.

Burada hadisələr Birinci Qarabağ müharibəsi zamanı Bakıda hərbi xəstəxanada 1 gün ərzində ("Yük"də olduğu kimi) baş verir. Adı bəlli olmayan bir əsgərin qəhrəmanlıq rəmzinə çevrilməsi filmin əsas süjet xəttini təşkil edir. Kinolentdə müharibənin taleyini şikəst etdiyi adamlardan bəhs olunur. Müəlliflər demək istəyiblər ki, xalq bu bəladan qurtarmaq üçün özündə qüvvə tapacaq, çətinlikləri dəf edəcək.

Əsas rollarda Məmmədkamal Kazımov (qoca), Məmməd Səfa (qardaşını axtaran), Muxtar İbadov (papaqlı kişi), Şükufə Yusupova (ana), Əminə Yusifqızı (baş həkim), Fuad Poladov (hərbi həkim) çəkiliblər.

Yuxarıda qeyd edildiyi kimi, 90-cı illərdə Azərbaycan kinematoqrafiyasına aid filmlərin sayı əvvəlki dövrlərə nisbətən az olsa da, rejissorlar böyük əhəmiyyətli həyati mövzulara üz tutaraq, estetik tələblərə cavab verə biləcək əsərlər çəkiblər. "Ümid" də bu sıradadır.

Mərhum Gülbəniz Əzimzadə daha öncə müharibə mövzusunda "Müqəddəs oda yanaram" filmini uğurla ekranlaşdırmışdı. Hər iki kinolentdə Qarabağ müharibəsinin gətirdiyi faciələr və insanın həyatda yerini tapması kimi təsirli səhnələr yer alıb. "Ümid"də, yeri gəldikcə, sənədli xronikadan istifadə olunub. "Barıt qoxulu" kadrlar siyasi-fəlsəfi-poetik mətnlərin səsləndirilməsi ilə müşayiət edilib.

...Bakıya vertolyotla xeyli yaralı gətirilir və onların arasında üzü tanınmaz hala düşmüş naməlum əsgər də var. Onun kimliyi bilinmir. Qardaşını, oğlunu, ərini axtaran insanlar bu əsgərə ümid kimi baxırlar. Yəni hər kəs ümid edir ki, bu, onun doğması ola bilər...

Yaralı əsgərə ümidlə baxanlardan biri də orta yaşlı papaqlı kişidir. Aktyor Muxtar İbadov onun obrazını bivec, fürsətcil birisi kimi təqdim edir. Amma rejissor hadisələrin gedişatında personajın bu cəhətlərinə bir növ bəraət qazandırır. Papaqlı kişi karyerist olub və oğlunu ərköyün böyüdüb. Cinayət törətmiş oğlunun cəbhədə vuruşması isə mənəvi saflaşmadır. Ata oğlunun ona yazdığı, taleyində oynadığı mənfi rolu anladan etiraf məktubunu hamı üçün ucadan oxuyur ki, cəza olaraq daha çox mənəvi əzab çəksin. Çünki özünün dediyi kimi, o, ikili sima ilə ömür sürməkdən bezib.

Filmdə sensasiya gəzən telejurnalistin (Mehriban Zəki) tədricən öz yanlışını anlaması da ibrətamizdir. Acı gerçəklik əvvəlcə süjetinin reytinqi barədə düşünən müxbirin, nəhayət, duyğularına toxuna bilir. Xüsusilə də, davada gözlərini itirmiş əsgərlə (Aqil M.Quliyev) qarşılaşanda o, öz səhvini başa düşür.

Sona yetməkdə olan 2025-ci ildə yubileyi qeyd edilən filmlərdən də göründüyü kimi, ötən əsrdə Azərbaycanda layiqli ekran əsərləri yaradılıb. Ənənənin uğurla davam etməsi, günümüzün tələblərinə cavab verən və şöhrəti ölkəmizin hüdudlarını aşan yeni filmlərin meydana gəlməsi arzusu ilə.

***Ə.DOSTƏLİ***
***XQ***

# Cüdoçularımızın arzuları böyük, hədəfləri gerçəkdir

## *Onlar bu il 76 qızıl, 61 gümüş, 116 bürünc medal qazanıblar*

**Artıq 2025-ci il tarixə qovuşur. Yola saldığımız il ölkə həyatının əksər sahələrində qazanılmış yeni uğurlarla yadda qalacaq. Bəs Azərbaycan idmançıları bu ili hansı nailiyyətlərlə yola salır? İdmançılarımız qarşıdan gələn ildə keçiriləcək yarışlara necə hazırlaşırlar? Bu sualların cavabında, ilk olaraq, ölkə idmanını beynəlxalq miqyasda layiqincə təmsil edən cüdoçularımızın uğurlarına nəzər salaq. Müsahibimiz Azərbaycan Cüdo Federasiyası prezidentinin müşaviri, Dünya və Avropa çempionatlarının mükafatçısı, Əməkdar idman ustası, "Şöhrət" ordenli idmançı Natiq Bağırovdur.**



**– Azərbaycan Cüdo Federasiyası başa çatmaqda olan 2025-ci idman ilini necə başa vurur? İdmançıların beynəlxalq arenalarda əldə etdiyi uğurları, müxtəlif səviyyəli yarışlardakı nailiyyətləri necə dəyərləndirirsiniz?**

– Cüdo üzrə Azərbaycan milli komandası 2025-ci ildə beynəlxalq arenada yüksək nəticələr qazanıb. İl ərzində müxtəlif yaş qrupları üzrə fərdi və komanda yarışlarında cüdoçularımız 76 qızıl, 61 gümüş, 116 bürünc olmaqla ümumilikdə 253 medal əldə ediblər.

Cari ildə ölkəmiz Bakıda Böyük Dəbilqə, Qubada isə Avropa Kubokuna ev sahibliyi edib. Bakı Böyük Dəbilqəsində idmançılarımız 1 qızıl, 1 gümüş, 3 bürünc, Quba Avropa Kubokunda 3 qızıl, 6 gümüş, 9 bürünc medal qazanıblar. Abşeron Olimpiya İdman Kompleksində Avropa Cüdo Ümidləri Turniri və Kodokan mütəxəssislərinin iştirakı ilə texniki sessiyalar keçirilib.

Azərbaycan Göygöldə təşkil olunan III MDB Oyunlarına ev sahibliyi edib. Cüdoçularımız fərdi yarışlarda 5 qızıl, 7 gümüş, 9 bürünc (cəmi 21) medal qazanıb, qarışıq komanda yarışında isə çempion olub. Bu yarışlarda dünyada və Avropada aparıcı komandalardan olan güclü Rusiya, Qazaxıstan, Özbəkistan, Belarus komandalarının iştirak etməsinə baxmayaraq, Azərbaycan komandası Oyunların çempionu olub.

Şimali Makedoniyada keçirilən EYOF-da yeniyetmə cüdoçularımız fərdi yarışlarda həm medalların sayına, həm də əyarına görə birinci yeri tutublar. Bu ölkədə keçirilən yeniyetmələrin Avropa çempionatında komanda hesabında medalların əyarına görə ikinci, oğlanlar arasında birinci yeri tutan millimiz 3 qızıl, 1 gümüş, 2 bürünc medal əldə edib. Cari ildə komandamız Bolqarıstanda keçirilən yeniyetmələrin Dünya çempionatında 2 bürünc medal qazanıb.

Moldovada keçirilən U-23 Avropa çempionatında cüdoçularımız 2 qızıl, 1 gümüş, 1 bürünc medalla həm ümumi komanda, həm də kişilər arasında 1-ci yeri tutub. Gənclər arasında Avropa çempionatında 2 qızıl, 1 bürünc, Dünya çempionatında isə 1 bürünc medal qazanılıb. Macarıstanda böyüklər arasında Dünya çempionatında Azərbaycan millisi 3 bürünc, Monteneqroda Avropa çempionatında 1 gümüş və 4 bürünc medala yiyələnib.

Cüdo tarixində ilk dəfə Macarıstanda keçirilən Dünya çempionatında Azərbaycan Cüdo Federasiyasının "A" kateqoriyalı beynəlxalq dərəcəli hakimi Nazim Umbayev ədalət təmsilçiləri sırasında yer alıb. Çempionatın son günündə Beynəlxalq Cüdo Federasiyasının bayrağı 2026-cı ildə Dünya çempionatına ev sahibliyi edəcək Azərbaycana təqdim olunub.

Qeyd olunanlardan başqa, 2025-ci ildə Azərbaycanda ilk dəfə adaptiv cüdo turniri təşkil olunub. Milli Komandaların Təlim-Məşq Mərkəzində keçirilən turnirdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar iştirak edib, layihə onların sosial inteqrasiyası və fiziki aktivliyinin artırılmasına xidmət edib. "Kata for All" festivalı, Kodokan mütəxəssislərinin iştirakı ilə seminarlar, həmçinin məşqçilər üçün ilkin tibbi yardım, fiziki hazırlıq, hakimlik qaydaları və sosial medianın düzgün istifadəsi mövzularında təlimlər gerçəkləşdirilib.

Cari ildə ACF tərəfindən təşkil olunan yerli yarışlarda bütün yaş qrupları üzrə ümumilikdə 8500-ə yaxın cüdoçu mübarizə aparıb. Ölkədə cüdo ilə məşğul olanların sayı rekord həddə çataraq 21 min nəfəri ötüb. Cüdo Liqa yarışlarının tətbiqi ilə yeni potensiallı idmançıların aşkarlanması, klublar arasında sağlam rəqabət və əməkdaşlıq, idmançı və məşqçilərə maddi dəstək, eləcə də infrastrukturun gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb.

**– Ötən ay Səudiyyə Ərəbistanında başa çatmış VI İslam Həmrəyliyi Oyunlarında cüdo millimizin, eləcə də Birləşmiş Ərəb Əmirliyinin paytaxtı Əbu-Dabidə keçirilən Böyük Dəbilqə turnirində iştirak edən idmançılarımız gözləntiləri doğrulda bildilərmi?**

– Ər-Riyadda keçirilən VI İslam Həmrəyliyi Oyunlarında cüdoçularımız fərdi yarışlarda 2 qızıl, 2 gümüş, 5 bürünc medal əldə edib, qarışıq komanda yarışında isə çempion olub. Bu nəticə böyüklər arasında qarışıq komandada Azərbaycan cüdo tarixinin ilk çempionluğudur. Doğrudan da dünyanın və Asiyanın ən güclü komandaları arasında qalib olmaq böyük uğurdur.

Onu da qeyd edim ki, hər bir yarışa məşqçilər korpusu müxtəlif idmançılarla, fərqli tapşırıqlarla gedirlər. Əsas hədəfimiz Avropa və Dünya çempionatları, Olimpiya oyunlarıdır.

**– Son dövrlər müxtəlif idmançıların əldə etdiyi uğurlar, qazanılan qələbələr, sanki, bir qədər arxayınlıq yaradır. Bəzən cüdoçularımız eyni uğuru təkrarlaya bilmirlər.**

– İl ərzində 20 turnir olur, Avropa və Dünya çempionatları keçirilir. Dörd ildən bir Olimpiya oyunları baş tutur. Mən belə bir sual vermək istərdim. Əgər 20 yarışda iştirak edən idmançı 17-sində medal qazanıbsa, 3-də isə nəticə göstərə bilməyibsə, onların nəticəsi bizi qane edərmi? Yoxsa bu yarışların 10-da uğur əldə edib 10-da medal qazanmasalar, ümumilikdə isə Avropa və Dünya çempionatlarında, Olimpiya oyunlarında medal qazansalar hansı daha yaxşı olar?

Əlbəttə ki, rəsmi yarışlardakı nəticələr daha böyük uğur hesab olunmalıdır. Ona görə də idmançılar il ərzində daim formada ola bilməzlər. Məşqçilərimiz çalışırlar ki, cüdoçularımız daha mötəbər turnirlərdə yaxşı formada olsun və yüksək nəticələr əldə etsinlər. Ona görə Böyük Dəbilqə, yaxud Qrand-Prix yarışlarına hazırlaşanda, iştirak edəndə məşqçilərimiz fiziki hazırlığı aşağı salmırlar. İdmançılar həmin yarışlarda fiziki baxımdan yorğun iştirak edirlər.

Lakin nəticə bizə bu yarışda o qədər də önəmli deyil. Çünki həmin yarışlarda iştirak etmək də hazırlıq prosesinin bir hissəsidir. Buna baxmayaraq, idmançılarımız medallar gətirəndə hamımız sevinirik. Bir daha vurğulamaq istəyirəm ki, bizim üçün ən önəmli yarışlar Avropa, Dünya çempionatları və Olimpiadadır.

**– Azərbaycanda son dövrlər cüdonun inkişaf etdirilməsi istiqamətində hansı işlər görülür? Federasiya idmanın bu növünü bölgələrdə necə kütləviləşdirə bilər?**

– Cari ildə Azərbaycan Cüdo Federasiyası ölkə üzrə idmanın bu növünün kütləviliyinin, infrastrukturunun, idarəçiliyinin gücləndirilməsi istiqamətində böyük işlər görüb. Ağdaşda, Kürdəmirdə, Astarada, Cəlilabadda, Qaxda, Tərtərdə, İmişlidə, Zaqatalanın Mosul kəndində və Şabranda Cüdo Təlim mərkəzlərini açmışıq. Həm zalları avadanlıqlarla təmin etmişik, həm də bir sıra rayonlarda cüdo idman zallarını tikmişik.

Bundan başqa, İdman Akademiyasında yenilənmiş cüdo zalı istifadəyə verilib. 2022-ci ildən bəri Bakı və regionlarda 156 idman zalına təxminən 12 min tatami paylanıb, bu zallarda 2300-dən çox yeniyetmə və gəncin cüdo ilə məşğul olması üçün şərait yaradılıb.

Beynəlxalq təcrübəyə əsasən hazırlanan qaydalar üzrə klubların lisenziyalaşdırılması prosesi davam edib və bugünədək 206 idman təşkilatına lisenziya verilib. Beynəlxalq Cüdo Federasiyası Akademiyasının məşqçi hazırlığı proqramında Azərbaycan, Gürcüstan və Özbəkistandan 48 məşqçi iştirak edir. İndiyədək proqram çərçivəsində 245 yerli məşqçi təhsil alıb, onlardan 168-i imtahanları uğurla verərək beynəlxalq dərəcəli diplom əldə edib. ACF, Azərbaycan İdman Akademiyası və Böyük Britaniyanın Hertfordşir Universiteti arasında Anlaşma Memorandumu əsasında cüdo məşqçiliyi üzrə təhsil proqramları davam etdirilib.

**– Hər bir sahədə olduğu kimi, cüdoda da yeni idmançıların yetişdirilməsi, gənc nəslin öz sələflərini əvəz etmək baxımından hazırlıqlı olması üçün federasiya rəhbərliyi hansı işləri görür?**

– Bütün sahələrdə olduğu kimi, bizim federasiya da gənc idmançıların yetişdirilməsinə xüsusi diqqət yetirir. Cüdo Federasiyası bu istiqamətdə çoxsaylı yerli turnirlər, kubok yarışları keçirir. Yeniyetmələrimiz, gənclər həmin yarışlarda iştirak edir, öz qüvvələrini nümayiş etdirirlər. Bu yarışlarda federasiya nümayəndələri gənc istedadları aşkar edir, onlarla iş aparılır.

Bakıda və regionlarda müxtəlif təlim-məşq toplantıları təşkil olunur. Göygöl Olimpiya İdman Kompleksində, Goranboy Olimpiya İdman Kompleksində region idmançılarımız üçün müxtəlif təlim-məşq toplantıları keçirilib. Bu yaxınlarda Bakı şəhərində böyük təlim-məşq toplantısı keçirilib. Toplantıda 80 idmançı, o cümlədən 48 region məşqçisi də iştirak edib. Qeyd edim ki, bu prosesləri gələcəkdə də davam etdirəcəyik. Həm federasiya, həm də idmançılar üçün qarşıdakı ildə yeni hədəflər müəyyənləşdirmişik.

**– 2026-cı ildə qarşınızda hansı hədəflər dayanır?**

– Gələn il federasiyanın qarşısına qoyduğu əsas hədəflər, ən azı, builki nəticələri qorumaq və daha böyük uğurlar əldə etməkdir. Bildiyiniz kimi, 2026-cı ildə Bakıda cüdo üzrə Dünya çempionatı keçiriləcək. Təbii ki, bu mötəbər yarışda biz, ilk növbədə, Azərbaycan xalqını, idmansevərləri öz nəticələrimizlə sevindirməliyik. Bunun üçün həmin yarışlara çox yüksək səviyyədə hazırlaşmalıyıq.

Eyni zamanda, məşqçilər ümumi tövsiyələri ilə bərabər, hər bir idmançını fərdi şəkildə də analiz edir, onların beynəlxalq arenalarda buraxdıqları səhvləri təkrarlamaması üçün, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində xüsusi proqramlar tərtib edirlər. Sadaladığım vəzifələrə çatmaq üçün həm respublika daxilində, həm də ölkə xaricində müxtəlif təlim-məşq toplantıları nəzərdə tutlub, eyni zamanda, bir sıra yarışlarda idmançılarımızın iştirakı planlaşdırılıb.





Parisdə keçirilən 2024-cü il Olimpiya oyunlarında cüdo millimiz yüksək nəticə göstərərək 2 qızıl medal qazandı. Bu da məşqçilər korpusunun idmançılarla birlikdə böyük işinin nəticəsidir. Mən bunu Allahın bizə bəxş etdiyi bir lütf olduğunu düşünürəm. Çünki Olimpiya oyunları elə bir yarışdır ki, orada idman bəxti çox böyük rol oynayır. Bilirəm ki, idmansevərlər cüdo millimizdən həmişə yüksək nəticələr gözləyirlər. Bizim də onların dəstəyinə, dualarına ehtiyacımız var.

Əminəm ki, idmançılarımız və məşqçilərimiz yenə də federasiya rəsmilərinin rəhbərliyi ilə qarşıdakı yarışlarda da var qüvvələri ilə mübarizə aparacaqlar. Federasiya rəhbərliyi idmançıların və məşqçilərin hər bir istəyini yerinə yetirməyə çalışır. Onların fiziki, mənəvi və maddi ehtiyaclarının qarşılanmasına operativ münasibət göstərir.

Son olaraq bildirim ki, bu gün federasiyanın əldə etdiyi uğurlar Azərbaycanda idmana göstərilən dövlət qayğısının bariz nümunəsidir. Prezident cənab İlham Əliyevin ölkə daxilində və beynəlxalq arenada apardığı uğurlu siyasət biz idmançılara da ruh yüksəkliyi verir və iştirak etdiyimiz bütün yarışlarda Azərbaycan bayrağını daim zirvələrə qaldırmağa çalışırıq.

Müzəffər ölkəmizi qalib idmançılarımız ləyaqətlə təmsil edir. Federasiya Prezident İlham Əliyevin bu sahəyə xüsusi qayğısını hər an hiss edir. Dövlət başçımıza və Azərbaycan cüdosuna dəstək verən bütün tərəfdaşlara, məşqçilərə, idmançılara və azarkeşlərə minnətdarıq.

**– Yeni ildə federasiyanıza və cüdoçularımıza daha böyük uğurlar arzulayırıq.**

***Müsahibəni apardı:***
***Qabil YUSİFOĞLU***
***XQ***

# Hava ilə bağlı "sarı xəbərdarlıq" nədir?

## *"Qorxuya düşməyin, amma ehtiyatlı olun!"*

**Dekabrın 15-də Bakıda və Abşeron yarımadasında, eyni zamanda, bəzi rayonlarda gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı xəbərdarlıq verilmişdi. Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yaymışdı. Bildirilmişdi ki, Bakıda və Abşeron yarımadasında, Xızı, Xaçmaz, Qusar, Şabran, Siyəzən, Neftçala, Salyan, Hacıqabul, Qobustanda şimal-qərb küləyi əsəcək, küləyin sürəti 13.9-20.7 m/san təşkil edəcək.**



FHN isə əhaliyə müraciət edərək, müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırmışdı: "İntensiv yağıntıların səbəb ola biləcəyi subasma, habelə sel və daşqından qorunmaq üçün təhlükəli ərazilərdən uzaq durmalı, belə təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmalı, xilasedicilərin çağırış və tövsiyələrinə sözsüz əməl edilməlidir".

Bəs hava ilə bağlı "sarı xəbərdarlıq" nədir? Qeyd edək ki, Azərbaycanda hava ilə bağlı sarı xəbərdarlıq əhalini potensial təhlükəli, lakin hələlik ciddi fəsadlar yaratmayan meteoroloji hadisələr barədə məlumatlandırmaq məqsədi daşıyır. Bu xəbərdarlıq hava şəraitinin adi vəziyyətdən fərqləndiyini və müəyyən fəsadlar yarada biləcəyini göstərir. Sarı xəbərdarlıq zamanı gözlənilən hava hadisələri insanların gündəlik həyatına, nəqliyyatın hərəkətinə və açıq havada aparılan fəaliyyətlərə müəyyən təsir göstərə bilər. Əsas məqsəd vahimə yaratmaq deyil, insanları diqqətli olmağa təşviq etməkdir.

Azərbaycanda sarı xəbərdarlıq hava şəraitində qeyri-adi dəyişikliklər olacağı proqnozlaşdırıldıqda verilir. Bu dəyişikliklər hələlik ciddi təhlükə yaratmasa da, insanlar üçün diqqət və ehtiyat tələb edir. Sarı xəbərdarlığın tipik səbəblərinə güclü külək, intensiv yağış, qar, şaxta və buzlanma daxildir. Belə şəraitdə yolların sürüşkən olması, görünüş məsafəsinin azalması, ağacların və zəif konstruksiyaların zədələnməsi kimi hallara rast gəlinə bilər. Sürücülər, açıq havada fəaliyyət göstərənlər və kənd təsərrüfatı ilə məşğul olanlar bu xəbərdarlığa əməl etməli və təhlükəsizlik tədbirlərini gücləndirməlidirlər.

Onu da bildirək ki, hava şəraiti ilə bağlı "narıncı" və "qırmızı" xəbərdarlıq da var. Birincidə daha yüksək risk, daha ciddi tədbirlər, ikincidə isə ən yüksək risk, insanların təhlükəsizliyi üçün ciddi tədbirlər görülməsini tələb edir.

***Ə.PÜNHAN***
***XQ***


Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

*aşağıdakı kafedralarda vakant vəzifələrin tutulması üçün*

MÜSABİQƏ ELAN EDİR

1. "Dillər" kafedrası – dosent 1 yer.
2. "Politologiya və siyasi idarəetmə" kafedrası – dosent 1 yer.

Müsabiqədə dosent vəzifəsinin tutulması üçün bu istiqamətlər üzrə elmlər doktoru və fəlsəfə doktorları iştirak edə bilərlər. Sənədlər elan dərc edilən gündən bir ay müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana və ya sakit.aliyev@dia.edu.az elektron poçtuna təqdim etməlidirlər.

Telefon: 492-76-03.
Ünvan: Bakı şəhəri, Lermontov küçəsi 74, 23-cü otaq.



"Böyükşor Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

31 yanvar 2026-cı il saat 13.00-da "Böyükşor Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

1. Səhmdar cəmiyyətin 2025-ci il üzrə maliyyə–təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və illik hesabatların təsdiqi.
2. Mənfəətin bölüşdürülməsi və dividendlərin verilməsi haqqında qərarın qəbul edilməsi.
3. Cəmiyyətin audit komitəsinin yaradılması və üzvlərinin seçilməsi.

Ümumi yığıncaq Bakı şəhəri, Böyükşor qəsəbəsi, 2062-ci məhəllədə keçiriləcəkdir. Səhmdarlardan şəxsiyyət vəsiqələrini və bank rekvizitlərini təqdim etmək xahiş olunur.

***Müşahidə şurası***



"Şüşəplastmas" ASC səhmdarlarının nəzərinə!

"Şüşəplastmas" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 23 yanvar 2026-cı il saat 9.30-da "Şüşəplastmas" ASC-də Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

1. Cəmiyyətin idarə heyəti sədrinin və üzvlərinin seçilməsi.
2. Cəmiyyətin müşahidə şurasının yeni tərkibinin və sədrinin seçilməsi.
3. Cəmiyyətin təftiş komissiyasının yeni tərkibinin və sədrinin seçilməsi.
4. "Şüşəplastmas" ASC-nin nizamnaməsinin yeni redaksiyada təsdiqi.

Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla (050) 265-48-87 nömrəli telefonla əlaqə saxlayıb və ya cəmiyyətin ünvanında tanış olmaq mümkündür.

***Müşahidə şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 266 (30960) 18 dekabr 2025-ci il, cümə axşamı

## İDMAN

### "Güləş Qarabağda" kampaniyası Füzulidə başa çatıb



**Azərbaycan Güləş Federasiyasının (AGF) keçirdiyi "Güləş Qarabağda" kampaniyası başa çatıb.**

AGF-nin mətbuat xidmətindən verilən məlumata görə, Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsinin təşkilati dəstəyilə təşkil edilən kampaniyaya Füzuli rayonunda yekun vurulub.

Azərbaycan güləşinin tanınmış simaları bu rayonun IV Qayıdış qəsəbəsində yerləşən güləş zalında yeniyetmə və gənc idmançılarla görüşüblər.

Onlar gələcəyin pəhləvanlarını daim əzmkarlıq nümayiş etdirməyə, mübariz, nizam-intizamlı olmağa və yüksək hədəflərə doğru inamla addımlamağa səsləyiblər. Federasiyanın inventar dəstəyi ilə fəaliyyətini davam etdirən güləş zalının məşqçisi Vüsal Eminov öz növbəsində AGF-yə və titullu güləşçilərə təşəkkürünü bildirib, bu görüşün gənc nəslə böyük motivasiya olduğunu qeyd edib.

Bununla da "Güləş Qarabağda" kampaniyasına yekun vurulub. Kampaniya çərçivəsində nümayəndə heyətinin iştirakı ilə Xankəndi, Laçın, Şuşa və Füzulidə təbliğat-təşviqat xarakterli tədbirlər keçirilib.

### "Qarabağ" "Sabah"la oynayacaq



**Misli Premyer Liqasında I turdan təxirə salınmış "Sabah" – "Qarabağ" matçının təyinatları məlum olub.**

"Bank Respublika Arena"da keçiriləcək matçı FIFA referisi Elçin Məsiyev idarə edəcək. Ona Elşad Abdullayev, Pərvin Talıbov və Vüqar Həsənli kömək edəcəklər.

Tural Qurbanov VAR-da, Asiman Əzizli isə AVAR-da təmil olunacaq. Hakim-inspektor vəzifəsini Vüsal Əliyev yerinə yetirəcək. AFFA nümayəndəsi isə Erkin Hüseynov olacaq.

Qeyd edək ki, "Sabah" – "Qarabağ" oyunu bu gün, saat 19:30-da başlayacaq. XV turdan sonra turnir cədvəlinə 14 oyundan 33 xal toplayan Ağdam təmsilçisi başçılıq edir. Paytaxt təmsilçisi isə 31 xalla 2-ci pillədə yer alıb.

### FIFA-nın Dohada qadın futbolu müzakirəsi



**AFFA-nın vitse-prezidenti və İcraiyyə Komitəsinin üzvü Könül Mehdiyeva FIFA-nın Qadın Futbolunun İnkişafı Komitəsinin üzvü qismində Qətərin paytaxtı Dohada keçirilən plenar iclasa qatılıb.**

AFFA-nın mətbuat xidmətindən verilən məlumata görə, ilk iclas tanışlıq xarakterli olub, məqsədlərin müəyyənləşdirilməsinə, iş prosedurlarının və digər təşkilati məsələlərin razılaşdırılmasına həsr edilib.

Mərasimdə qadın futbolunun inkişafı, müxtəlif regionlarda bu sahə üzrə FIFA layihə və proqramlarının tətbiqi, daha da irəli aparılması məsələləri ilə bağlı müxtəlif tövsiyələr verilir və müzakirələr aparılır.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Bir fotonun söylədikləri*

# "Sevinc" kubokunun müəllifləri – Tofiq Bəhramov, İsmət Qayıbov…

**Azərbaycan mətbuatında, o cümlədən idman jurnalistikasında dərin iz buraxmış mərhum həmkarım, Əməkdar mədəniyyət işçisi Şakir Yaqubovun qələmə aldığı və futbol adamları tərəfindən rəğbətlə qarşılanmış kitablardan biri belə adlandırılmışdı: "Hakim mərkəzi göstərər...". Ustad jurnalistin bu kitabı 2000-ci ildə "Hərbi nəşriyyat"da çap olunmuş və Beynəlxalq Futbol Federasiyası hakimlər korpusunun Azərbaycanda ilk səlahiyyətli nümayəndəsi, FİFA-nın "Qızıl fiti"nin sahibi Tofiq Bəhramovun 75 illiyinə həsr edilmişdi.**



Müəllif kitabda onu da diqqətə çatdırıb ki, Tofiq müəllim həm də uzun illər ərzində uşaqlar arasında çox sevilən "Sevinc" futbol klubunun prezidenti olmuş və bu yarışların geniş yayılması işinə köməyini əsirgəməmiş, ona öz töhfəsini vermişdir.

Xatirələr işığında bizi ötən əsrin 70–80-ci illərinə qaytaran kitabda verilmiş fotodakı insanlar idman ictimaiyyətimizin yaşlı nəslinə tanışdırlar. Müəllif onları "Sevinc" kubok respublika yarışlarının keçirilməsinə məsul şəxslər Tofiq Bəhramov (sağdan birinci), Həmid Musayev, Akif Quliyev və İsmət Qayıbov kimi təqdim etmişdir. Foto da yəqin ki, uşaqların həmin sevincli turnirlərindən birində lentə alınıb.

Fotoda Tofiq Bəhramovu, şübhəsiz, dərhal tanıdınız və unudulmaz hakimimiz haqqında əlavə bir söz deməyə ehtiyac yoxdur.

Tofiq müəllimin sağındakı Həmid Musayev o illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsində məsul vəzifədə çalışırdı. Onun yanındakı Akif Quliyev "Azərbaycan pioneri" qəzetinin əməkdaşı idi. Redaksiyaları Mətbuat prospektindəki "Azərbaycan" nəşriyyatının 7-ci mərtəbəsində yerləşirdi. Mənim çalışdığım "İdman" qəzeti isə "Azərbaycan müəllimi" və "Ədəbiyyat və İncəsənət" qəzetləri redaksiyaları ilə birlikdə 9-cu mərtəbədə fəaliyyət göstərirdi. Hərdən nəşriyyatda rastlaşır, hal-əhval tuturduq. "Sevinc"in daha bir məsul şəxsi həmin dörd nəfərin arasında yaşca ən kiçiyi, gələcəkdə respublikanın Baş prokuroru kimi geniş nüfuz qazanacaq İsmət Qayıbov idi. Onların uşaq futboluna böyük qayğı birləşdirirdi.

Təxminən yarım əsrin yadigarı olan foto belə bir qənaətə gəlməyə ciddi əsas verir ki, o uzaq illərdə Azərbaycanda uşaq futbolunun inkişafı diqqət mərkəzində olub. Bunun da nəticəsində "Sevinc" kuboku yarışları paytaxt Bakı ilə yanaşı, respublikanın bütün şəhər və rayonlarında kütləvi hal almışdı. Onların xoşbəxt qalibləri Ümumittifaq "Dəri top" turnirlərində Azərbaycanı təmsil etmək, böyük futbola aparan yolda bacarıqlarını sınaqdan çıxarmaq, püxtələşmək imkanı qazanırdılar. Sonralar Sovet İttifaqı çempionatlarında çıxış edən ustalardan ibarət komandalarımıza dəvət olunan və etimadı tam doğruldan məşhur futbolçuların bir çoxu məhz buna görə "Sevinc" kuboku yarışlarının təşkilatçılarına razılıq hissi ilə minnətdarlıqlarını bildirirdilər.

Belə məşhurlardan biri də "Neftçi"də çıxışlarından yaxşı yadımızda qalmış Qəncə futbolunun yetirməsi Asif Əliyevdir. Əməkdar jurnalist, ömrünün son illərində Azərbaycan Futbol Federasiyaları Assosiasiyasında (AFFA) Futbol muzeyinin direktoru vəzifəsində çalışmış Abas Əzimovun 2007-ci ildə flaqmanın 70 illiyi münasibətilə nəşr etdirdiyi "Neftçi"–70" kitabında diqqətimizə çatdırdığı statistik göstəricilərdən məlum olur ki, A.Əliyev 1977–1985-ci illərdə SSRİ çempionatlarının güclülər dəstəsində "Neftçi"nin heyətində 183 oyunda meydana çıxmış və 34 qolun müəllifi olmuşdur.

Bu isə o deməkdir ki, yarımmüdafiəçi orta xətdə öz işini lazımi səviyyədə yerinə yetirməklə yanaşı, komandanın hücum əməliyyatlarında da fəal iştirak etmişdir. İnşallah, artıq astanasında olduğumuz 2026-cı ilin fevral ayında 70 yaşı tamam olacaq SSRİ idman ustasının uzaq məsafələrdən güclü və dəqiq zərbələrini də unutmamışıq.

Asif Əliyevin və daha neçə-neçə məşhur futbolçumuzun "Sevinc" kuboku yarışlarında, məhəllə komandalarının görüşlərində, məktəblilərin rayon, şəhər, respublika spartakiadalarında və digər kütləvi turnirlərdə iştirakı yaxşı bəhrə verən çox faydalı tədbirlər idi.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Usman Dembele ilin "Ən yaxşısı"oldu

*Bəs bu sorğuda Azərbaycan təmsilçisi və Messi kimləri seçib?*

**FIFA Qətərin paytaxtı Dohada keçirilən toplantıda Dünya futbolunun ən yaxşılarını mükafatlandırıb. Fransa millisi və "Pari Sen-Jermen"in hücumçusu Usman Dembele 2025-ci ilin ən yaxşı oyunçusu nominasiyasında "The Best" mükafatına layiq görülüb.**




Milli komandaların kapitan və baş məşqçiləri, həmçinin media nümayəndələri və azarkeşlərin qatıldığı sorğuda **Azərbaycanı təmsil edən ekspert Rasim Mövsümov** nəticələrə bağlı fikirlərini XQ ilə bölüşüb:

"Sentyabrda "Qızıl top"u qazanan Dembelenin FIFA tərəfindən də dünyanın ən yaxşı futbolçusu seçiləcəyi gözlənilən idi. Bu sorğuda da respondentlər tərəfindən oyunçuların 2024-cü ilin avqustundan 2025-ci ilin avqustunadək olan çıxışı qiymətləndirilib.

28 yaşlı Dembelenin "Pari Sen-Jermen" ilə Çempionlar Liqasını qazanması və onun UEFA tərəfindən turnirin ən dəyərli oyunçusu seçilməsi, həmçinin mövsüm ərzində bütün yarışlarda 35 qol vurması nüfuzlu mükafata layiq görülməsi ilə nəticələnib.

Qeyd edim ki, o, həmçinin Fransa millisinin də üzvüdür və bu komandanın heyətində 2018-ci ildə dünya çempionu olub (4 matçda oynayıb). Klub karyerasının əvvəlində "Renn" və Dortmund "Borussiya"sında çıxış edib, sonra 6 mövsüm "Barselona"nın şərəfini qoruyub, lakin orada ümidləri doğrultmayıb və ən yaxşı halda 2018/19 mövsümündə ümumilikdə 14 qol vurub. 2023-cü ildən isə "Pari Sen-Jermen"in formasını geyinir".

"The Best"in yekun üçlüyündə, həmçinin, "Barselonalı" Lamin Yamal və "Real Madrid"li Kilian Mbappenin də yer aldığını deyən R.Mövsümov öz anketində sıra ilə Dembele, Yamal və "Pari Sen-Jermen"in digər üzvü Aşraf Hakiminin adlarını yazdığını bildirdi: "Yeri gəlmişkən, İtaliya millisinin kapitanı Canluici Donnarumma da bu oyunçuları seçib, amma cüzi fərqlə: onun sıralamasında ikinci və üçüncü mövqedəki futbolçuların yeri dəyişib.

Sorğuya Mərakeş millisinin kapitanı kimi qatılan Hakiminin özü isə Mbappe, Dembele və Rafinyaya səs verib. Dünya çempionu Argentina komandasının kapitanı, əfsanəvi Lionel Messinin seçimi isə belə olub: Dembele, Mbappe və Yamal.

Digər laureatlara gəlincə, səs verdiyim ispaniyalı Luis Enrike ən yaxşı məşqçi, italiyalı Canluici Donnarumma ən yaxşı qapıçı, qadın futbolunda isə ispaniyalı Aytana Bonmati ən yaxşı futbolçu (ardıcıl 3-cü dəfə!), niderlandlı Sarina Vieqman ən yaxşı məşqçi və ingiltərəli Anna Hempton ən yaxşı qapıçı seçiliblər. Luis Enrikenin daha əvvəl - 2015-ci ildə də FIFA tərəfindən ən yaxşı məşqçi seçildiyini, Vieqmanın isə 5-ci dəfə bu şərəfə layiq görüldüyünü qeyd etmək istərdim".

*İ.HƏSƏNQALA*
*XQ*

### "Qadınlar, addımla marş!"

**Müasir həyat tərzi qadınları getdikcə daha az hərəkətli edir. Ofis işi, uzun müddət oturaq vəziyyət, məişət qayğıları və texnologiyadan asılılıq fiziki aktivliyin azalmasına səbəb olur. Halbuki gündəlik yerimə, yəni addım atmaq sağlamlığın qorunmasında ən sadə və əlçatan vasitələrdən biridir.**

Ümumdünya təcrübəyə əsasən mütəxəssislər bildirirlər ki, sağlam həyat tərzi üçün gündə orta hesabla 7-10 min addım atmaq faydalı sayılır. Bu göstərici qadının yaşından, sağlamlıq vəziyyətindən və fiziki hazırlıq səviyyəsindən asılı olaraq dəyişə bilər. Gənc və orta yaşlı qadınlar üçün gündə 8-10 min addım ürək-damar sisteminin möhkəmlənməsinə, çəkinin nəzarətdə saxlanmasına kömək edir. 50 yaşdan yuxarı qadınlar üçün isə 6-8 min addım belə sağlamlıq baxımından kifayət qədər təsirlidir.

Az hərəkət edən və ya xroniki xəstəlikləri olan qadınlar üçün 3-5 min addımdan başlayaraq tədricən artırmaq tövsiyə olunur. Gündəlik addımlamaqla ürək və damar xəstəlikləri riskini azaltmaq, artıq çəki və piylənmənin qarşısını almaq, sümükləri möhkəmləndirmək, osteoporoz riskini azaltmaq, stresi və gərginliyi azaldaraq əhvali-ruhiyyəni yaxşılaşdırmaq olar. Eyni zamanda addımlamaq hormonal tarazlığın qorunmasına da müsbət təsir göstərir.

Mütəxəssislərin fikrincə, az addım da faydasız deyil. Ən vacib məqam ondan ibarətdir ki, hərəkət tam hərəkətsizlikdən yaxşıdır. Gündə 10 min addım ata bilməyən qadınlar ruhdan düşməməli, lift əvəzinə pilləkəndən istifadə etməli, qısa məsafələri piyada qət etməyə çalışmalıdırlar. Hər əlavə 1000 addım belə sağlamlığa müsbət təsir yaradır.

Bəli, qadınlar üçün sağlamlığın açarlarından biri müntəzəm hərəkətdir. Gündəlik addım sayı rəqəm deyil, həyat keyfiyyətinin göstəricisidir. Öz imkanlarını nəzərə alaraq atılan hər addım daha sağlam, enerjili və aktiv həyata doğru atılmış addımdır.

*Nurəngiz ADİLQIZI*
*XQ*

## HAVA

### Dağlarda qar, aranda quraqlıq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 3-6, gündüz 7-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 774 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı, qar yağacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 7-10 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

Gecə və səhər bəzi dağlıq ərazilərin yolların buz bağlaması ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

✓ *Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının tələbəsi Məmmədova Əsli Qurbanəli qızının adına verilmiş Si-639 nömrəli tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Zakir Qaralova qardaşı

**TAHİR QARALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2331
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00